Bu bir xalq qəzetidi
ƏDALƏT

# Azərbaycanla Ermənistanın dövlət sərhədindəki buraxılış məntəqələri müəyyənləşib




**”Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısı”nda dəyişiklik edilib.**

Adalet.az xəbər verir ki, bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb.

Dəyişikliyə əsasən, aşağıdakı buraxılış məntəqələri müəyyən edilib:

Eyvazlı dövlət sərhədindən buraxılış məntəqəsi - Qubadlı rayonu (Eyvazlı kəndi), Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında.

Qazançı dövlət sərhədindən buraxılış məntəqəsi - Zəngilan rayonu (Qazançı kəndi), Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında.

Füzuli Beynəlxalq Hava Limanında dövlət sərhədindən buraxılış məntəqəsi (Füzuli rayonu, Mirzəcamallı kəndi).

Zaqatala Beynəlxalq Hava Limanında dövlət sərhədindən buraxılış məntəqəsi (Zaqatala rayonu, Muxax kəndi).

# Vilayət Quliyev yeni təyinatından yazdı



**Xəbər verdiyimiz kimi, professor Vilayət Quliyev dünən Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının Bosniya və Herseqovinada fövqəladə və səlahiyyətli səfiri təyin edilib.**

Adalet.az xəbər verir ki, yeni təyinatı barədə Vilayət Quliyev ”Facebook” səhifəsində post paylaşıb. ”Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev böyük etimad göstərərək 4 may 2022-ci il tarixli sərəncamı ilə məni ölkəmizin Bosniya və Herseqovinada fövqəladə və səlahiyyətli səfiri təyin edib. Bu münasibətlə tanıdığım və tanımadığım yüzlərlə insan sosial şəbəkə vasitəsi ilə təbriklərini çatdırıb, gələcək fəaliyyətimlə bağlı xoş arzularını bildirib. Hər kəsə səmimi təşəkkürümü, minnətdarlığımı yetirirəm. Dövlət başçısının və hər bir vətəndaşımızın etimadını doğrultmaq, qüvvəm və imkanım daxilində sevimli Vətənimizə xidmət etmək bundan sonra da həyatımın ümdə məqsədi olacaq”, - deyə Vilayət Quliyev postunda qeyd edib.

# ÇAYLAR DAŞIB SEL OLDU, AMMA TAXILLAR TEL-TEL OLMADI

***Ölkənin Aran rayonlarında əkinçilər susuzluqdan Kərbəla müsibəti çəkir. Özü də təkcə bu il yox, Kərbəla müsibəti hər il baş verir.***

***Kimsə bunu su qıtlığının üzərinə yıxmasın, təsərrüfatsızlıqdır. Və bu təsərrüfatsızlığa görə də sudan səmərəli istifadə edə bilmirik. Məsuliyyəti də Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin üzərinə düşür. Su itkisinin qarşısını ala bilmirlər, nəticədə su son ünvana gedib çata bilmir. Və həm də su düzgün bölüşdürülmür, ayrı-seçkiliyə yol verilir. Ən böyük islahat bu Cəmiyyətdə getməlidir.***

# "BİZƏ AZƏRBAYCAN ORDUSUNA VERDİYİNİZ SİLAHLARDAN VERİN"





**Bu sözləri Zelenski üzünü NATO dövlətlərinə tutub deyib.**

Əvvəla, heç bir NATO dövləti bizə silah verməyib, əksinə, ermənilərə verib. Söhbət Türkiyədən gedirsə, Türkiyə NATO dövlətindən daha çox bizim qardaşımızdır.

Və bizə də Ukraynaya verdiyi ”Bayraktar”dan verib, nə təyyarə, nə tank, nə top verməyib.

Belə bir rəvayət var. Sultan Səlimlə Şah İsmayılın qardaş savaşında Osmanlılar toplardan istifadə edirlər. Və bir döyüşdə Şah İsmayıl necə qəzəblənirsə topa qılınc çalır və qılınc topun yarısınacan işləyir.

Müharibədən sonra Sultan Səlim Şah İsmayıldan həmin qılıncı istəyir, Şah İsmayıl həmin qılıncı göndərir. Sultan Səlim var gücüylə nə qədər topa qılınc çalsa da qılınc topu kəsmir.

Şah İsmayıla məktub göndərir ki, sən həmin qılıncı göndərməmisən. Şah İsmayıl cavabında yazır:

**- Qılınc həmin qılıncdı, bilək həmin bilək deyil.**

*İradə TUNCAY*

# Filosoflar gəmisi

Bax: səh.4

# Xalqın və tarixin yaddaşında əbədiləşən şəxsiyyət



**Hər bir xalqın tarixi öz şəxsiyyətləri, dahiləri, dühaları, qəhrəmanları və bütövlükdə şəxsiyyətləri ilə seçilib, fərqlənib. Bu mənada Azərbaycan xalqının bütün zamanlarda önə çıxan simaları təkcə xalqımızı yox, həm də tariximizi şərəfləndirib. Son yüz ildə bu böyük şərəfi xalqımıza yaşadan, bəxş edən, Ümummilli Liderimiz, Ulu Öndərimiz Heydər Əlirza oğlu Əliyev olubdur!**

Məlum olduğu kimi, Ulu Öndərimiz Azərbaycanın bir dövlət olaraq həm Sovet dönəmində, həm də müstəqillik illərində təsdiqini, təqdimatını dünya arenasına çıxarmağı bacaran və səsimizi, sözümüzü, bayrağımızı ən yüksək tribunalarda təqdim edən böyük dühalardan biridir. Məhz onun ”Fəxr edirəm ki, mən azərbaycanlıyam!” - deyərək bu dövləti, bu xalqı fəxr ediləcək zirvəyə yüksəltməsi tariximizin və xalqımızın ən böyük gerçəkliyi, ən böyük təqdimatıdır!

Azərbaycan xalqı öz böyük oğlunun, əbədiyaşar liderinin 1999-cu ilini qarabağlı günlərlə, Şuşa təntənələri ilə qarşılayır. Belə ki, onun Ata Vəsiyyətini gerçəkləşdirən Azərbaycan prezidenti dünyaya sübut etdi ki, bu xalq, bu dövlət özünün Ümummilli Liderinin hər bir sözünü, hər bir tapşırığını yerinə yetirməyə qadirdir. Bu, həm də Ümummilli Liderin əbədiyaşarlığının, uzaqgörənliyinin təntənəsidir. Artıq dünya birmənalı şəkildə Azərbaycanın haqqını tanıyır, onunla hesablaşır və qələbəsini dəstəkləyir. Deməli, yolumuz Ulu Öndərin yoludur, qələbəmiz onun qələbəsidir, bir dövlət olaraq gələcəyimiz onun layihəsinin gələcəyidir. Nə qədər ki, bu xalq, bu dövlət var, onun tarixinin böyük simaları, o cümlədən də Ulu Öndərimiz var olacaqdır. Bu, ən böyük həqiqətdir.

**Azərbaycan xalqı öz mənəvi zənginliyinin bir çaları olan yaşatmaq gücünü, istəyini, sevgisini və qabiliyyətini ortaya qoyaraq hər zaman olduğu kimi bundan sonra da dahilərini, dühalarını, qəhrəmanlarını, xüsusilə, Heydər Əlirza oğlu Əliyevi bütün zamanlarda yaşadacaqdır və növbəti 2023-cü ildə Ümummilli Liderimizin 100 yaşını böyük bayramlarımızdan biri kimi qeyd edəcək.**

**“Ədalət”**

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 22 (5959) 7 may 2022-ci il | Qiyməti 30 qəpik

# Prezident: Zəngəzur dəhlizi artıq reallıqdır



Bax:səh-2

# "QARABAĞ" ÇEMPİONDU!



***Çempionatın qurtarmasına 3 tur qalmış ”Qarabağ” çempionluğunu təmin etdi,***

***Qurban Qurbanovu və onun köhlən atlarını ürəkdən təbrik edirik. Gün o gün olsun ki, çempion ev oyunlarını Ağdamda, doğma stadionunda keçirsin. Artıq söz nəyə lazımdı ey! Qurban, sükanı belə saxla!***

**Ayxan Abbasovun qurduğu ”Sumqayıt” futbol komandasını Baqa kişi kimi dağıdır və Ayxan Abbasovun gözünü çıxaranlar Baqaya qaşının altında gözün var demir.**





# Məcburi köçkünlərin qayıdışı mövzusunda görüş keçirildi



**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı Nümayəndəlıyi, eləcə də, Kənd Təsərrüfatı Nazirliyi və Regional İnkişaf İctimai Birliyinin əməkdaşlarının iştirakı ilə tarixdə məcburi köçkünlərin qayıdışı və hazırlıq mərhələsi mövzusunda görüş keçirilib.**

Adalet.az xəbər verir ki, görüşdə dövlətin pilot qayıdış prosesində planlaşdırdığı addımlar, icmaların qayıdış prosesinə cəlb olunması və icmaların potensialının gücləndirilməsi, qayıdış prosesində hədəf icmaların ehtiyaclarının və gözləntilərinin dəqiqləşdirilməsi müzakirə edilib. O cümlədən, mənzil, xidmətlər, məşğulluq, kommunikasiya və koordinasiya mexanizmləri üzrə müvafiq icmalara lazımi informasiyaların verilməsi və məlumatlılığın artırılması kimi məsələlər barədə də fikir mübadiləsi aparılıb.

Dövlət Komitəsi və BMT QAK-ın nümayəndələri tərəfindən qayıdış zamanı ictimaiyyətin bu prosesdə əsas maraqlı tərəf olaraq formalaşdırılması və səlahiyyətləndirilməsi istiqamətində birgə iş və sistemli fikir mübadiləsi aparıldığı bildirilib, mövcud əməkdaşlığın daha da genişlənməsinin vacibliyi vurğulanıb.

# ÜÇ AYDI "Kxx-Kxx" OYNAYIRDILAR?!



**Qəzetələrdə oxuyuram ki, Putin may ayının 9-da Ukraynaya müharibə elan edəcək. Ukraynanın 30 faizdən çox ərazisi darmadağın edilib, Mariupol və digər şəhərləri Ağdamın gününə düşüb. Hər iki tərəfdən ölənlərin sayı 60-70 mini keçib, dəqiq statistika yoxdur. Təbii ki, ikisi də əhali ruhdan düşməsin deyə, ölənlərin sayını gizlədirlər.**

İndi deyirlər ki, mayın 9-da Putin Ukraynaya müharibə elan edəcək. İndiyədək bəs nə idi? Biz uşaq vaxtı ”dava-dava” oynayırdıq ey, ”kxx-kxx” eləyirdik ki, səni öldürdüm, belə çıxır Rusiya indiyədək ”kxx-kxx” eləyirdi?

Müharibəni də lağ-lağıya çeviriblər. Arada da yetim-yesir qırılır. Dünya dövlətlərinin də əlindən-filandan bir iş gəlmir, əksinə, deyəsən, futboldakı kimi komanda tuturlar: Rusiya, yoxsa Ukrayna? Babat pul qoyurlar.

**Axırda ikisi də uduzacaq, udan ABŞ və NATO olacaq.**

Aqil ABBAS
aqilabbas@rambler.ru



# 9 MAY DA BELƏ GETDİ

*9 May! Bu gün bizim də, eləcə də bütün Sovet xalqının ən çox sevindiyi gün idi. Hətta Vaqif Səmədoğlu da bu gün haqqında şeir yazmışdı. Yazmışdı ki, günün bəxtinə bax ey. Bu günə niyə sevinirdik? Qələbə günü idi. Bu gün 50 milyon insanın qanı bahasına baha gəlmişdi. Bu müharibədə 300 mindən çox azərbaycanlı da şəhid olmuşdu.*

*Hüseyn Cavid yazır:*

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü!*

Bax: səh.2

***İki ildi ”Nərmin işi”ni başa çatdıra bilməyənlər görəsən, ”Tərtər işi”ni neçə ilə başa çatdırarlar?!***

***Variantlar:***

***1) 5 ilə;***
***2) 15 ilə;***
***3) 20 ilə;***
***4) Məsələ məlum olduğu üçün üstü basdırılsın.***



# HƏKİMLƏR SEVİNDİ, QALDI MÜƏLLİMLƏR



**Şad xəbər o oldu ki, tezliklə həkimlərin maaşı 1000 manatadək qaldırılacaq və həkimlər də ailələrini dolandırmaq fikirlərini başlarından atıb bütün ağıl və qabiliyyətlərini xəstələrin müalicəsinə sərf edəcək.**

**İndi qaldı müəllimlər.**

***Rusiya Donetsk və Luqanskda 9 May Qələbə paradı keçirə bilmədi. Belə getsə, deyəsən, o paradı Ukrayna keçirəcək.***

**Bütün günü Rusiya kanallarında Böyük Vətən Müharibəsi haqqında filmlər verilir, təsəllidən başqa bir şey deyil. Və o filmlər heç kəsi ruhlandırmır.**



İradə TUNCAY
iradetuncay@rambler.ru

# SEÇİLMİŞ



**Əslində bizim hamımızın dəqiq bildiyimiz bir həqiqət var ki, nə qədər öyrənməyə çalışsaq da, elmi ixtiralardan bəhrələnsək də, Aya uçsaq da, okeanların dibinə enməyə cəhd eləsək də, biz həyatın yaranması, insan övladının bu günə qədər keçdiyi yol, dünyanın sirləri haqqında dəqiq heç nə bilmirik. Nə qədər oxusaq da, axtardığımız çox suallara cavab tapa bilmirik. Din kitabları bir söz deyir, elm kitabları başqa söz, nəyə inanacağımızı müəyyən eləmək çətindir. Elmi nəzəriyyələrəmi, dini ehkamlaramı? Öz adımdan danışım - yaşım artdıqca cavab tapa bilmədiyim sualların sayı artır. Amma din kitablarında inandığım bir fikir var - ”Elə hikmətlər var ki, onların dalınca getməyin, çünki sirri Xudadır”.**

Bax: səh.3

# URUS ÇÖMÇƏSİ İRƏVANI XƏŞİL KİMİ QARIŞDIRIR

**Başına Dəmir yumruq dəymiş İrəvan hələ özünə gəlməyib. İstəyirlər ki, İrəvanı yerə yıxıb eşşək sudan gəlincə təpiyin altına salaq.**

Paşinyanın əleyhinə etiraz nümayişlərinin ardı-arası kəsilmir. Yolları bağlayırlar, hökumət evinə hücum edirlər, polislərlə əlbəyaxa olurlar.

Ermənistanı it gününə salmış Köçəryan və Sərkisyan cütlüyü nümayişçilərin ön sırasında gedir. Köçəryan oğlunu da yanına alıb. Dedilər ki, oğlunu polis tutub.

Bir sözlə, urus çömçəsi Ermənistanı xəşil kimi qarışdırır. Ukrayna ilə müharibədə öz başını itirən Rusiya Ermənistanda baş axtarır. Ay tapdı ha…

Əslində erməni xalqı Paşinyanın ətəyindən bərk yapışmalı, sağlığında ona heykəl qoymalıdır ki, bütün Ermənistanı məhv olmaqdan qurtarıb. Onsuz da dünya dağılır, heç bir dövlət o biri dövləti saymır, belə bir vurhavurda YAŞMA-nın bir batalyonu kifayət edir ki, İrəvanın altından girib üstündən çıxsın.

**Amma biz bunu istəmirik. Necə ki Xankəndinə toxunmadıq. Biz sülh istəyirik, barış istəyirik. Türklərin bir yaxşı sözü var, sən savaş istəyirsənsə onu alacaqsan.**

# GÜNÜN LƏTİFƏSİ

Cavan tərbiyəçi otağa kompyüter gətirir. Çətinliklə əyilib onu yerə qoyub uşaqlardan soruşur:

**- Uşaqlar, deyin görüm, otaqda neçə kompyüter var?**

- Bir!

**- Düzdür, - tərbiyəçi çox çətinliklə ikinci sonra isə üçüncü kompyüteri gətirir:**

**- İndi neçə kompyüter oldu?**



Bu vaxt müdirə otağa gəlib soruşur:

**- Nə edirsən?**

**- Uşaqlara üçə qədər saymaq öyrədirəm!**

- Biz həmişə bunu alma ilə öyrədirik. Elə bil bunu sən də eləyə bilərdin!

- Axı kitabda kompyüter yazılıb.

**- Kitabın növbəti səhifəsində 10-a qədər saymağı avtobuslarla öyrədiblər. Ümidvaram otağa avtobus gətirməyə hazırlaşmırsan?**

# Prezident: Zəngəzur dəhlizi artıq reallıqdır



**Zəngəzur dəhlizinə gəldikdə, artıq bu dəhliz reallıqdır. Zəngilan rayonunun ərazisindən keçən həm dəmir yolu, həm avtomobil yolu nəinki Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, eyni zamanda, beynəlxalq yükdaşımaları üçün yeni bir yol olacaq, beynəlxalq bir yol olacaq.**

Adalet.az xəbər verir ki, bunu Prezident İlham Əliyev mayın 4-də Vahid Hacıyevi Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən çıxışı zamanı deyib. Dövlət başçısı bildirib: ”Eyni zamanda, hazırda Zəngilan rayonunda böyük infrastruktur layihələri icra edilir. Onların arasında Zəngəzur dəhlizinin tərkib hissəsi olan nəqliyyat infrastrukturunu mən qeyd etmək istərdim. Bu il Zəngilan Beynəlxalq Hava Limanı istismara veriləcəkdir. Əminəm ki, bu hava limanının çox böyük funksiyaları olacaqdır. Çünki biz Zəngilanı gələcəkdə beynəlxalq nəqliyyat-logistika mərkəzi kimi görürük. Rayonun yerləşməsi, beynəlxalq bazarlara yaxın olması və digər amillər bunu təmin edəcək. Azad edilmiş torpaqlarda Füzulidən sonra ikinci hava limanının məhz Zəngilanda yaradılması əlbəttə ki, coğrafi vəziyyəti nəzərdə tutur, buna əsaslanır, eyni zamanda, bizim həm iqtisadi, nəqliyyat, həm də təhlükəsizliklə bağlı məsələlərimizi həll etmək üçün vacib vasitə olacaqdır. Zəngəzur dəhlizinə gəldikdə, artıq bu dəhliz reallıqdır. Zəngilan rayonunun ərazisindən keçən həm dəmir yolu, həm avtomobil yolu nəinki Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, eyni zamanda, beynəlxalq yükdaşımaları üçün yeni bir yol olacaq, beynəlxalq bir yol olacaq. Ona görə və eyni zamanda, keçmiş məcburi köçkünlərin rahatlığı üçün biz dörd və altı zolaqdan ibarət olan avtomobil yolunu sürətlə inşa edirik. Bu yolun hissə-hissə istifadəyə verilməsi gələn ildən başlayacaq”.

# Media üçün dövlət rüsumu 10 dəfə azaldıldı

**Azərbaycanda media üçün dövlət rüsumunun 10 dəfə azaldılıb.**

Adalet.az xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev ”Dövlət rüsumu haqqında” qanuna dəyişiklik edilməsi barədə qanunu təsdiqləyib. Belə ki, qanunun 22-ci maddəsində (Lisenziyalaşdırılan sahibkarlıq fəaliyyəti növlərinə lisenziya verilməsinə görə dövlət rüsumunun dərəcələri) ”ümumrespublika televiziya yayımı”, ”ümumölkə yerüstü televiziya yayımçısı” ifadəsi ilə əvəz edilərək dövlət rüsumunun məbləği 10 dəfə azaldılaraq 50 000 manatdan 5 000 manata qədər endirilib. Bundan başqa, qanunla audiovizual media fəaliyyətinə dair yeni dövlət rüsumları müəyyənləşib. Dəyişikliklə lisenziyaların dövlət rüsumunun dərəcəsi ümumölkə yerüstü radio yayımçısı üçün 2 500 manat, regional yerüstü radio yayımçısı üçün 500 manat, peyk yayımı həyata keçirən platforma yayımçısı üçün 2 500 manat, peyk yayımı həyata keçirməyən platforma yayımçısı üçün 1 500 manat, sifarişli yayım xidməti provayderi üçün 500 manat, sadə platforma operatoru üçün 1 500 manat, universal platforma operatoru üçün 2 500 manat, multipleks operatoru üçün 2 500 manat olub.

# “Azərbaycanda qeyri-enerji ixracında artım 45 faiz olub”

**”Ümumilikdə Azərbaycanda kənd təsərrüfatının inkişafı hökumətimiz üçün prioritetlərdən biridir. Çünki, birincisi, hazırda hər bir ölkə üçün, ola bilsin ki, bir neçə il əvvəl olduğundan daha vacib olan ərzaq təhlükəsizliyidir. Bizim üçün ikinci məsələ odur ki, bu, bizim artmaqda olan qeyri-enerji ilə bağlı ixracımızın mühüm hissəsini təşkil edir”.**

Adalet.az xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev mayın 6-da BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktoru Qu Donqyunu videoformatda qəbul edərkən deyib. ”Bu ilin üç ayı ərzində Azərbaycanda qeyri-enerji ixracında artım 45 faiz olub. Əlbəttə ki, bu, məşğulluq baxımından əhəmiyyətlidir. Çünki əhalimizin demək olar ki, yarısı kənd yerlərində yaşayır. Ona görə də bu insanlar üçün kənd təsərrüfatı əsas gəlir mənbəyidir. Siz yəqin ki, bizim islahatlarımızdan, hökumətin fermerlərə verdiyi subsidiyalardan, dəstəkdən xəbərdarsınız. Fermerlər hər hansı vergidən, o cümlədən torpaq vergisindən azaddırlar. Həmçinin biz fermerlərə güzəştli, aşağı faizlərlə kreditlər veririk. Bütün bunlar kənd təsərrüfatının sürətli inkişafı üçün imkanlar yaradır. Lakin əlbəttə ki, biz xüsusilə indi, ərazilər işğaldan azad ediləndən sonra hər şeyi düzgün planlaşdırmalı və müasir texnologiyalar tətbiq etməliyik”, - dövlət başçıs bildirib.

# İlham Əliyev azad edilən ərazilərdəki kənd təsərrüfatı potensialından danışdı

**”Biz FAO ilə Azərbaycan arasında tərəfdaşlığın səviyyəsindən çox məmnunuq. Yeddi il əvvəl imzalanmış razılaşma faktiki olaraq əməkdaşlığımızın yeni formatını yaratdı. Ümidvarıq ki, qarşıdakı illərdə biz bu səmərəli tərəfdaşlığı davam etdirəcəyik, xüsusilə indi - hər bir ölkə, o cümlədən Azərbaycan üçün ərzaq təhlükəsizliyi ilə bağlı məsələlərin getdikcə daha çox əhəmiyyət kəsb etdiyi bu çətin zamanda. Çünki kənd təsərrüfatı məhsullarının ixracında artım olduğuna baxmayaraq, biz hələ də kənd təsərrüfatı məhsullarını idxal edirik. Ona görə də, düşünürəm ki, bu, bizim ərzaq təhlükəsizliyi ilə bağlı gələcək planlarımızı, ümumi regional inkişafı müzakirə etmək və yeni çağırışları həll etmək baxımından vacibdir”.**

Adalet.az xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev mayın 6-da BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktoru Qu Donqyunu videoformatda qəbul edərkən deyib. ”Görüşümüz zamanı qaldırmaq istədiyim məsələlərdən biri də işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafı ilə bağlı planlarımızdır. Azərbaycan ərazilərinin işğaldan azad edilməsi nəticəsində hazırda biz infrastrukturun, o cümlədən kənd təsərrüfatının inkişafı baxımından həmin torpaqların işlənilməsinin aktiv mərhələsindəyik. Çünki işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı potensialı həqiqətən də çox böyükdür. Bu ərazinin fərqli təbiəti, iqlim qurşaqları və həm yerli istehlak, həm də ixrac üçün istehsalımızı əhəmiyyətli dərəcədə artırmaq imkanı var. Hazırda biz işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafının planlaşdırılması mərhələsindəyik və ona görə də sizin dəyərli tövsiyələriniz yüksək qiymətləndiriləcək”, - dövlət başçısı bildirib.

# Pandemiya insan alveri risklərini daha da artırıb

**Milli Məclisin yaz sessiyasının növbəti plenar iclasında daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimov Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair illik məlumatı təqdim edib. Müavin bildirib ki, beynəlxalq təşkilatların məruzələrindən görünür ki, 2021-ci ildə təxminən 25 milyon insan alveri qurbanı aşkar edilib və qlobal miqyasda hər 10 qurbandan 5-i yetkin qadınlar və üçdə biri uşaqlar olub. Son iki ildə Covid-19 pandemiyası ilə əlaqədar dünya üzrə milyonlarla insan iş yerini itirib və bu da insan alveri risklərini daha da artırıb.**

Diqqətə çatdırılıb ki, ötən il Azərbaycanın insan alverinə qarşı mübarizə strategiyası çərçivəsində həmin cinayətlərin qarşısının alınması, qurbanların müdafiəsi, vətəndaş cəmiyyəti, beynəlxalq və xarici təsisatlarla əməkdaşlıq pandemiya dövrünün tələblərinə uyğun davam etdirilib.

İnsan alverinin qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizminin daha səmərəli həyata keçirilməsi, insan alverinə qarşı mübarizədə koordinasiyanın gücləndirilməsi üçün müvafiq idarələrarası komissiyanın və İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında İşçi Qrupun hüquqi statusuna yenidən baxılaraq tərkibinin yenidən formalaşdırılması haqda qanunvericilik layihələri hazırlanıb. Azərbaycan Respublikasının ”Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası”na qoşulması barədə vəsatət də qaldırılaraq aidiyyəti üzrə göndərilib.



Məlumat verilib ki, insan alverinin profilaktikasında mühüm əhəmiyyət kəsb edən maarifləndirmə işi, qanunsuz miqrasiyanın, ölkə ərazisindən insan alveri məqsədilə tranzit istifadə edilməsinin və uşaq nikahlarının qarşısının alınması, baxımsız qalan, təhsildən yayınan, övladlığa götürülmüş, qəyyumluğa, yaxud himayəyə verilmiş uşaqların ailələrinə nəzarətin həyata keçirilməsi, kütləvi informasiya vasitələrinin, internet informasiya ehtiyatlarının monitorinqi və digər zəruri tədbirlər davam etdirilib. Daxili İşlər Nazirliyi tərəfindən antinarkotik təbliğatla bağlı təhsil müəssisələrində 700-ə yaxın maarifləndirmə tədbiri keçirilib. İnsan Alveri Qurbanlarına Yardım Mərkəzi, Mədəniyyət və Təhsil nazirlikləri tərəfindən ali təhsil müəssisələrində və respublikanın şəhər və rayonlarında maarifləndirmə tədbirləri təşkil edilərək insan alverinin xüsusiyyətləri, formaları, qurbanlarla aparılan reabilitasiya işləri, insan alverinə qarşı mübarizənin metodları haqqında ətraflı məlumatlar verilib, habelə sosial mediada müvafiq informasiyalar yayımlanıb.

Bu sahədə keçirilən təlimlər çərçivəsində polis orqanlarının rəhbər heyətinin və ayrı-ayrı xidmət sahələrinin 300-ə yaxın əməkdaşının cəlb edildiyi ixtisasartırma kurslarında insan alverinə qarşı mübarizənin xüsusiyyətləri tədris olunub.

Diqqətə çatdırılıb ki, hesabat ilində məcburi əməyə şərait yaradan halların, onun qurbanlarının və potensial qurbanlarının müəyyən edilməsi, bu cinayətlərin qarşısının alınması sahəsində Milli Fəaliyyət Planında qarşıya qoyulan vəzifələr yerinə yetirilib.

Qeyri-formal məşğulluğun ləğvi sahəsində görülən tədbirlərlə işçilərlə işəgötürənlər arasında əmək müqaviləsinin bağlanılması təmin edilib, bu sahədə hüquq pozuntusuna yol verən işəgötürənlər barəsində cərimə tətbiq olunub.

**Müzakirələrin sonunda İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı səsə qoyularaq nəzərə alınıb.**

**Nicat Novruzoğlu**

# Qida Təhlükəsizliyi Reyestrinin yaradılmasına dair layihə təsdiqlənib

**Azərbaycanda Qida Təhlükəsizliyi Reyestri yaradılacaq. Bu, ”Qida təhlükəsizliyi haqqında” yeni qanun layihəsində əksini tapıb.**

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev ”Qida təhlükəsizliyi haqqında” qanun layihəsini parlamentə üçüncü oxunuşda təqdim edib. 9 fəsil, 40 maddədən ibarət olan bu qanun Azərbaycanda ilkin istehsal, istehsal və emal edilən, ölkəmizin ərazisinə idxal olunan qida məhsullarına, habelə qida məhsullarının ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi, utilizasiyası və məhv edilməsi mərhələlərinə şamil olunur. Layihədə göstərilir ki, yerli qida və yem məhsullarının rəqabət qabiliyyətliliyinin və ixrac potensialının artırılması, onların ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi və utilizasiyası sahəsində sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması sahələri dövlət tərəfindən tənzimlənir.Qanun layihəsində qida təhlükəsizliyi sahəsində dövlətin vəzifələri, əsas prinsipləri, istehlakçıların hüquqlarının müdafiəsi və qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların hazırlanması və qəbulu ilə bağlı məsələlər öz əksini tapıb.

Sənəddə, eyni zamanda qida təhlükəsizliyi sahəsində tələblər, o cümlədən qida və yem məhsullarının, xüsusi təyinatlı qida məhsullarının və bioloji aktiv qida maddələrinin, həmçinin zənginləşdirilən qida məhsullarının təhlükəsizliyi və digər bir sıra məqamlara dair tələblər ehtiva olunub.

Həmçinin layihədə qida təhlükəsizliyi sahəsində qeydiyyat, təsdiq, sertifikatlaşdırma və izləmə məsələləri, qida və yem məhsullarının təhlükəsizliyinə dövlət nəzarətinə aid, həmçinin qida subyektlərinin hüquq və vəzifələri kimi məsələləri əhatə edən müddəalar yer alıb.

Layihəyə əsasən qeydiyyata alınmış qida subyektləri və ya qida obyektləri, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalını həyata keçirən obyektlər Qida Təhükəsizliyi Reyestrinə (bundan sonra - Reyestr) daxil ediləcək və onlara Reyestrdən elektron və ya yazılı çıxarış veriləcək.

Reyestr Azərbaycanın informasiya ehtiyatıdır. Reyestrə daxil edilən kommersiya və (və ya) vergi sirri təşkil etməyən məlumatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi internet səhifəsində yerləşdirilir və istifadəçilər üçün açıqdır.

**Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq III oxunuşda qəbul edilib.**

**Nicat Novruzoğlu**

# “MİLLƏTPƏRƏSTLƏR”



***YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ***

**Məşədi Qasım günorta vaxtı bazardan evə qayıdanda gördü küçədən əli kitablı bir balaca qız gəlir.**

**Çox zənn ilə baxıb Məşədi gördü ki, qızın müsəlman qızına çox oxşarı var. İrəli yeriyib soruşdu:**

***- Qızım, sən kimin qızısan?***

Qız qızarıb, başını aşağı saldı. Məşədi Qasım diqqətlə qıza baxıb dedi:

***- Barakallah, qızım, yaxşı oxu, səni oğluma alacağam!***

Sonra Məşədi iki barmağı ilə qızın yanaqlarından tutub, bir də soruşdu:

***- Qızım, sən kimin balasısan?***

Qız cavab verməyib, atılıb qaçdı. Məşədi Qasım da yolu ilə rəvan oldu.

Sabah tezdən qız məktəbə gedəndə dabbağ Kərbəlayı Babaşa rast gəldi. Kərbəlayı Babaş bir az gedib, bir az qıza zənn elədi. Axırda lap ayaq saxlayıb durdu və iki barmağı ilə qızın yanağından tutub dedi:

***- Buy, ədə bu kimin balasıdır?.. De görüm, ay qız, sən kimsən?***

Qız başını aşağı salıb, dönüb getdi. Günorta vaxtı qız məktəbdən qayıdan zaman keçəl Vəliquluya düçar oldu. Vəliqulu baqaidə qızın yanağından iki barmağı ilə tutub dedi:

***- Bala, sən kimin balasısan?***

Qız Vəliquluya acıqlı baxıb getdi. O biri gün çayçı Kərbəlayı Ramazan baqqal Hacı Qənbərlə fatihə verib qəbiristanlıqdan qayıdanda gördülər qız məktəbə gedir. Doğrusu, ikisi də lap mat, məhbut qaldılar. Xülasə, özlərini qıza yetirib soruşdular:

***- Ay qız, balam, kimincə qızısan?***

Qız qorxa-qorxa qızarmış üzünü bunlara çöndərib, döyükmüş baxanda kərbəlayı və hacı kəmali-səliqə və millətpərvərliklə iki barmaqlarını uzadıb, qızın yanağından tutub dedilər:

***- Barakallah, bala! Qız atılıb qaçdı.***

Günorta qız məktəbdən qayıdanda küçədə bir sürü ”millətpərəst” kişilər durub, müzakirəyə məşğul idilər. ”Hara gedir? Nə təhər qızdır?” kəlmələri danışıqlarından anlaşılırdı. Qız bunlara yavıqlaşanda hamısı üzünü qıza çevirib, onu mehriban sözlərlə yad-bud elədilər və hamısı növbət ilə barmaqlarını uzadıb, qızın yanağından tutub dedilər:

***- Barakallah, qızım!***

Qız bu səfər acıqla ağlaya-ağlaya qaçıb gəldi evə.

Anası işdən xəbərdar olanda qızın kitablarını götürüb səpdi evə; məktəb libasını çıxardıb atdı sandığa və qıza bir köhnə arxalıq geydirib, oturtdu yun darağının dalında.

O gündən ”millətpərəstlərin” dövlətindən qız elm təhsilini ikmala yetirib, yun daramaq şəhadətnaməsini aldı.

**Yaşasın qırmızısaqqal ”millətpərəstlər”!**

# "Zelenskinin bu tərz çıxışına təəssüflənirəm"

**Yunan televiziyasına müsahibəsində dövlət başçısı Zelenski Türkiyəni ikili standartlarda ittiham edib:**

”Bir tərəfdən, Türkiyə vasitəçi rolunda çıxış edərək Ukraynanı mühüm addımlarla dəstəkləyir, digər tərəfdən isə, Rusiya turizmi üçün bir neçə turizm marşrutu hazırlayır. Bununla belə məşğul ola bilməzsiniz, bu ikili standartdır. Bu ədalətli deyil. Ona görə də, mən Türkiyənin diqqətini bu cür imkanlara cəlb edirəm, inanıram ki, belə ola bilməz, çünki seçim etmək lazımdır: siz həqiqətin tərəfdarısınız, yoxsa yox?”.

Adalet.az bu açıqlama ilə bağlı politoloqların fikirlərini öyrənib.

***STM-in mətbuat katibi Əziz Əlibəyli:*** ”Bu məsələnin arxasında o məqsəd durur ki, ABŞ istəyir, Azərbaycanla Türkiyə anti-Rusiya koalisiyasına qoşulsun.

ABŞ-ın irəli sürdüyü tezis bunu bəyan edir ki, proseslər bitdikdən sonra Qafqazda Azərbaycan hədəfdədir, Ukraynanın Qara dəniz sahilləri işğal olunduqdan sonra Türkiyə hədəfdədir. İkincisi, həm Zelinskinin açıqlamaları, həm də Blinkenin Azərbaycana yönəlmiş təbrikləri, Ukraynaya kömək edən iki əsas ölkənin Azərbaycanla Türkiyənin olmasının qabardılaması, məncə onu Rusiyanın hədəfinə gətirmək məqsədi daşıyır. Üçüncüsü isə Qarabağ məsələsinə dair ABŞ adminstrasiyasından verilən məlumatlar var. ABŞ Qarabağ məsələsinin Rusiyasız həllinə razıdır, bir şərtlə ki, ermənilərin orada hüquqları təmin olunsun, Rusiya sülhməramlıları oranı tərk etsin. Bu mənada, Zelinskinin çıxışlarında da bu məqsəd öz təsdiqini tapır”.



***STM-in baş məsləhətçisi Tural İsmayılov:”*** Zelinskinin Türkiyənin əleyhinə səsləndirdiyi fikirlər Ukrayna ilə Türkiyə arasında formalaşmış münasibətlər sisteminə qətiyyən uyğun gəlmir.

Nəzərə almaq lazımdır ki, Türkiyə ilk gündən Ukraynaya öz dəstəyini ifadə edib. Ukraynaya humanitar yardım və digər məsələlərdə xüsusi fəallıq nümayiş etdirib.

Bu mənada, Türkiyənin rasional xarici siyasət kursunu anlamayaraq Türkiyənin əleyhinə çıxış etmək Türkiyənin etdiklərinə haqsız cavablardan biridir. Həmçinin Türkiyə NATO-nun digər üzvlərindən fərqli olaraq Rusiya ilə Ukrayna arasındakı gərginliyi heç vaxt təşviq etməyib, əksinə iki ölkə arasında barış və etimad mühitinin qurulması və formalaşması üçün əlindən gələni edib.



Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında Ukrayna və Rusiya işçi qrupları arasından bir neçə görüş həyata keçirilib. Bütün bunların konteksində Türkiyə əleyhinə açıqlamalar vermək Ukraynanın rəhbərliyində olan insanların nə qədər adekvat, nə qədər rasional olmadığının göstəricisidir. Düşünürəm ki, bu gün Türkiyə təkcə öz regionunun deyil, dünyanın yüksələn qlobal iqtisadi-siyasi gücü kimi kifayət qədər proseslərə təsir etmək gücünə malik olan güclərdən və güc mərkəzlərindən birinə çevrilib. Bu mənada, Zelinskinin bu tərz çıxışına təəssüflənirəm və ümid edirəm ki, iki ölkə arasında münasibətlərin gələcəyi mənasında da bu çıxış uğurlu deyil”.

**Eminquey**

***Aqil ABBAS***

# 9 MAY DA BELƏ GETDİ

*9 May! Bu gün bizim də, eləcə də bütün Sovet xalqının ən çox sevindiyi gün idi. Hətta Vaqif Səmədoğlu da bu gün haqqında şeir yazmışdı. Yazmışdı ki, günün bəxtinə bax ey. Bu günə niyə sevinirdik? Qələbə günü idi. Bu gün 50 milyon insanın qanı bahasına baha gəlmişdi. Bu müharibədə 300 mindən çox azərbaycanlı da şəhid olmuşdu.*

*Hüseyn Cavid yazır:*

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü!*

*Və ona görə də Stalinə dahi deyirdik ki, qan izini kəsib. Həm də bu günü ona görə çox sevirdik ki, elə bilirdik day bir də Yer üzündə müharibə olmayacaq, qan tökülməyəcək. Uşaqlar atasız, gəlinlər ərsiz, ən başlıcası, analar övladsız qalmayacaq.*

*Amma çox uzun sürmədi. Təxminən 15 il dünya nəfəs aldı. Amma heç demə ona görə nəfəs alırmış ki, yeni müharibələrə hazırlaşıbmış.*

*Sonra nə qədər müharibələr başladı - Vyetnamda, Koreyada, Kambocada, sonra ordan sıçradı Əfqanıstana, ordan da Yaxın Şərqə, Ərəb ölkələrinə.*

*Və sonra da Azərbaycana. Yenə uşaqlar atasız qaldı, gəlinlər ərsiz, analar övladsız və millətin soykökünə çox ağır bir zərbə dəydi. Fikir versəniz görərsiz ki, 70-80-ci illər arasında doğulan minlərlə qız ailə həyatı qura bilməyib.*

*Çünki onları sevən oğlanlar Qarabağ müharibəsində Vətəni, torpağı onlardan daha çox sevib özlərini Vətən, torpaq yolunda şəhid vermişdilər.*

*Şəhərlərimiz, kəndlərimiz darmadağın edildi. Heç faşizm belə olmamışdı ki, erməniz faşizmdən də betər oldu.*

*Vaqif Cəbrayılzadə yazır:*

*Türk*
*min illərin gün işığıdı,*
*nə qədər basdırsan*
*yenə torpağın üstündə qalar.*

*Gün işığıyıq, basdıra bilmədilər. Nə qədər basdırsalar da torpağın üstündə qaldıq və yenidən günəş kimi doğduq.*

*İndi bizim üçün 9 May yoxdu. İndi bizim üçün 8 Noyabr var - Qələbə günü, Zəfər günü! Torpaqlarımızın 200 ildən sonra düşməndən azad olunduğu gün! Kəbəmiz Şuşanın azadlığı günü!*

*İndi vaxtilə Sülh carçısı olan Sovet dövlətinin varisi Rusiya 9 May nümayişinə hazırlaşır. Halbuki müharibə gedir: Rusiya-Ukrayna müharibəsi.*

*Vaxtilə birlikdə faşizmə qarşı vuruşan Rusiya-Ukrayna indi bir-birini "faşist" adlandırır, bir-biriylə vuruşur. Şəhərlər, kəndlər dağılır, uşaqlar atasız, gəlinlər ərsiz, analar övladsız qalır. Ukraynanın 30 faizi Ağdamın gününə düşüb. Ukrayna da Rusiyanın şəhərlərini bombalayır.*

*İndi belə bir müharibə getdiyi vaxtda insanlar hansı sevinclə Lenin mavzoleyinin qarşısında 9 May nümayişi keçirəcək? Hansı qələbəni bayram edəcəklər?!*

*27 milyon Sovet vətəndaşının qanı bahasına başa gəlmiş 9 May da belə getdi.*

*Allah İkinci Dünya Müharibəsində həlak olmuş bütün azərbaycanlılara (biri də mənim əmimdi, 300 nəfər də həmkəndlimdi - Ağcabədinin Bayat kəndinin sakinləridir) rəhmət eləsin.*

# MEDİA-da qəzet yayımı üçün "E-KÖŞK" layihəsi təqdim olunub

**5 may tarixində Medianın İnkişafı Agentliyində "E-KÖŞK" qəzet və jurnalların elektron yayım platformasının təqdimatı olub.**

Çap mediası subyektlərinin rəhbərlərinin iştirakı ilə keçirilən tədbirdə bildirilib ki, qlobal informasiya mühitinin modernləşməsi, qabaqcıl texnologiyaların media sahəsində geniş tətbiqi və digər innovativ yeniliklərin sahədə yaratdığı ehtiyaclar və müşahidə edilən müasir tendensiyaların nəzərə alınaraq hazırlanan "E-köşk" portalı rəqəmsal çap mediası məhsullarının abunə və satışının təşkil edildiyi platformadır. Vurğulanıb ki, plaformanın ənənəvi çap mediasını hər kəs üçün daha əlçatan etməsi, oxuculara mütəmadi olaraq yenilənən məlumat bazasından qəzet və jurnalları zaman və məkandan asılı olmayaraq asanlıqla əldə edə bilmək imkanı yaratması nəzərdə tutulur. Qeyd olunub ki, "E-köşk" portalı vasitəsi ilə oxucular ölkədə baş verən yeniliklərdən daima xəbərdar olmaqla yanaşı, sərbəst şəkildə rəqəmsallaşdırılmış arxivdən faydalana biləcəklər.

Baş redaktorlar bu platformanın ənənəvi çap mediasının rəqəmsal mühitə uyğunlaşması, iqtisadi dayanıqlılığının artırılması və informasiya cəmiyyətinə keçidin sürətləndirilməsi istiqamətində innovativ addım olduğunu qeyd ediblər. Sonra layihə ətrafında səsləndirilən təkliflər nəzərə alınmaqla, "E- köşk" layihəsinin yekun variantının hazırlanaraq ictimaiyyətə təqdim olunması ilə bağlı qərar qəbul olunub.

**Tədbirdə həmçinin Medianın İnkişafı Agentliyi tərəfindən media subyektləri üçün hazırlanan "Redaksiya siyasəti və peşə etikası qaydaları" ilə bağlı müzakirələr keçirilib. Bildirilib ki, hazırda media subyektlərində həmin nümunəvi formaya əsasən, müzakirələr aparılır və media subyektlərinin özləri tərəfindən onların təkmilləşdirilməsi və hər bir media subyektinin özünə uyğun redaksiya siyasəti çərçivəsində həmin peşə etikası qaydalarının təsdiq olunması prosesinə başlanıb. Qeyd olunub ki, bu qaydaların tətbiq olunması, hər bir media subyektində müəlliflik hüquqlarının qorunmasına və ümumilikdə media sahəsində peşə etikasına ciddi riayət olunması prosesinə təkan verəcək.**

***Eminquey***

# Özümlə fəxr edirəm



***Özümlə fəxr edirəm ki, AYB-nin rəhbəri gələndə farağat durmadım.***

***Özümlə fəxr edirəm ki, müsabiqədə heç kimə ”buna yuxarı bal versəm məni keçəcək” qafasında qiymət verməmişəm.***

***Özümlə fəxr edirəm ki, (məni incitməkdən başqa bir işə yaramasa da) uzağı çox yaxşı görə bilirəm.***

***Özümlə fəxr edirəm ki, yazdığım mətnin həqiqətini dərk edə bilirəm.***

***Özümlə fəxr edirəm ki, ədəbiyyata kiminsə yeyib-içmək süfrəsindən gəlməmişəm.***

***Özümlə fəxr edirəm ki, kimisə yeyib-içmək qonaqlığı verdiyi üçün təriflməmişəm.***

***Özümlə fəxr edirəm ki, kiminsə işçisi, kiminsə məddahı deyiləm və buna görə bütün yollarımda yaşıl işıq yanmır.***

***Özümlə fəxr edirəm ki, hamının balı-şəkəri deyiləm.***

***Özümlə fəxr edirəm ki, dişimlə-dırnağımla tanınan, sevilən beş gənc imzadan biriyəm.***

***Oldumu?***

*İradə TUNCAY*

# SEÇİLMİŞ

**Əslində bizim hamımızın dəqiq bildiyimiz bir həqiqət var ki, nə qədər öyrənməyə çalışsaq da, elmi ixtiralardan bəhrələnsək də, Aya uçsaq da, okeanların dibinə enməyə cəhd etsək də, biz həyatın yaranması, insan övladının bu günə qədər keçdiyi yol, dünyanın sirləri haqqında dəqiq heç nə bilmirik. Nə qədər oxusaq da, axtardığımız çox suallara cavab tapa bilmirik. Din kitabları bir söz deyir, elm kitabları başqa söz, nəyə inanacağımızı müəyyən eləmək çətindir. Elmi nəzəriyyələrəmi, dini ehkamlaramı? Öz adımdan danışım - yaşım artdıqca cavab tapa bilmədiyim sualların sayı artır. Amma din kitablarında inandığım bir fikir var - "Elə hikmətlər var ki, onların dalınca getməyin, çünki sirri Xudadır".**

***

Yəqin elə buna görə də izah eləmək olmur. Allah hamını bərabər yaradıbsa niyə irqlərə, millətlərə ayırıb? Niyə bu irqlərin bəziləri elə yarandığı ilk dövrlərin bəsitliyi ilə bu gün də mövcudluğunu davam etdirir? Niyə digərləri kosmosdakı evlərinin illüminatorundan Afrika cəngəlliklərindəki insan övladlarının tonqalətrafı rəqslərinə tamaşa edir? Onların insan olduğuna kimsə şübhə eləmir. Amma yuxarıda onlara baxanlar da insandır. Niyə belə fərqlənirlər?

***

Mən həmişə böyük hərb tarixi, böyük dövlətçilik tarixi olan millətlərə, xalqlara qibtə hissi ilə baxmışam. Yəqin bu da Tanrının sirlərindən biridir ki, dünyanı silkələyən türk boylarının bir qolu olsaq da, nə dövlətimiz olub, nə də ordumuz. Təbii ki, mən ayrı-ayrı qalaların içinə sığınıb bir-birini qıran balaca xanlarımızı da, onların dəstələrini də nə dövlət, nə də ordu təsnifatına aid eləyə bilmirəm. Bu balaca dəstələr və balaca xanlar qoşun-ləşkər çəkib ancaq bir-birini qırmaqla, bir-birinin qanını içməklə məşğul idilər. Etiraf eləmək lazımdır ki, bizim heç zaman böyük imperiya tariximiz olmayıb, Atilla, Çingiz xan, Əmir Teymur, Sultan Süleymanımız olmayıb.

***

20-ci əsr öz böyük təbəddülatları ilə bizi də yerimizdən tərpətdi. Biz də millət olaraq bu böyük dünyanın içində öz yerimiz haqqında düşünməyə başladıq. Ən azından düşünməyə başladıq. Düşüncə tarixinin yaranması başqa tarixlərin də yaranmasına təkan verdi. Və 1918-ci ildə cümhuriyyətin elan olunması azacıq da olsa bu millətin içində ruh oyanışının başlanğıcı idi. Daim əsarət altında yaşayan millət azadlığın, öz torpağının ağası olmaq duyğusunun dadına baxmaq istədi. O vaxt bu alınmadı. Səbəblər çox idi, sadalamaq istəmirəm. Dövlətin, bayrağın nə olduğunu bilməyənlər birdən-birə anlamadığı qavramlardan irəli gələcək qanunlara da həzm eləyə bilməyəcəkdi. Vaxt o vaxt deyildi.

***

Sonra yenə sarısaç, göygöz hakimlər gəldi və onlarla bərabər yeni ədalar, yeni hökmlər gəldi. Yalnız və yalnız 30-cu ildən sonra Azərbaycan adlanan bu kiçicik məmləkətin başında bu xalqla öz dilində danışa bilən, xalqın nə ilə nəfəs aldığını anlaya bilən bir şəxs - Mircəfər Bağırov durmağa başladı. Ziddiyyətli, mürəkkəb, ancaq yenə də özümüzdən olan birisi. Hər bir şəxsə zamanın və məkanın rakursundan qiymət vermək lazımdır. Tarixin bütün rəngləri ilə. 20 il Azərbaycana hakimlik eləmiş bu şəxsə münasibət birmənalı deyil. Mən çox adamlar tanıyırdım ki, onu fanatikcəsinə sevirdilər. Ancaq ona nifrət edənlər də var idi. İnsanlar öz yaşadıqları dövrə bənzəyirlər. Kimisə dəyərləndirəndə bunları nəzərə almaq lazımdır. Ancaq bu bir həqiqətdir ki, uzun müddət hakimiyyətdə qalmaq üçün insanın böyük bacarıq və qabiliyyəti olmalıdır. Yeri gələndə zalımlıq da eləməlidi, hökmünü də yeritməlidi, rəhmdillik, adillik də etməlidi. Hakimiyyət budur.

***

Bizim yeni, yaxın tariximizin qısa fasilə ilə ən uzunmüddətli hakimiyyəti Onun əlində olmuşdu - Heydər Əliyevin. Təbii ki, haqqında bu qədər təriflər deyilmiş, - içində səmimisi və umacaqlısı olmaqla, bir şəxs haqqında nəsə bir söz demək çətindir. Cəhd eləyək.

***

Sadə, orta hallı bir ailənin övladı olub əyalət şəhərciyindən böyük Kremlə, siyasi olimpə yüksələn bir yol keçmişdi. Əslində O, bir az da sovet hakimiyyətinin övladı idi. Çünki o dövrdə fəhlə oğlunun müxtəlif vəzifə pillələri ilə qalxması mümkün sayılırdı. Sadəcə ZƏKA, BACARIQ və QABİLİYYƏT olmaq şərti ilə. Əsas məsələ də elə bu idi. ZƏKA! Onu hamıdan fərqləndirən. Düzdür, xarici görkəmi də hər kəsə bənzəmirdi. Hər zaman hər yerdə diqqəti öz üstünə çəkməyi bacaran bu hündürboy, alagöz yaraşıqlı oğlanın içindəki istedadlardan biri də bu idi. Və bu istedad Ona dövlətçiliyi olmayan bir xalqın bəlkə min ildir içində qalmış arzularını reallaşdırmaq imkanı yaratdı. İndi kənardan baxıb çox hadisələrə fərqli şərh vermək olar. Ancaq etiraf eləməyi də bacarmaq lazımdır ki, hər zaman zamanın gedişini dəyişməyi, hadisələri idarə etməyi, yönəltməyi yalnız və yalnız O bacarırdı. Ona görə də az vaxt ərzində 2 dəfə ölkənin birinci şəxsi olmağı bacarmışdı. Birinci olmaq hər oğulun hünəri deyil. Biz bunu yaxın tariximizdə yaşadıq. Balaca bir ailəni doğru-düzgün idarə eləmək çətin olur. O ki ola Azərbaycan kimi qarışıq, mürəkkəb və təzadlı məmləkəti idarə eləmək. Bura qəribə bir yerdi. Burada müxtəlif psixologiyalar toqquşur. Əsarətin yaratdığı hiylə, məkr, qul düşüncəsi türk etnosunun qan yaddaşı ilə gələn iddialarla üz-üzə gəlir. Çətinə düşəndə təzim eləyənlər, ikiqat olmağı bacaranlar bir az artıran kimi padşahlıq umusunda olurlar. Bütün bu adamların ipini yığıb hər kəsə yerini göstərmək bacarığını da Allah hər kəsə vermir. Zahiri parıltılarıyla bərabər hakimiyyət həm də ağır bir yükdür. Bu yükü daşımağı da hər kəs bacarmır. Milyonların həyatının məsuliyyəti, bu məsuliyyətdən irəli gələn vəzifələri də icra eləməyi hər kəs bacarmır.



***

Mən dedim ki, biz bir çox böyük xalqlardan fərqli olaraq dövlət, dövlət atributlarından məhrum olmuşuq. Hökmdarlar da dövlətin rəmzidir. Başqa xalqların 300-500 il əvvəl qışqırdıqları "Yaşasın kral!", "Padşahım, çox yaşa!" ifadələri bizə doğma olmayıb. Biz yadelli ağaların qarşısında əyilməyə məcbur olmuşuq. Ona görə də kimsəni qınamaq olmaz. Xalq içində qalan hissləri yönəldəcək şəxs axtarışındaydı və tapdı - HEYDƏR ƏLİYEV!

Mənə qalsa düşünürəm ki, Allahın tərifli yaratdığının heç bir əlavə mədhə ehtiyacı yoxdur. Və mən əminəm ki, Ona yaxınlaşıb şeir oxuyanların, fəxriyyə deyənlərin nə məqsəd daşıdığını O hər kəsdən yaxşı anlayırdı. O, adamların hər sifətini görmüşdü. Vəzifədən gedəndə bütün bunlar üçün şərait yaranmışdı. Hansı canlılar üçün, kimliyin yox, nəçiliyin önəmli olduğunu çox gözəl bilirdi, hər kəsin dilini də bilirdi, kimin nəylə sakitləşəcəyini də bilirdi. Bilib susduğu hikmətlər də çox idi. Hakimlər də insan övladıdı - ətdən, qandan, sümükdən. Onların da öz dərd-səri, ağrıları olur - nə qədər gizlətməyə çalışsalar da. Hər kəs də öz şikayəti, harayı, fəryadı ilə onlara müraciət edir. Gör onların çəkəcəyi nə qədərdir. Hələ üstəlik bunları heç kimə demək mümkün deyilsə, ürəyini boşaltmağa adam tapmırsansa...

**Hakimiyyət çox ağır yükdür. Hər zaman şübhə içində dinlədiklərin haqqında düşünməlisən. Kim səmimi danışır, kimin söylədiklərinin arxasında nə durur. HÖKMDARLARIN ƏN BÖYÜK EHTİYACI SƏMİMİYYƏT VƏ SEVGİDİR, çünki yaltaqlar xorunun içində həqiqi sözü seçib ayırmaq da müşkül məsələdi. Mən bilmirəm O, gündəlik yazırdımı, xatirələrini kimsə danışırdımı. Əgər yazıbsa, oxumaq istərdim. BİZDƏN QAT-QAT AĞILLI OLAN, NEÇƏ BAŞ YUXARIDA DURAN, UZUN VƏ KEŞMƏKEŞLİ YOL KEÇMİŞ BU AĞSAQQALIN ADİ İNSAN QAYĞILARINI, AĞRILARINI ÖYRƏNMƏK İSTƏRDİM. Sonuncu müsahibələrindən birində jurnalistə "siyasətdən yox, sevgidən, məhəbbətdən danışaq" deyən siyasətçinin içində apardıqları nə idi? Hamının gözünün içinə baxıb qəlbinin dərinliklərinə nüfuz edə bilən bu şəxsin öz qəlbindəki duyğular nə idi? Və hər zaman düşündüyüm bir sual da var - niyə bir xalqın, bir millətin, bir tayfanın, hətta bir ailənin içində də bir fərd digərlərindən tamamilə fərqlənir, seçilir? Və seçilmiş olmaq asandırmı? Və bu fərqlənmənin bədəli nədir?**

***Yazarın arxivindən***

---

*Elxan Şükürlü*

# YENİLMƏYƏN İQTİDARIN YENİLƏNMƏYƏN MÜXALİFƏTİ



## *daha bir 30 ili də itirmək istəmiriksə...*

***Bir il sonra - 2023-də düz 30 il olacaq ki, Azərbaycan xalqı bir siyasi qüvvənin - YAP-ın hakimiyyətdə, onun hakimiyyətdən yıxdığı siyasi qüvvənin - AXC-Müsavat tandeminin isə müxalifətdə rol aldığı eyni tamaşanı, siyasi serialı seyr edir.***

***İqtidarda və ya müxalifətdə durmasından asılı olmayaraq, istənilən siyasi qüvvənin, liderin nəyə qadir olduğunu görmək və göstərmək, tanımaq və tanıtdırmaq üçün 30 il kifayət qədər böyük bir zaman kəsiyidir.***

***Konstitusiyamızla prezidentli respublika olan ölkəmizdə bu 30 il ərzində 6 dəfə prezident, 6 dəfə də parlament seçkiləri keçirilib: 1993 və 1998-ci ilin prezident seçkilərində YAP sədri Heydər Əliyev, 2003, 2008, 2013 və 2018 seçkilərində isə varisi - oğlu İlham Əliyev qalib gəlib.***

***Son 30 il boyunca ata-oğul Əliyevlərin əsas alternativi olduqlarını iddia edən, özlərini "ana müxalifət", digər partiyaları "cib müxalifəti", indi isə "avtobus müxalifəti" adlandıran AXC və Müsavat partiyaları bu 6 prezident seçkisinin 4-nü boykot edib, 2-nə isə qatılaraq uduzublar.***

***Hər dəfə də prezident seçkilərinin nəticələrini tanımadıqlarını və hakimiyyəti qeyri-legitim elan etsələr də, seçkilərdən sonrakı etirazları davamlı, sistemli və təsiredici xarakter daşımayıb və məğlubiyyətləriylə, faktiki olaraq, barışıblar. Hətta qeyri-legitim elan etdikləri hakimiyyətin qanunverici orqanında - parlamentində yer almaq üçün ayrı-ayrılıqda separat danışıqlara gedərək, 1995, 2000, 2005 seçkilərində deputat mandatı da əldə ediblər...***

***Bu 30 il boyunca AXC-Müsavat tandemi hər seçki məğlubiyyətini hakimiyyətin onlara qarşı sərt repressiv siyasət aparmasıyla izah etməyə çalışa da, reallıq budur ki, cəbhəçilərlə müsavatçılar arasında hökm sürən ənənəvi qeyri-səmimi və qeyri-sağlam münasibətlər vaxtilə Elçibəy hakimiyyətinin zamansız çöküş səbəbi olduğu kimi, müxalifətdəki uzunmüddətli uğursuzluqlarının da əsas səbəbinə, ictimai dəstəyin sürətli itirilməsinin ana xəttinə çevrilib.***

***Baxmayaraq ki, 30 il boyunca eyni siyasi təşkilatda və eyni hakimiyyət komandasında təmsil olunublar, eyni masa və süfrə arxasında əyləşiblər, eyni siyasi blokda birləşiblər, ancaq hər dəfə də bir-birinin üzünə gülə-gülə eyni adamlar bir-birinin çörəyinə bal içərisində zəhər sürtüblər, bir-birinin ayağının altını, hətta bir-birinin siyasi məzarını həvəslə qazıblar; iqtidardakının yox, öz düşərgə və komanda yoldaşlarının məğlubiyyətinə sevinib, əl çalıb, bunun üçün çalışıblar!***

***Təbii, hakimiyyət də rəqib cinahındakı bu qeyri-sağlam və riyakar mühitdən, münasibətlər sistemindən məharətlə yararlanaraq, hər iki tərəfi uzun illər boyu ustalıqla idarə edib, bütün prosesləri zamanında öz lehinə dəyişməyi bacarıb...***

***O dövr hadisələrinin iştirakçıları təsdiqləyər: bu düşərgənin ən güclü vaxtı və hakimiyyətə gəlmə imkanı yalnız ikicə dəfə - 1998 və 2003-cü ilin prezident seçkiləri ərəfəsində olub.***

***1998-ci il seçkilərində rəhmətlik Elçibəyin prezidentliyə vahid namizədliyi müzakirə olunsa da, hətta vaxtilə Heydər Əliyev komandasında yer alan və sonradan müxalifətə keçmiş İlyas İsmayılov, Rəsul Quliyev, Lalə Şövkət kimi nüfuzlu partiya sədrləri belə, eks-prezident Elçibəyin namizədliyini müdafiəyə hazır olduqlarını bildirsələr də, məhz keçmiş komanda və hərəkat yoldaşları - Müsavat Partiyası və AMİP Elçibəyin önünə sədd çəkmiş, beləcə, müxalifətin vahid namizədlə seçkiyə qatılması prosesini pozmuşdular...***

***2000-ci ilin parlament seçkiləri ərəfəsində isə eks-prezident Elçibəyin qəfildən xəstələnib Türkiyədə dünyasını dəyişməsi ilə Xalq Cəbhəsi iki təşkilata parçalanmış, hakimiyyət legitim tərəf kimi Əli Kərimlinin rəhbərlik etdiyi qanadı, Müsavat Partiyası isə Mirmahmud Mirəlioğlunun rəhbərlik etdiyi qanadı "gerçək Cəbhə" kimi tanımışdı. Hətta həmin ilin seçkilərində Əli Kərimlinin AXCP-si "ana müxalifət" kimi parlamentə də buraxılmışdı. Ancaq rəhmətlik Heydər Əliyevin səhhəti haqqında məlumatlı olan amerikalıların parlament müxalifəti ilə apardıqları intensiv iş Əi Kərimli AXCP-sinə hakimiyyətin isti münasibətni də dəyişmiş və hakimiyyət dəyişikliyi mexanizmini əldə saxlamaq üçün 2002-ci ilin avqustunda Konstitusiya referendumuna gedilməsini zəruri etmişdi...***

***Beləcə, Heydər Əliyevin Klivlenddə ölümcül xəstə halında yatdığı, hakimiyyət düşərgəsində qeyri-müəyyənliyin və çaşqınlığın yarandığı bir şəraitdə 2003-cü ilin prezident seçkilərinə gedilmişdi.***

***Xatırlayanlar olar: xarici ölkə səfirləri həmin aylar ərzində müxalif partiya qərargahlarından çıxmaq bilmir və bütün diplomatik etiketləri, qayda-qanunları bir kənara tullayaraq, açıq şəkildə ölkənin iç işlərinə də qarışaraq, partiya sədrlərinə çağırış edirdilər: "Qələbə istəyirsinizsə, gedin, vahid namizədinizi müəyyənləşdirin, biz də dəstək verək".***

***Müxalif düşərgə isə müsavatçılarla cəbhəçilərin ənənəvi intriqası ucbatından bölünmüşdü, birləşə və vahid namizədini, liderini müəyyənləşdirə bilmirdi. Müsvatçılar cəbhəçiləri, cəbhəçilər də müsavatçıları hakimiyyətə işləməkdə suçlayır və əllərindəki media resursları ilə bütün müxalifəti şantaj edir, pozuculuqla məşğul olurdular.***

***Elə bu sayaq didişə-didişə, bir-birinin ayağından çəkə-çəkə də 2003-cü il seçkilərinə qtıldılar: Əli Kərimlinin cəbhəsi Elçibəy hökumətinin yıxılmasında əsas rolu olmuş Etibar Məmmədovun, Mirmahmud Mirəlioğlunun cəbhəsi isə Elçibəyin son arzusunu ürəyində qoymuş İsa Qəmbərin namizədliyini dəstəklədi...***

***Hakimiyyət isə ata Əliyevin tövsiyəsinə uyğun olaraq, öz vahid namizədini və gələcək liderini asanca müəyyənləşdirdi - gənc İlham Əliyev...***

***Müxalifətin pərakəndəliyini, hakimiyyət komandasının monolitliyini və cəmiyyətin ona aşkar dəstəyini görən beynəlxalq aləm də hakimiyyətin namizədindən yana oldu. Bu səbəbdən Azərbaycanda hakimiyyət dəyişikliyində rolu və imkanı olan güclərin hamısı - Rusiya, Türkiyə, ABŞ və Avropa Birliyi birmənalı şəkildə hakimiyyətin cızdığı dəyişiklik ssenarisini qəbul etməyə məcbur qaldılar...***

***...Canavar kimi ağız-ağıza yatan cəbhəçilərlə müsavatçıların ikrah doğuran seçki oyunları isə sonrakı müddətdə - 2005, 2008, 2010, 2013, 2015 seçkilərində də oxşar ssenarilərlə təkrarlandı: bir-birini hökumətə işləməkdə, satqınçılıqda suçlayanlar hər seçkiqabağı dövrdə ictimai qınaqdan qorxaraq, yığışıb birlik görüntüsü yaratdılar, seçkidən sonra da yenə bir-birini hökumətə işləməkdə suçlayaraq, parçalanıb, dağılışdılar...***

***...Ən qəribəsi odur ki, bu qədər zaman və insan itkisinə, səhvlərə baxmayaraq, eyni ab-hava 30 ildən sonra - bu gün də həmin düşərgədə və həmin insanlar arasında ən eybəcər formada davam edir. Sübutu - bir neçə gün əvvəl Müsavat Partiyasının Milli Şura rəhbərliyində təmsil olunan üzvü Tofiq Yaqublunun AXCP sədri Əli Kərimli və Milli Şura üzvü Gültəkin Hacıbəyli haqqında yayılmış məlum səs yazısı! Bu səs yazısı bir daha təsdiqlədi ki, bu qədər məhrumiyyətlərə, basqılara baxmayaraq, adamlar 30 il boyunca alışdıqları intriqa təkrarçılığını, pis vərdişlərini qətiyyən tərgitmək niyyətində deyillər, belə gəlib, belə də gedəcəklər. Müdriklər çox yaxşı deyib: "Təkrarlar vərdiş, vərdiş xarakter, xarakter isə tale yaradar".***

***İndi belə görünür ki, 30 ilin ənənəvi cəbhəçi-müsavatçı intriqası Sizifə yazılmış acı tale kimi, bu siyasi təşkilatların da qədərinə çevrilib, onu dəyişmək qətiyyən mümkün deyil və bu, onlar ölənədək də davam edəcək!***

***30 il boyunca özünü dəyişə bilməyənlərin və 30 il sonra da etdiyi səhvləri təkrarlayanların hakimiyyətdən dəyişiklik tələb etməsi və bütün təqsirlərini də qıpqırmızıca cəmiyyətin üzərinə yıxaraq, onu dəstək verməməkdə qınaması və borclu çıxarması isə təkcə itirilmiş mənəviyyatın yox, həm də ağır psixoloji travmanın, xəstəliyin ifadəsi, təzahürüdür!***

***Adamlar, gerçəkdən də, özünütənqid hissini tamamilə itiriblər və hələ də anlamırlar ki, hakimiyyəti dəyişmək üçün əvvəlcə özlərini - müxalifəti dəyişməli, öncə müxalifəti yeniləməyin yolunu tapmalı, səhvlərinə görə üzr istəməli və yalnız bundan sonra cəmiyyətə üz tutmalıdırlar!***

***Yenilənə bilməyən, kininin, nifrətinin və yalanlarının əsirinə çevrilmiş müxalifətin onu dəfələrlə yenmiş bir hakimiyyətdən çarəsiz dəyişiklik tələbi, nə qədər bağırtıyla deyilsə belə, vallah, cəmiyyətdə zəhlətökən köhnə qapı cırıltısından başqa bir səsi andırmaz!***

***...İkinci Qarabağ savaşından sonra artıq təkcə ölkəmizdə, yerləşdiyimiz regionda yox, bütün dünyada yeni bir dövr başlayıb! Bu yeni dövrə adaptasiya olunmaq və öz milli maraqlarımızı bu yeni şəraitdə ləyaqətlə və uğurla müdafiə etmək istəyiriksə, keçmişinin və hisslərinin - kininin, nifrətinin girovuna çevrilmiş, xarici güclərin maşası funksiyasını yerinə yetirən uğursuz siyasətçilərin yox, ölkəsini və insanlarını sevən, ümumun uğurunu istəyən və gələcəyə dair aydın baxışları olan insanlarımızın siyasət səhnəsinə çıxmasında hamılıqla maraqlı olmalıyıq!***

***Bu, hakimiyyətdəkilərə də aiddir, müxalifətdəkilərə də - ölkəni inkişafa aparan bütün yollar tıxaca çevrilən, ayağa dolaşan maneələrdən, köhnə çürüntü və tullantılardan mütləq təmizlənməlidir ki, daha sürətlə yeni münasibətlərə keçid və rahat addımlamaq mümkün olsun!***

***Əksi daha bir 30 ili də faydasız yerə itirməyimiz olacaq!***

---

# Rusiyanın 291 illik təzavüzü və Ukraynanı dəstəkləyən Qazaxıstan!

**Aprel ayının əvvəllərində Qazaxıstanın Prezident Administrasiyası rəhbərinin birinci müavini Timur Suleymenov açıqlamasında bildirdi ki, "Qazaxıstan Ukraynanın ərazi bütövlüyünə hörmət edir, Krımı Rusiya ərazisi kimi tanımır və bu məsələlərdə BMT-nin qərarlarına əməl edəcək: "Əlbəttə, Rusiya bizim daha çox onun tərəfində olmağımızı istərdi. Amma Qazaxıstan Ukraynanın ərazi bütövlüyünə hörmət edir. Biz nə Krımla bağlı vəziyyəti, nə də Donbassla bağlı vəziyyəti tanımırıq. Çünki BMT onları tanımır. Biz yalnız Birləşmiş Millətlər Təşkilatı səviyyəsində qəbul edilmiş qərarları yerinə yetirəcəyik"-deyə məlumat yaydı.Qazaxıstan "niyə belə tez tərəf dəyişdirdi" deyə sual verərsinizsə, Ukrayna-Rusiya arasında müharibə başlamamışdan əvvəlki hadisələrə nəzər yetirək.**

### *Rusiyanın Qazaxıstan təcavüzü - 291 il...*

Tarixçilərə görə, Qazaxıstanın rus müstəmləkəçiliyi 1731-ci ildə Rusiyanın Gənc Kiçik Xan Əbülxairi ilhaq etməsi ilə başladı. Bu proses 130 ildən çox davam etdi və 18 60-cı illərin ortalarında başa çatdı. 1731-1860-cı illərdə Qazaxıstan Rusiyaya, yalnız formal olaraq tabe idi, qəbilə və qəbilələrin hökmdarları müstəqil bir siyasət yürüdürdülər. Qazaxların igid oğlu, Qazax xanlığının 20-ci hökmdarı Kine Sarı Sultan Qasımoğlu 1822- ci ildə təcavüzü dayandırmaq üçün Çar Rusiyasına qarşı hərəkat başladıb. 1845-ci ildə döyüşlərin birində rus ordusuna qarşı qəhrəmanlıqla döyüşən Kenesarı xan həlak oldu..

***1920-ci ildə Qazaxıstanda da sovet hökuməti quruldu. Yenə də eynən Azərbaycandakı kimi, qolçomaq oyunları, repressiya, kütləvi qətllər. kütləvi həbs və işgəncələr, terror hadisələri, təcavüzkar həmlələr....Xüsusən, azad düşüncəli qazax ziyalılarının təqibə və zindanlara məhkum olması qaçılmaz oldu.***

1986-ci il də SSRİ ərazisində milli zəmində kütləvi iğtişaşların baş vediyi ilk nöqtədə Qazaxıstan oldu. Bir dəfə həmin hadisələrin şahidi olmuş azərbaycanlı polkovnik, o vaxtı əsgər olmuş Azay Kərimovla müsahibəm olmuşdu və ordan bilirdim ki, kütləvi insan qırğınını da ilk dəfə 1986-cı ilin soyuq dekabrında Almatı hadisələri zamanı elə orda baş verib. Müsahibimin sözlərinə görə, dekabrın 16-da başlanan mitinq 2 gün müddətində məcrasını dəyişərək siyasiləşdi və nəzarətdən çıxdı:" Meydan yüzlərlə insanın cəsədləri ilə doldu. Meydanda təxminən 600-dən çox cəsəd vardı. Amma qazaxların fərasətsizliyi onda oldu ki, bir dənə də cəsəd əldə edə bilmədilər, Çünki hərbçlər cəsədləri dərhal yığışdırır və yanğınsöndürənlərlə gəlib hər yeri yuyurdular. Bir dənə də iz qalmırdı. Cəsədlərin hamısını yığıb Kopçaqay gölünə tökürdülər".

### *"Şimali Qazaxıstan Rusiya torpağıdır"- deyə düşünən işğalçılar*





***Qazaxıstanın yaddaşında bu hadisələrin izi silinməmiş, Rusiya Dumasının deputatı Vyaçeslav Nikonov Qazaxıstanı "bütün qazaxlara SSRİ-nin hədiyyəsi" adlandırıb. Bu ifadə də əsl beynəlxalq qalmaqal yaratdı. Nikonov dedi ki, 1917-ci ildə Sovet İttifaqı yaradılanda Qazaxıstan bir dövlət kimi sadəcə olaraq mövcud deyildi, onun şimal ərazilərində insan yaşamırdı.***

Onun ardınca Rusiyanın "Vətənpərvərlik" Hərəkatının bir fəalı Qazaxıstanın Moskvadakı səfirliyinin darvazasına plakat yapışdırıb. Plakatda yazılmışdı: "Şimali Qazaxıstan Rusiya torpağıdır".

Dövlət Dumasının başqa bir deputatı Yevgeni Fyodorov da dedi ki, Nikonovun Qazaxıstan ərazisi barədə dedikləri ilə tam razıdır və bu, Rusiyanın doğrudan da "böyük peşkəşi" olub. Fyodorov əlavə etdi ki, Qazaxıstan bu "hədiyyənin" müqabilində "nankorluq" nümayiş etdirib: "Biri var ki, səxavətli rus sənə hədiyyə verir və sən onunla dost olursan, biri də var ki, Qazaxıstan Xarici İşlər Nazirliyi kimi hədiyyə verənin üzünə tüpürürsən".

Fyodorov daha sonra dedi ki, 1991-ci ilin Beloveja Razılaşması qanunsuzdur və Qazaxıstan texniki baxımdan Rusiyanın "lizinq" torpağıdır: "Bu məsələdə Rusiyanın qabağını kəsən bircə hədd var - o da mənəvi həddir". Dağıstanın Xasavyurd diyarında doğulan, milliyyətcə qumuq (türk) olan, hazırda Rusiyanın qanunverici orqanında çalışan deputat Sultan Həmzəyev "Orta Asiya rus torpağıdır.

Şəbəkə Qazaxıstanın Rusiyaya mümkün birləşməsini müzakirə edir. Şəxsən mənim siyasətdən və vəzifədən asılı olmayaraq Rusiya Federasiyasının vətəndaşı kimi mövqeyim budur. Mən Qazaxıstanın tarixi vətəni - Rusiya ilə birləşməsi ilə bağlı Qazaxıstanda referendumun keçirilməsinin tərəfdarıyam.

Qeyd edim ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev özü bütün bəyanatlarını rus dilində edir.

Düşünürəm ki, bu, əsl demokratiyanın yaxşı təzahürü olacaq" fikrini bəyan edərək məsələyə son nöqtəni qoydu.Artıq, aydın idi ki, Qazaxıstan növbəti bir işğalın astanasındadır...

### *Rusiyanın asi qazaxlardan qisas almaq məqamı - 5 ay əvvəlki təcavüz...*

***Qazaxıstan hökümətinin Rusiya rəsmilərinə verdiyi cavab ölkədə yaşanan növbəti kütləvi iğtişaş və qətllərə səbəb oldu.. Bəlki, 2022-ci il yanvarın 2-də əhali Qazaxıstanda maye qazın bahalaşmasına etiraz olaraq keçirilən aksiyalar köhnə qiymətlərin qaytarılmasına və hökumətin istefası ilə meydanlara axışdı. Aksiya getdikcə siyasiləşməyə başladı və şəhərdə 33 yanğınsöndürən , həmçinin təcili yardım maşını da daxil olmaqla 120 maşın yandırıldı. 120 mağaza və ticarət obyekti, 180 ictimai iaşə obyekti və 100 ofisə zərər dəydi.***

Qərbin analizlərinə görə, Rusiyanın "barmağı" hadisələrdə əsas rol oynayırdı və Qazaxıstana işğalçı qoşun yeritməyin vaxtı yetişmişdi. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) birləşmiş sülhməramlı qüvvələri Qazaxıstana yeridilməsi labüdləşdi.

***"Qazaxıstandakı iğtişaşları yatırtmaq üçün ora Rusiya - 3000, Belarus- 500, Tacikistan - 200, Ermənistan - 70 nəfər sülhməramlı göndərildi" deyilsə də, qeyri-rəsmi mənbələrin məlumatına görə, orada hərbi qüvvələrin sayı 200 min nəfərə yaxın olub. Bəli, Rusiya Qazaxıstana yeridilən hərbçilərin real sayını gizlətdi. Çünki bu həm ölkə daxilində, həm də xaricdə böyük rezonansa səbəb ola, Rusiyanın ölkəni işğal etməsi anlamına gələ bilərdi. Amma işin əsli məhz belə idi. İşğalçılıq!***

Aksiyadakı itkilərin də sayı Rusiyanın "əli ilə" yarıbayarı azaldıldı. Qazaxıstan Baş Prokurorluğunun məlumatına görə. 2 yanvardan 15-nə kimi 4578 qurbanın şəxsiyyəti müəyyən edildi, onlardan 4353-ü, o cümlədən hüquq-mühafizə orqanlarının 3393 əməkdaşı yaralandı. Fövqəladə vəziyyət dövründə 225 ölü ölkə morqlarına təhvil verildi. Həlak olanlar arasında 19 polis və hərbçi də olub ".

Onu da qeyd edək ki, aradan 5 ay keçməsinə baxmayaraq Rusiyanın həmin işğalçı hərəkətindən və kütləvi qətllərindən sonra Qazaxıstan hələ də özünə gəlməyib.

Bu gün əgər Qazaxıstan Rusiyanın tərəfində deyilsə, demək ki, Qazaxıstan haqq yoldadır!Tərəf dəyişdirməsi də təbiidir.

### *Hər daşın altından çıxan erməni cütlük*

***P.S.* Erməni əsilli rusiyalı teleaparıcı Tiqran Keosayan Qazaxıstanın Xarici İşlər Nazirliyi tərəfindən "arzuedilməz şəxslər" ("persona non qrata") siyahısına daxil edilib. "Ermənilik" azarının etiketlərindən olan Marqaritanın əri Tiqran özünün You Tube kanalında Qazaxıstan hakimiyyətinin Rusiya-Ukrayna münasibəti və mayın 9-da ölkədə paradın keçirilməyəcəyi ilə bağlı qərarlarını ələ salıb. Sonra da: "Qardaş ölkələr Rusiya ilə ABŞ və NATO qarşıdurmasında tutacaqları tərəfi müəyyənləşdirməlidir. Rusiya kimin onunla, bir yerdə olub-olmadığını diqqətlə izləyir"-deyə hədə şəklində göndərmə edib. Rusiyanın Ukraynaya hərbi müdaxiləsinə haqq qazandırdıqları üçün Avropa İttifaqı, ABŞ, Böyük Britaniya və Avstraliya sanksiya tətbiq edilən bu murdar cütlük hələ də anlamır ki, bir faşizm bitmək üzrədir. Bu prosesi nə simoyanlar, nə keosayanlar dəyişə bilməyəcək.**

**Əntiqə Rəşid**

---

## *ABŞ KƏŞFİYYATINDAN ŞOK İDDİA*



**Rusiya-Ukrayna müharibəsindən artıq 69 gün keçir. Bir çox bölgələrdə müharibə davam edərkən, ABŞ kəşfiyyatı Rusiyanın strategiyası ilə bağlı yeni iddia irəli sürüb. Amerika kəşfiyyatı flaş açıqlamalar edərək bu müharibədə yeni cəbhənin açılacağını, Rusiyanın Ukrayna şəhərlərini ilhaq edəcəyini bildirib.**

ABŞ-ın Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatındakı səfiri Maykl Karpenter "mötəbər kəşfiyyat" hesabatlarına istinad edərək, Rusiyanın üç bölgəni ilhaq etməyə hazırlaşdığını bildirib. Rusiyanın şərqdə qismən separatçı qüvvələrin nəzarətində olan Donetsk və Luqanskı , cənubda isə ələ keçirdiyi Herson şəhərini ilhaq edəcəyini bildirilib. Həmçinin qeyd olunub ki, Moskva mayın ortalarında bu regionlarda "saxta referendumlar" təşkil etməklə hakimiyyətə özünə bağlı "müqəvva idarəçiləri" gətirmək istəyir. Karpenter, keçiriləcək mübahisəli referendumlarla bu üç bölgədə nəzarəti təmin edəcəyini və beləliklə də, Rusiya Ukraynaya çox geniş bir ərazidə nəzarət etməyə çalışacağını bildirib. Yeri gəlmişkən, İngiltərə Müdafiə Nazirliyinin məlumatlarına istinad edən "The Washington Post" qəzeti Moskvanın işğal etdiyi ilk böyük şəhərlərindən biri olan Hersonda "saxta administrasiya" qurmadan əvvəl rus valyutasından istifadə edəcəyini açıqlamışdı. Rusiyanın ölkənin şərqində referenduma hazırlaşması ilə bağlı iddianı Ukrayna prezidenti Vladimir Zelenski də gündəmə gətirib .

ABŞ-ın Polşadakı keçmiş səfiri Daniel Frid Rusiya lideri Vladimir Putinin qanlı müharibəyə son qoymaq üçün Avropanın Moskvaya bu üç şəhərin ilhaqına icazə verəcəyini düşündüyünü, lakin Buça kimi bölgələrdəki qətliamlardan sonra Qərb ölkələrinin bu ilhaq cəhdlərini qəbul etməsinin mümkün olmadığını da bildirib. Onu da xatırladaq ki, Rusiyanın 2014-cü ildə Ukraynanın Krımı ilhaq etməsi beynəlxalq ictimaiyyətdə böyük reaksiyalara səbəb olmuşdu. İşğaldan əvvəl isə Putin Luqansk və Donetskin müstəqilliyini tanımışdı.

**MEHRİBAN**



Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az

# Haqqa girmək...

## Ondan böyük günah yoxdur

*...Bu gün kimin gücü nəyə çatır, onu da eləyir. Yəni kim güclüdürsə, arxalıdırsa, vəzifəsi, pulu varsa, düşünür ki, o hər şey eləyə bilər. O cür düşünməyə və fikirləşməyə o adamlar artıq vərdiş ediblər. Ən azından ona görə ki, bir çoxları nə qazanıbsa, haram yolla əldə edib. Varı-dövləti, pulu, evi-eşiyi, müxtəlif markalı avtomobilləri təbii ki, halal yolla almaq, alın təri ilə qazanılmış pulla əldə etmək mümkün deyil. Amma buna baxmayaraq, başqasının halal-hümmət malını, pulunu və haqqını ələ keçirən insanlar elə təsəvvür edirlər ki, onlar yaxşı iş görür və burda heç bir pis şey yoxdur. Ancaq onu fikirləşmirlər ki, balam, hər şeyin, hər qazancın, hər halalın və haramın da haqq-hesabı var. Özü də o dünyaya ehtiyac yoxdur. Elə bu dünyada kimin haqqını yemisənsə, mütləq onun cəzasını gec-tez alacaqsan...*

*...Birindən soruşurlar ki, donuz əti yemək günahdırmı? O da deyir ki, donuz əti yemək günahdır. Amma ondan da min dəfə böyük günah kiminsə haqqını yeməkdir. Və bundan böyük günah yoxdur. Bəziləri düşünürlər ki, əşşi, boş şeydir. Nəyin bahasına olursa olsun, mən filankəsin ev növbəsində evini əlindən alacam, halal yolla qazandığı pulları da birtəhər qopardacağam. Özü də dediyini eləyir. İki daşın arasında Allahdan və həmin adamın haqqından qorxmayaraq dolayı yollarla onun qismətini əlindən alır. Yəni mənzil növbəsinə girir, müxtəlif vasitələrlə hərəkət edir, puldan, pənədən, dostdan, tanışdan istifadə edərək başqasının haqqını əlindən alır. Əlbəttə, bütün bu deyilənlər heç də xəyal deyil və heç də ağıla gəlməyən hadisələr deyil.*

*Çox yox, hər kollektivdə, hər iş yerində başqasının haqqını yeyən, üstündən də su içən adamlar az deyil. Özü də o adamlar elə düşünürlər ki, düz edirlər. Söz-söhbət haqdan, ədalətdən düşəndə onlar arsız-arsız qızarıb bozarır və sonra da hırıldayırlar. Beləri nə Allahdan qorxur, nə də kiminsə haqqını yeməkdən. Beləri üçün nə qanun, nə qayda, pulları, adamları var, düşünürlər ki, nə desən eləmək mümkündür.*

*Ancaq bir balaca Allah sevgisi olan, qəlbində və ürəyində mərhəmət yaşadan insan heç vaxt başqasının halal qismətini əlindən almaz. Ən azından gözləyər ki, həmin adam halal haqqını alsın, o da bundan sonra istəyinə çatsın. Təbii ki, bunu da hər adam eləmir. O adam eləyir ki, o Allahdan qorxur, balalarının qabağına çıxacaq bəlalardan çəkinir və ən nəhayət, qarşıdakı insana hörmətlə yanaşır.*

*Bizim nəsildə heç kəs kiminsə haqqını yeməyib, nə də heç kəs kiminsə aftafasını götürüb hansısa vəzifəli şəxsin yanını dəsmallamayıb. Amma bu gün o qədər aftafa götürən, işi düşən vəzifəli adamların yanını dəsmallayan, başqalarının haqqını yemək istəyən ləyaqətsiz və vicdansız adamlar var. Bayaq dedik axı. Onlar üçün haqq-ədalət, vicdan anlayışı yoxdur. Onlar üçün fürsətdən istifadə edib işlədiyi kollektivdə nəyisə əldə etməkdir. Elə çoxu da kollektivə bu məqsədlə gəlir. O məqsədlə gəlir ki, ağına-bozuna baxmadan kiminsə haqqına girəcək, ev alacaq, maşın əldə edəcək, bir az da kobud surətdə desək, vəzifə pilləsinə yüksələcəkdir.*

*Nədənsə beləri üçün həmişə "yaşıl işıq" yandırılır. Haqqı olan qalır qıraqda, haqqı olmayan işlədiyi üç-dörd il ərzində ev də alır, maşın da. İndi gəl bu haqsızlığa döz görüm, necə dözürsən. Heç uzağa getməyək, jurnalistlər üçün tikilmiş birinci və ikinci binada haqqı olanlardan çox haqqı olmayanlar ev aldılar. Elə adamlar ev aldılar ki, onlar heç mətbuatda işləmir, imzaları da tanınmır. 40-45 il Azərbaycan mətbuatında tər tökən, canını və həyatını qoyan, imzası tanınan jurnalistlər qaldı qıraqda, ictimaiyyətin tanımadığı və imzası bilinməyən adamlar iki otaqlı, üç otaqlı mənzillərə yiyələndilər. Hansı ki, onların çoxunun mənzilləri də vardı. Mən jurnalist tanıyıram ki, üç yerdə evi var, orda da mənzil alıb. Bax, haqqa girmək budur ha! Haqqını ala bilməyən bəzi jurnalistlər də təbii ki, onların haqqını girənlərə heç vaxt halallıq vermir. Halallıq verilməyən yerdə isə heç vaxt, heç zaman rahat yaşamaq mümkün deyil. Məsələn, 40 ilin jurnalisti qalır kənarda, 5-6 il mətbuatda baş fırladan adam gəlib mənzil alır. Buna dözmək olarmı?*

*Hələ ki, buna dözənlər var. Hələ ki, haqsızlığa göz yumanlar da az deyil. Bu isə o deməkdir ki, hələ bundan sonra da nə qədər adamın haqqı yeyiləcək. Ancaq bir həqiqət, görünən və görünməyən məqam var: haqqa girmək çox böyük günahdır! O qədər böyük günahdır ki, Allah onu heç vaxt kiməsə bağışlamır, heç haqqı yeyilən adam da düz qiyamətə qədər onun haqqına girən adamı bağışlamayacaq. Ən azından ona görə ki, onun həyatı tar-mar olur, sevinci əbədi kədərlə, dərdlə əvəzlənir.*

*Ona görə də dostlar, yoldaşlar, qardaşlar, kimlərinsə haqqına girib onu yeməyin, mənimsəməyin! Bundan qorxun, qorxun ki, sizin qabağınıza çıxmasa da, haqqını yediyiniz insanların qarğışı balalarınızın, nəvələrinizin qabağına çıxa bilər. Nə məcburdur ki, imkanınız ola-ola, eviniz-eşiyiniz, maşınınız ola-ola başqa bir kasıb və imkansız adamın sonuncu ümidini əlindən alasınız. Bax, sonuncu ümidi əldən almaq çox ağır günahdır. Bu günaha girməyin!*

## Pomidor, xiyar nə vaxt ucuzlaşacaq?



**İnsanlar may ayı olsa da, bazar-dükana gedəndə pomidorun və xiyarın qiymətinin baha olmasından gileylənirlər. Onlar deyirlər ki, mayın əvvəlidi, yenə adını çəkdiyimiz məhsullar çox bahadır. Əlbəttə, həmişə bu vaxtlar həm pomidorun, həm də xiyarın qiyməti baha olur. Heç şübhəsiz, mayın axırına yaxın bu məhsulun qiyməti aşağı enəcək. Çünki əksər tərəvəz məhsulları istixanada yetişdirilir və buna görə də baha qiymətə satılır.**

May ayının axırı, iyun ayının əvvəlində isə təbii yolla yetişən pomidor və xiyarlar satışa çıxarılacaq. Bax, onda da qiymətlər xeyli aşağı düşəcək. Bir də hər bir tərəvəzi və bostan məhsullarını, meyvələri mövsümi vaxtda yetişəndə yemək lazımdır. Ondan tez yeyilməsi heç insanlara xeyir də gətirmir. Hər məhsulu mövsümdə yemək üçün isə sadəcə olaraq bir az gözləmək lazımdır.

## Sürücülər idarəetməni itirir



**Bir neçə gündür ki, respublikamızın avtomobil yollarında bəzi sürücülər avtomobilləri idarə etməsini itirməsi nəticəsində qəzalar baş verir. Bu isə həm yol polisini, həm də cəmiyyəti çox narahat edir. Bəs görəsən nəqliyyat vasitələrində sürücülərin idarəetməni itirməsində səbəb nədir?! Bunun bir neçə səbəbi var. Ən başlaca səbəbi isə sürücülərin sükan arxasında yuxulu olması, yolu yaxşı tanımamasıdır. Və eyni zamanda nəqliyyat vasitələrinin texniki nasazlığı da bu qəzalara şərait yaradır.**

Deməli, hər bir sürücü sükan arxasında əyləşərkən yorulduğunu hiss edəndə mütləq avtomobili yolun kənarına verib saxlamalı, bir xeyli yatandan sonra yenidən sükan arxasına keçməlidir. Çox təəssüf ki, 12, 16 saat sükan arxasında olan bəzi sürücülər yorulur və bir anlıq da olsa onlar yatır və nəticədə bu cür ağır qəzalar baş verir.

**Emil FAİQOĞLU**

İradə TUNCAY

# Filosoflar gəmisi

**Görünür tale məsələsidir - zamanla təkrar olunur. Rusiya azacıq qalxınmağa başlayanda bir zərbə mütləq gəlir və eyni istiqamətdən gəlir. Qərb hər zaman buna hazır dayanıb - layihə hazırdı hər zaman. Çarlıq üsulu yıxılanda Lenin adlı avantüristi topluma yedirtmək lazım idi. Heç bir dəyişikliyə imkan verilmədi və Lenini hər vəchlə təchiz etdilər kapitalla... Lenin də para verənlərin sözündən çıxa bilmədi - dediklərini həyata keçirdi... Əvvəl Vətəndaş müharibəsini başlatdılar. Hər iki tərəf silah və ərzaqla təmin olundu. Və "siz savaşa, biz tamaşa" prinsipi çalışmağa başladı. Ölkənin ağıllı, zadəgan, köklü nəsilləri sıradan çıxarılmağa başladı. Aşağı zümrələr isə aclıqdan qırıldı. Azacıq etiraz, asi, müxalif düşüncə qəbuledilməz hala gəldi.**

Öncə ÇK (çrezvıçaynaya komissiya) repressiya maşınını işə saldı, sonra isə zaman öz işini gördü.

1922-1923-cü illər arasında adamları məcburi şəkildə ölkədən çıxarmağa başladılar. Lenini qəzəbləndirən Qərbin oyunları idi - "aclıq çəkənlərə yardım" adı altında ölkədə qarışıqlıq yaratmaq istəyən qüvvələr daxil olurdu və nə şəkildəsə bunlardan qurtulmaq lazım gələcəkdi. İlk olaraq gəmi və qatar yolu ilə göndərdilər. Simvolik olaraq " Filosoflar gəmisi" adlandırılırdı... Pulsuz, parasız... Amma ilk gedənlərin taleyi müqayisədə daha uğurlu oldu... Leninin ölümündən sonra isə Stalinin mövqeyi güclənməyə başladı və zamanla baş verənlər məlumdu... Nə qədər qırğınlar yaratsalar da, yenə köklü şəkildə silə bilmədilər rus ruhunu. Bolşeviklər "beynəlmiləl" zümrəyə aid idi. Və bu yığma toplum xalqın taleyini, taleyüklü məsələləri adamları ölkədən qovmaqla, sonra isə kütləvi edamlarla həll edirdi... (Yenə adamlar Rusiyadan qaçır)... İmperiya iddiası Qərbi narahat edir. Fərq eləmir - yenə qalxır Rusiya. Bu dəfə SSRİ adı ilə. İkinci Dünya Müharibəsi ərəfəsində də yüksəliş başlamışdı... Savaş, itkilər, dağıntılar və yenidən sıfırdan başlamaq... Sıfırı qaldıra bilmək bacarığı var... Bəlkə də səbəb çoxmillətli toplumun birlikdə var ola bilməsidir. Hər halda "Filosoflar gəmisi"ylə ölkədən köç edənlər həm ölkəni boş qoydu, həm də getdikləri yerdə ölkənin emissarı olmağı bacardılar... Ən qüdrətli, ən çevik xüsusi xidmət orqanları yarada bildilər.

***

...1954-cü ilin payızında Norveçdən bir xanım SSRİ-yə gələn nümayəndə heyətinə başçılıq edir. Xanımı gəzdirirlər - gördükləri onu heyrətləndirir... Asfalt salan, yer qazan, yük daşıyan qadınları gördükcə etiraz edir - sizin bu qadınlara verdiyiniz bərabər hüquq budumu? Ona izah edirlər ki, müharibə yenicə bitib, kişilərin çoxu həlak olub, qadınlar məcburdu bu işləri görməyə. Rəsmi görüşlər bitəndə onu ölkənin gəzməli yerlərinə aparırlar və təbii ki, onları KQB-nin xüsusi qrupu müşayiət edir. Bu qrupun içində göyçək cavan oğlan da olur. Romantik bir ortam - Sevan gölünün sahilində həzin payız axşamı, günəş qürub edir və iki nəfər sahildə dayanıb. Qadının üşüdüyünü hiss edən kişi pencəyini onun çiyninə salır. Xanım minnətdarlıqla onun əlini sıxır, vəəəəə...... Ardını özünüz bildiniz ... Verna Herhardsen kimə təslim olduğunu anlamışdımı? Hər halda siyasətçi xanımı belə məsələlərdə daha məsuliyyətli ola bilərdi... Yəqin rəsmiyyətdən bezib və özünü hadisələrin axarına buraxmaq istəyib. O da insandı, hissləri var... Moskvadan Osloya qayıdanda xanım Yevgeni Belyakovdan (KQB zabitinin adı belə olur) xahiş edir ki, onu unutmasın və yanına gəlsin. Zabit izah eləməyə çalışır ki, özbaşına deyil, dövlət işindədi, amma cəhd edəcək... Bir il sonra xanımın əri Eynar Herhardsen Norveçin Baş naziri olur. Sovet kəşfiyyatı üçün bundan gözəl nə fürsət ola bilər??? Zabit "cəhd" edib Norveç səfirliyində ikinci katib vəzifəsinə gəlir. Və xanıma deyir ki, birlikdə keçirdikləri bütün anları çəkiblər, bundan sonra onların dediklərini eləmək lazım gələcək )))) Amma özünün bundan xəbəri olmayıb yəni Təsəvvür edin də - Sovet səfirliyinin əməkdaşları bütün görüşlərə dəvət alırlar, ən istəkli qonaq olurlar Baş nazirin evində... Hətta NATO-nun önəmli şəxslərinə yol tapırlar (nəzərə alaq il 1955 və soyuq müharibə tüğyan edir). Xruşşova məruzə olunur ki, Baş nazirin iş otağına dinləmə cihazı qoya bilərlər. Amma o qəti etiraz edir, deyir birinci şəxslərə bunu eləmək olmaz... Ancaq Amerika səfirliyinə gedən naqilə dinləmə cihazı qoşulur. Bu arada sevgi macərası tam sürətlə davam edir. Oğlan çox boy-buxunlu olduğundan onu baqajda gizlədə bilmirlər və qadınla görüşə xüsusi düzəldilmiş oturacaqda gətirirlər. Azacıq təhlükə hiss edəndə görüş təxirə salınır. Yazılanlara görə, münasibətlər çox adi səbəbdən bitir - oğlan içib arvadını döyürmüş və bu səs-küy səfirlik əməkdaşlarını narahat etdiyindən şikayət olunur. Zabiti geri çağırırlar... Yəqin ki Norveç kəşfiyyatı bu münasibətlərdən şübhələnirmiş... Amma fakt olmayıb əllərində... Hər halda romantik birinci ledinin sevgi hekayəsi Sovet kəşfiyyatına nə qədər yardımçı olub...

Bir az şəxsi fikirləşdim... Gör bizim kəşfiyyatçının əlindən nə qədər belə qadınlar keçibeeee...

***

Bəzən yaradılan nağıllar həddən artıq gözəl olur... O qədər gözəl ki, şübhələnirsən. Hətta nağıl kimi ölkələrdə yaransa belə... Hazırlayırlar bir gözəli, ulduzlaşdırırlar, Oskar verirlər... Sonra şahzadə yapırlar. De Qoll dikbaşdı. Yola gəlmir. Kennedi fransız dilini öyrənməyə başlayır, xanımı da fransız əsillidi zatən... Şahzadə xanımdan da istifadə edirlər... Alınmır. Və Fransada iğtişaşlar başlayır... De Qoll istefaya gedir. Oxuyanlar bilir, bilməyənlər də oxuya bilər... Nağıl isə şahzadə xanım haqqında idi. Gərək olanda, vaxtı gələndə nağıl kimi qəza da yaradırlar. Qreys Kellinin nağılı bitir. Sonra Diana üçün də yaratdılar və bitirdilər... Bütün nağılların bir müəllifi var... Bəzən də müəllif qrupu. Müəlliflər qrupunun içində mütləq KQB də olur.

Happy end olmayan nağıl...

İkinci Dünya Müharibəsindən sonra dünyada belə nağıllar çox yaşanıb...

Səbəb nə oldu çöküşə? Qarşı tərəfin dirənməyi? Ya İmperiya iddialarının güclənməsi? Bu iddialar məhv edir onları. Amma inanmıram KQB nağılı bitəcək. Ölkənin başında duran yaradır bu mifləri. Xalqlar dostluğu xalqlar həbsxanasına döndü... Xalqın özü isə qeyri-fəlsəfi tərzdə qaçır ölkədən. Dönük adı ilə, filosof yox... Bəlkə yeni agentura şəbəkəsi yaranacaq yenə?

***

**Yevgeni Şvartsın əsəri əsasında bir film çəkib Mark Zaxarov - "Əjdahanı öldürmək". Qısacası belədi. Bütün günü özünü xoşbəxt göstərən şəhər əhalisinə bir əjdaha qənim kəsilir. Lanselot adlı bir cəngavər əjdahanı öldürmək qərarına gəlir. Əjdaha onu yanına çağırıb deyir ki, bunu niyə eləyirsən, görmürsənmi onlar öz hallarından necə xoşbəxtdilər? Mənəviyyatları necə şikəstdi? Lanselot deyir ki, onları şikəst eləyən sənsən, mən səni öldürəcəm və hamı xilas olacaq. Əjdahayla vuruşur və qələbə çalır. Bütün şəhər toy-bayram eləyir və şəhərin burqomisterinə dua eləyirlər ki, əjdahanı o öldürüb. Lanselot deyir ki, axı siz gördünüz, o əjdahanı mən öldürdüm?! İnsanlar cavab verirlər ki, bunu biz evdə deyə bilərik, küçədə yox. Və Lanselot başa düşür ki, insanların hərəsinin içində bir əjdaha var, o, həmin əjdaha ilə mübarizə aparmalı, onu öldürməliymiş. Burda hər adamın içində bir əjdaha var və o əjdahaları bir-bir öldürmək mümkün deyil.**

**Deyəsən, bunu demək istəyirdim...**

# Rəşid Behbudov qollarını açıb Fikrət Qocanı qarşılayır

**Bilmirəm, külək əsməyə, yağış yağmağa cəld tərpəndi, yoxsa Fikrət Qoca ölməyə?! Yazdırmı, payızdırmı, bilmirəm, amma üşütdüyü dəqiqdir.**

İnsan bəzən ən ali həqiqətlərə soyuq divarlar arasında üşüyə-üşüyə çatır, Fikrət Qoca da mayın əvvəllərində özünə küləkli, yağışlı, soyuq bir gün seçib öz ali həqiqətinə - ölümünə çatdı.

***

Azərbaycan Nəşriyyatında - "Ədalət" qəzetinin redaksiyasında iş yoldaşlarımızla son günlər dünyasını dəyişən ictimai adamları yad edirdik. Ki, Nadir Rzalının zəngi gəldi.

***- Alo, necəsiz? Fikrət Qocanın dəfninə gedəcəksiniz?***

***- Yaxşıyıq, hə. Səsin niyə belə gəlir?***

***- Xəbəri eşidəndən dəhşət kövrəlmişəm, ağladım da... Onda belə edək, birgə gedərik. Sizi məscidin yanında gözləyəcəm.***

Yolu məsciddə başlayıb məzarda bitirmək də yəqin günün bir ayrı mistikasıdır. Vədələşirik, görüşüb gedirik..

***

Birinci fəxri xiyaban...

Kimlər, kimlər yatır burda.

Orxan Saffari, Nadir Rzalı ilə söhbətləşirik. Hələ cənazə gəlməyib.

İçəri girən kimi birinci Rəşid Behbudovun qolları açıq büstünü görürük. Burada dəfn olunan hər kəsi ən birinci o



qarşılayır, "Xoş gəldin aramıza" deyib qucaqlayır. Bu dəfə də Fikrət Qocanın yolunu hamıdan əvvəl o gözləyir.

Yolumuzu birinci dünyanın ən kasıb prezidentinin heykəlindən salırıq. Hər dəfə I Fəxri Xiyabana gələndə biixtiyar yolum sağa - Elçibəyin məzarına sarı burulur. Elə bilirəm, yanına getməsəm, özü durub gələcək yanıma, sonra aparacaq məzarı üstünə, "Sakarya" şeirini oxuyacaq, sonra əllərini önündə cütləyib qayıdacaq heykəl halına, məzar halına. Ruhuna fatihə oxuyuruq!

Sonra..

Sonra heykəlləri seyr edə-edə dəfn yerinə qayıdırıq.

Qılıncı, qələmi ilə sakitkirmiş yatan Məmməd Səid Ordubadinin yanına.

Ara-sıra tanış adamlar gəlir, salamlaşırıq, hal-əhvallaşırıq. Jurnalist dostları görünməyə başlayır.

Mirmehdi Ağaoğlu, Ülviyyə Heydərova, televiziya işçiləri, Fikrət Qocanın dostları, Sabir Rüstəmxanlı, Elçin Əfəndiyev, Səlim Babullaoğlu...



Daha kimlər kimlər. "Cənazə nə vaxt gələcək?" - bir-birimizdən soruşuruq. Elə bu dəm qəfil başlayan yağışla Fikrət Qocanın cənazəsinin gəlişi bir olur.

Susqunluq, soyuq, fotoaparat səsləri.

Yazıçı Anar, Rəşad Məcid... Cənazənin ətrafında dostları, qələm, iş yoldaşları onun son evinə qədər ötürür.

***

Külək əsir, yağış yağır, yamyaşıl otların, ağacların başında quşlar ötüşür, altında isə molla Fikrət Qocanın nəşi ilə danışır, fəhlələr şairin fotosu olan qara lövhənin arxasında beton qarışdırır, yurnalistlər gah Rəşad Məcidin, Sabir Rüstəmxanlının kədərini dinləyir, gah da Ağalar Bayramov şairin şeirini deyir. Yazıçı Anarın səsini isə yalnız mikrofonlar, bir də çox yaxınında durmuş adamlar eşidir.

***

***Payızın gəlişinə, quşların gedişinə şeir yazan şairin hüzuruna gəlib - küləklər də, yağışlar da, quşlar da. Ömrünün sonuncu yazını yola salmaq üçün. Fikrət Qoca bundan sonra torpağın altında cismani payızını yaşayacaq.***

***Sağlığında yazdığı "Yatmadığım gecələrdə" əsərinə yenidən göz gəzdirəcək. Şairi yeni evində tək-tənha qoyub uzaqlaşırıq.***

***Yağış kiriyir.***

***Rəşid Behbudovun qollarını açmış büstü. Kim istəməz ki, onu son mənzilinin baxçasında Rəşid Behbudov qarşılamasın...***

***Eminquey***
***6 may 2021***

# Əlilliyi olan şəxslərin hüquqlarına yeni yanaşma

**Cəmiyyətin bərabər hüquqlu üzvləri kimi əlilliyi olan şəxslərin də hüquqlarının müdafiəsi bu gün insan hüquqlarının əsas istiqamətlərindən biridir. Bu sahədə ən əsas beynəlxalq standartlar isə BMT-nin Əlilliyi olan Şəxslərin Hüquqları Haqqında Konvensiyasında müəyyənləşib. Konvensiyaya tərəfdar çıxmış hər bir dövlət əlilliyi olan şəxslərin hüquqlarının daha səmərəli təminatı və təşviqi üçün önəmli öhdəliklər daşıyır. Əlilliyi olan Şəxslərin Hüquqları Haqqında Konvensiya BMT-nin Baş Məclisi tərəfindən 2006-cı il dekabrın 13-də qəbul edilmişdir. Azərbaycan Respublikası qeyd olunan konvensiyaya 2 oktyabr 2008-ci il tarixli qanunla qoşulub.**

Konvensiyanın məqsədi əlilliyi olan şəxslər tərəfindən bütün insan hüquqlarının və əsas azadlıqlarının tam və bərabər səviyyədə həyata keçirilməsinə həvəsləndirməkdən, müdafiə və təmin etməkdən, eləcə də onların ləyaqətinə hörmətlə yanaşılmasından ibarətdir.

Əlilliyi olan şəxslərin hüquqlarına münasibətdə onların fiziki və psixi tələbatlarını nəzərə alan yeni ümumi yanaşmaları və prinsipləri müəyyən edən konvensiya iştirakçı dövlətlərlə yanaş, əslində hər bir sağlam insanın da əlilliyi olan şəxslərə münasibətdə rəhbər tutmalı olduğu prinsipləri də bildirir.

Konvensiyanın 3-cü maddəsinə əsasən həmin prinsiplərə şəxsi seçim etmək azadlığı və müstəqilliyi də daxil olmaqla, insan ləyaqətinə, onun şəxsi sərbəstliyinə hörmət olunması, ayrı-seçkiliyə yol verilməməsi, cəmiyyətə tam və səmərəli cəlb olunma və daxil olma, əlilliyi olan şəxslərin xüsusiyyətlərinə hörmət olunması və onların insan müxtəlifliyinin komponenti və bəşəriyyətin bir hissəsi kimi qəbul olunması, imkanların bərabərliyi, müyəssərlik, kişi və qadınların bərabərliyi, əlilliyi olan uşaqların inkişaf edən qabiliyyətinə hörmət və onların öz fərdiliyini saxlamaq hüquqlarına hörmət daxildir.

Göründüyü kimi əlilliyi olan şəxslərə münasibətdə əsas prinsiplərdən biri bərabərlik və ayrı-seçkiliyə yol verilməməsidir. Konvensiyanın 5-ci maddəsinə əsasən iştirakçı dövlətlər əlillik əlaməti üzrə istənilən ayrı-seçkiliyi qadağan edir və əlillərin istənilən zəmində ayrı-seçkilikdən bərabər və səmərəli hüquqi müdafiəsinə təminat verirlər.

Bərabərliyin təşviqi və ayrı-seçkiliyin aradan qaldırılması üçün iştirakçı dövlətlər ağlabatan uyğunlaşmanın təmin olunmasına doğru bütün lazımi addımları atırlar.

Əlilliyi olan uşaqlara münasibətdə isə Konvensiyada müəyyən edilib ki, iştirakçı dövlətlər əlilliyi olan uşaqların digər uşaqlarla bərabər səviyyədə bütün insan hüquqlarını və əsas azadlıqlarını tam həyata keçirməsini təmin etmək üçün bütün zəruri tədbirləri görürlər.

Əlilliyi olan uşaqlara münasibətdə bütün hərəkətlər zamanı ilk növbədə uşaqların ali maraqlarına diqqət ayrılır. İştirakçı dövlətlər əlilliyi olan uşaqların, digər uşaqlarla bərabər səviyyədə, onları maraqlandıran məsələlərlə bağlı onların yaşına və yetkinlik səviyyəsinə uyğun olan fikirlərini sərbəst ifadə etmələrini və bu hüquqların realizəsi üçün əlilliyinə və yaşına uyğun yardım almalarını təmin edirlər (7-ci maddə).

Qeyd olunan beynəlxalq standartlarla yanaşı Konvensiyada əlilliyi olan şəxslərin bir sıra digər hüquq və azadlıqları, o cümlədən yaşamaq, qanun qarşısında bərabərlik, ədalət mühakiməsinin təmin olunması, azadlıq və şəxsi toxunulmazlıq, işgəncələrdən və qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və cəza növlərindən azadolma, istismardan, zorakılıqdan və təhqirdən azad olma, şəxsi bütövlüyün qorunması, yerdəyişmə azadlığı və vətəndaşlıq hüququ, müstəqil həyat tərzi və yerli icmaya cəlb olunma, fikir və əqidələrin sərbəst ifadə olunması və informasiyadan istifadə imkanları, şəxsi həyatın toxunulmazlığı, evə və ailəyə hörmət, təhsil, sağlamlıq, abilitasiya və reabilitasiya, əmək və məşğulluq, qənaətbəxş həyat səviyyəsi və sosial müdafiə, siyasi və ictimai həyatda iştirak, mədəni həyatda iştirak, asudə vaxtın və istirahətin təşkili və idmanla məşğul olma hüquqları da ətraflı təsbit olunmuş, iştirakçı dövlətlərin həmin hüquqların səmərəli həyata keçirilməsinin təmin olunması istiqamətində öhdəlikləri müəyyən edilmişdir.

Konvensiya əsasında iştirakçı dövlətlər tərəfindən Konvensiyadan irəli gələn öhdəliklərin həyata keçirilməsinə nəzarətin təmin olunması üçün Əlilliyi olan şəxslərin hüquqları üzrə Komitə təsis olunub və həmin komitə dövrü olaraq dövlətlər tərəfindən təqdim olunmuş məruzələri nəzərdən keçirərək, əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinin təkmilləşdirilməsi üçün dövlətlərə öz tövsiyələrini verir.

Bununla yanaşı qeyd edilməlidir ki, Konvensiyanın 33-cü maddəsinə əsasən iştirakçı dövlətlər təşkilati quruluşlarına müvafiq olaraq, hökumət strukturunda bu Konvensiyanın həyata keçirilməsi ilə bağlı məsələlərə rəhbərlik edən bir və ya bir neçə instansiya təyin edirlər.

Azərbaycan Respublikasında həmin instansiya Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyidir.

Həmçinin qeyd olunan maddənin tələbinə əsasən iştirakçı dövlətlər özlərinin hüquqi və inzibati quruluşlarına müvafiq olaraq bu Konvensiyanın həyata keçirilməsinin təşviqi, müdafiəsi və monitorinqi üçün bir və ya bir neçə müstəqil mexanizmlərdən ibarət strukturu dəstəkləyir, möhkəmləndirir, təyin edir və ya təsis edirlər. Bu cür mexanizmin təyin və ya təsis edilməsi zamanı iştirakçı dövlətlər insan hüquqlarının müdafiəsi və həvəsləndirilməsi ilə məşğul olan milli təsisatların statusuna və fəaliyyətinə aid olan prinsipləri də nəzərə alırlar.

Azərbaycan Respublikasında Konvensiyanın həyata keçirilməsinin təşviqi, müdafiəsi və monitorinqini aparan müstəqil mexanizm Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatıdır. Qeyd edək ki, Ombudsman Səbinə Əliyeva tərəfindən əlilliyi olan şəxslərin hüquqlarının təmini məsələsi daim diqqət mərkəzində saxlanılır. Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinin səmərəliliyinin artırılması məqsədilə Müvəkkilin təşəbbüsü ilə Ombudsman aparatının strukturunda yeni sektor - Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi sektoru yaradılıb və uğurla fəaliyyət göstərməkdədir.

**Həmçinin Ombudsman və onun Milli Preventiv Qrupunun üzvləri tərəfindən penitensiar, sosial xidmət, səhiyyə, o cümlədən psixiatriya müəssisələrində əlilliyi olan şəxslərin hüquqlarının təmin olunması vəziyyətinin, o cümlədən saxlanma şəraiti və müəssisə əməkdaşlarının onlarla rəftarının araşdırılması məqsədilə mütəmadi olaraq monitorinqlər həyata keçirilir, əlilliyi olan şəxslərin, QHT-lərin və aidiyyəti dövlət qurumlarının geniş iştirakı ilə hüquqi maarifləndirici tədbirlər təşkil olunur. Ombudsman tərəfindən sosial xidmət müəssisələrində dövlət təminatında yaşayan əlilliyi olan şəxslərin və ahılların hüquqlarının müdafiəsinin səmərəliliyinin artırılması məqsədilə səlahiyyətli dövlət qurumlarına özündə çoxsaylı təklif və tövsiyələri əks etdirən müraciətlər edilib və nəticədə bir çox hallarda onların təmini ilə bağlı zəruri tədbirlər görülüb ki, bu da Azərbaycan Respublikasının BMT-nin Əlilliyi olan Şəxslərin Hüquqları Haqqında Konvensiyasından irəli gələn öhdəliklərinin səmərəli icrasına, bu qəbildən olan vətəndaşlarımızın hüquqlarının təmininə öz dəyərli töhfələrini verib.**

**Səbuhi ABBASOV,**
**Ombudsmanın Gəncə regional mərkəzinin rəhbəri**

## Macarıstan rus neftinə sanksiyalara veto qoyacaq



**Neft embarqosu qəbul edilərsə, bu, Macarıstan iqtisadiyyatına atılan atom bombası demək olacaq.**

Bunu Macarıstanın Baş naziri Viktor Orban deyib. O, neftin Rusiya əvəzinə başqa ölkədən alınmasının çox baha başa gəldiyini, Macarıstan üçün 5 illik keçid dövrü tələb etdiyini və hökumətin bu problem həll olunana qədər veto hüququndan istifadə edəcəyini bildirib. Orban Avropa İttifaqı Komissiyasının Rusiyadan neft idxalına qadağa qoyulması təklifini dəstəkləməyəcəklərini vurğulayıb. Qeyd edək ki, təklif bu gün müzakirəyə çıxarılacaq.

## Çin: NATO-nun bu hücumunu heç vaxt unutmayacağıq

**NATO-nun Yuqoslaviyadakı səfirliyimizi bombalamasını heç vaxt unutmayacağıq.**

Bu barədə Çin Xarici İşlər Nazirliyi məlumat yayıb. "Nə Çin xalqı, nə serb vətəndaşları, nə də beynəlxalq ictimaiyyət NATO-nun barbar hücum aktını unudacaq", - məlumatda bildirilir. Qeyd edək ki, 1999-cu ilin mayın 7-də NATO qüvvələrinin keçmiş Yuqoslaviyanı bombalaması nəticəsində Çinin Belqraddakı səfirliyinin binası yüksək dəqiqlikli bomba ilə darmadağın edilmişdi.

**MEHRİBAN**

# Bir anın diqqətsizliyi...

## Ağır qəzalar yaradır

**Bu gün ölkəmizdə 20 il bundan əvvəllə müqayisədə nəqliyyat vasitələrinin sayı bir neçə dəfə artıb. Təbii ki, avtomobillərin çoxluğu həm respublika əhəmiyyətli, həm də şəhərdaxili yollarda intensivliyi artırır və sıxlıq yaradır. Belə bir məqamda hər bir sürücünün yol hərəkəti qaydalarına əməl etməsi vacib şərtlərdən biridir. O vacib şərtlər ki, bir çox halda sükan arxasında əyləşmiş sürücülər bunu unudur, yol hərəkəti qaydalarını pozur və nəticədə ağır qəzalar qaçılmaz olur.**

Əlbəttə, hərəkətin təhlükəsizliyinin təmin edilməsində üç tərəf var: sürücü, piyada və yol polisi! Bu üç tərəfin biri səhlənkarlıq edəndə, öz vəzifə borcuna məsuliyyətsiz yanaşanda, istər-istəməz yol nəqliyyat hadisələri baş verir. Və bu yol-nəqliyyat hadisələrində aydındır ki, təkcə avtomobillər sıradan çıxmır, həm də o nəqliyyat vasitələrinin salonunda olan sürücülərlə sərnişinlər ağır xəsarət alır, ya da dünyalarını dəyişirlər.

Ona görə də Baş Dövlət Yol Polisi İdarəsi respublika əhəmiyyətli yollarda baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısını almaq üçün davamlı olaraq qabaqlayıcı tədbirlər görür. Bu tədbirlər həm təbliğat xarakteri daşıyır, həm də inzibati əhəmiyyət kəsb edir. Yəni əksər sürücülərə maarifləndirmə yolu ilə xəbərdarlıq edilir və onlara yol hərəkəti qaydalarına ciddi riayət etmək tövsiyə olunur. İpə-sapa yatmayan sürücülər barəsində də qüvvədə olan "Yol hərəkəti haqqında" Qanunla müvafiq tədbirlər görülür. Başqa sözlə demiş olsaq, onlar inzibati məsuliyyətə cəlb edilirlər.

### *Heç kəsə sirr deyil ki,*

***yol polisi sutkanın 24 saatını gərgin iş rejimində keçirir. Üstəlik də bu qurum bayram günlərində ciddi iş rejimində çalışır. Yəni onlar respublikanın avtomobil yollarında hərəkətin təhlükəsizliyini təmin etmək üçün çox ciddi addımlar atırlar.***

Bu mənada Yol Patrul Xidməti Alayının bütün tağımlarının fəaliyyəti daha çox diqqəti cəlb eləyir. Belə ki, alayın bütün tağımları respublikanın avtomobil yollarında hərəkətin təhlükəsizliyini təmin etmək üçün öz üzərinə düşən vəzifə borcunu məsuliyyətlə yerinə yetirir. Belə tağımlardan biri də Bakı-Qazax avtomobil yolunda xidmət aparan yeddinci tağımının əməkdaşlarıdır.

Aydındır ki, hər gün bu istiqamətdə minlərlə nəqliyyat vasitəsi Gürcüstana doğru hərəkət edir. Nəqliyyat vasitələrinin həmin istiqamətdə çoxluğu bir daha həm sürücülərin, həm də yol polisinin üzərinə böyük məsuliyyət qoyur.

### *Yeddinci tağımın əməkdaşları*

***stasionar postlarda bir qayda olaraq sürücülərin maarifləndirilməsi üçün vaxtaşırı tədbirlər görür. İstər yay***




***mövsümündə, istərsə də qışda bu tağımda çalışan yol polisi əməkdaşları hərəkətin təhlükəsizliyinin təmin edilməsi üçün 24 saat öz üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirir. Onu da qeyd edək ki, son vaxtlar həyata keçirilmiş qabaqlayıcı profilaktik tədbirlər nəticəsində yeddinci tağımın xidmət apardığı yolda əvvəlki vaxtlarla müqayisədə ölümlə nəticələnən qəzaların sayı azalıb. Təbii ki, buna da asanlıqla nail olunmayıb. Çünki yeddinci tağıma bir ildən çoxdur ki, çox təcrübəli, savadlı, vətənpərvər bir polis mayoru Mərdan Mehdiyev rəhbərlik edir. Mənim Mərdan müəllimlə tanışlığım düz 20 ilə yaxındır. O hansı tağıma komandirlik edibsə, demək olar ki, orda həmişə müsbət irəliləyişlər olub, qəzalar və ölüm halları aşağı enib. Bu da ona görə əldə edilib ki, tağımda həmişə sağlam atmosfer yaradılıb, möhkəm nizam-intizam olub və həyata keçirilmiş tədbirlər müəyyən zamandan sonra öz müsbət nəticəsini verib.***

Bir faktı da qeyd edək ki, tağım əməkdaşları kobud qayda pozuntularına qarşı çox ciddi mübarizə aparıb və aparır. Bununla yanaşı, əksər qəzalar nəqliyyat vasitələrinin yüksək sürətlə idarə olunması, ötmə əməliyyatının vaxtında yerinə yetirilməməsi, manevr qaydalarının pozulması və bəzi sürücülərin sükan arxasında sərxoş vəziyyətdə əyləşməsi nəticəsində baş verir. Bir qayda olaraq yeddinci tağımın əməkdaşları göstərdiyimiz kobud qayda pozuntularına qarşı sistemli iş təşkil edib və bu işin həyata keçməsi hesabına kobud qayda pozuntuları azalıb.

Eyni zamanda yay mövzumündə havalar isti olanda tağım əməkdaşları sərnişin daşıyan avtobus və taksi sürücüləri ilə maarifləndirici söhbətlər aparır. Onlara xatırladılır ki, isti havalarda və kondisionersiz nəqliyyat vasitələrində sükan arxasında çox əyləşməsinlər. Çünki hamıya yaxşı bəllidir ki, kondisioner sistemi olmayan avtomobilləri idarə edərkən sürücülər bəzən sükan arxasında yatırlar. Bir anlıq sükan arxasında mürgüləmək isə ağır qəzanın baş verməsinə münbit şərait yaradır.

### *Hər yay mövsümündə*

yeddinci tağımın stasionar postunda sürücülərin əl-üzünü yuması və dincəlməsi üçün münbit şərait yaradılır. Əgər sürücü yuxuludursa, inspektor da bunu aşkar edirsə, həmin sürücü stasionar postda saxlanılır, o, əl-üzünü yuyur və bundan sonra həmin sürücünün hərəkətinə yol polisi icazə verir.

Eyni zamanda yük daşıyan, iri tonnajlı nəqliyyat vasitələrinin sürücüləri ilə də maarifləndirici söhbətlər aparılır. Bir daha onlara xatırladılır ki, "Kamaz", "Kraz", "Şadman" markalı maşınlara normaya uyğun tikinti materialları yığılmalıdı. Üstəlik də həmin yük maşınlarının üstü örtüklə qapadılır. Bunu da ona görə edirlər ki, qum, çınqıl avtomobil yoluna tökülməsin, başqa nəqliyyat vasitələri üçün çətinlik yaratmasın və yolu çirkləndirməsin. Əlbəttə, yol polisinin bu cür profilaktik və qabaqlayıcı tədbirləri sürücülər tərəfindən də razılıqla qarşılanır.

Bir qayda olaraq sərt döngəli və hərəkətin təhlükəli olduğu yerlərə metroloji şəraitə uyğun olaraq naryadlar göndərilir. Həmin yerdə xidmət edən yeddinci tağımın əməkdaşları mürəkkəb hava şəraitində, xüsusən də dumanlı, qarlı, yağışlı günlərdə sürücülərə öz məsləhətlərini verir, xəbərdarlıq edirlər. Əlbəttə bu xəbərdarlıqlar sürücüləri daha diqqətli olmağa sövq edir.

### *Bir çox sürücülər*

yol polisini hərəkətin çətin olduğu yerdə görəndə məsuliyyətləri bir qədər də artır. Yəni sürücü hiss edir ki, yol polisi onun təhlükəsizliyini təmin edir.

Yeddinci tağımın fəaliyyətinin ən yaxşı məqamlarından biri də çətin vəziyyətdə və xəstə olan insanların stasionar posta yaxınlaşıb onlardan kömək istəməsidir. Dəfələrlə nəqliyyat vasitəsinin nasazlığı üzündən xəstəni xəstəxanaya aparan maşın stasionar postun yaxınlığında xarab olub. Bu vaxt onlar yol polisinə müraciət edib, yol polisi də həmin şəxslərə kömək edərək operativ olaraq lazımi xəstəxanaya çatdırıb. Yol polisi ilə hərəkət iştirakçıları arasında olan bu isti münasibət istər-istəməz hər iki tərəf arasında səmimi əlaqə yaradır. Bu əlaqə olanda təbii ki, hər iki tərəf bir-birini daha yaxşı anlayır və başa düşür.

Görünən odur ki, Yol Patrul Xidməti Alayının yeddinci tağımı bu gün öz üzərinə düşən vəzifəni çox yüksək məsuliyyətlə yerinə yetirir. Bu o deməkdir ki, eyni zamanda digər hərəkət iştirakçıları da məsuliyyətli olmalı və sükan arxasında əyləşərkən yol hərəkəti qaydalarını əməl etməlidilər.

Çünki bir anın diqqətsizliyi bəzən sükan arxasında əyləşmiş o sürücüyə çox baha başa gəlir. El dilində demiş olsaq, qəza baş verir və bu qəza zamanı ya insan ağır xəsarət alır, ya da dünyasını dəyişir.

**Ona görə də bir daha hər bir sürücü respublikanın avtomobil yolunda mənzil başına gedərkən diqqətli olmalı, yol hərəkəti qaydalarına əməl etməli, yol polisinin tövsiyələrini yerinə yetirməlidir. Belə olarsa, hamımız mənzil başına sağ-salamat çatarıq.**

**Faiq QİSMƏTOĞLU**

# HEÇ BİR XƏSTƏLİK ÜMİDSİZ DEYİL

**Sivil, dünyəvi, demokratik dövlət quruculuğu yolunda inamla irəliləyən, beynəlxalq aləmdə böyük nüfuz qazanan Azərbaycan çiçəklənmə dövrünü yaşayır. İstənilən sahədə əldə olunan nailiyyətlərdən danışarkən, ilk növbədə müstəqil dövlətimizin memarı və qurucusu, görkəmli ictimai-siyasi, böyük dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevin tarixi xidmətləri qeyd edilir, yüksək qiymətləndirilir. Ölkəmizdə elə bir sahə tapılmaz ki, orada ulu öndərimizin fəaliyyəti hiss olunmasın, Azərbaycanın dövlət müstəqilliyini qazanması, bu tarixi nailiyyətin qorunaraq inkişaf etdirilməsi, ölkə vətəndaşlarının hüquq və azadlıqlarının təmin olunması, onların həyat şəraitinin maksimum səviyyədə yüksəldilməsi, bir sözlə, həyatın bütün sahələrində əldə edilən müsbət nəticələr ümummilli liderimizin adı, tarixi xidmətləri ilə bağlıdır.**



Heydər Əliyevin rəhbərliyi ilə və onun gərgin əməyi sayəsində Azərbaycanın qazandığı uğurlar təkcə 1993-cü ildən sonrakı dövrü əhatə etmir. Tam məsuliyyətlə deyə bilərik ki, bugünkü uğurların, həmçinin müstəqilliyimizin təməli ötən əsrin 70-ci illərində qoyulmuşdur.

14 iyul 1969-cu ildə respublikamıza rəhbər təyin olunan Heydər Əliyev qısa zaman ərzində Azərbaycanın hərtərəfli inkişafına nail oldu. Milli-mənəvi dəyərlərimizə, dilimizə, dinimizə, ədəbiyyatımıza, adət-ənənələrimizə edilən təcavüzlərin qarşısını ulu öndər qətiyyətlə aldı.

Digər sahələr kimi, səhiyyənin inkişafı da onun gərgin əməyinin bəhrəsidir. Milli kadrların hazırlanması siyasətini uğurla həyata keçirən ümummilli liderimiz qədim tarixə, zəngin ənənələrə malik olan tibb elminin hərtərəfli və daha sürətlə inkişaf etdirilməsi üçün müstəsna xidmətlər göstərmişdir.

Əhalinin sağlamlığının təmin olunmasına xüsusi diqqət və qayğı ilə yanaşan Heydər Əliyevin təşəbbüsü, rəhbərliyi, köməkliyi ilə respublikamızda yüzlərlə tibb müəssisəsi tikilərək xalqın ixtiyarına verildi.

Respublikamızın hər bir vətəndaşı, o cümlədən səhiyyə sahəsində çalışanlar həyatın hər anında müdrik rəhbərin qayğısını hiss etmişlər. Respublinın hər bir bölgəsilə yanaşı Gəncə şəhərində səhiyyəyə diqqət özünəməxsus yer tutur.xüsusilə əqli qüsurlu xəstələrə yüksək kefiyyətli tibbi xidmət və qulluq aydın nəzərə çarpır .

Gəncə şəhərində fəaliyyət göstərən ruhi-əsəb dispanseiı bu qayğı və diqqətin başlıca təzahürüdür.

Dispanserdə çalışan hər biri tibb işçisi özlüyündə yüksək ixtisaslı həkimlərdir .Onlardan biri də öz bilik və bacarığı ilə başqalarına nümunə olan dispanserin baş həkimi Tərlan Hüseynovadır.

HÜSEYNOVA TƏLAN MƏMMƏD QIZI 1956 cı-ildə Goranboy rayonu Dəliməmmədli qəsəbəsində ziyalı ailəsində anadan olmuşdur.Orta məktəb və gənclik illərində xüsusi isdedadı ilə seçilən Tərlan.Hüseynova yaxınlarının məsləhəti və dəstəyi ilə işlərini Azərbaycan Tibb Univeristetinə verir, və müalicə-proflatika fakultəsinə daxil olur. Univeristeti bitirdikdən sonra 1980 ci-ildə Gəncə şəhər A. Səhhət adına xəstəxananın qəbul şöbəsində ilk fəaliyyətinə başlayır.

Qabiliyyət və bacarığı ilə seçilən T. Hüseynova çox keçmir həmin xətəxananın poliklinika şöbəsinə rəhbər vəzifəyə gətirilir.

Daha sonralar bir çox səhiyyə ocaqlarında rəhbər vəzifələrdə çalışan T. Hüseynova həmişə öz bilik və təcrübəsi ilə başqalarına örnək olmuşdur.2015 ci-ildə Gəncə şəhər TTYX-da baş həkimin müavini ,2017 ci -ildə isə Səhiyyə Nazirliyinin təşəbbusu və etimadı ilə Gəncə şəhəri Ruhi-Əsəb dispanserinin baş həkim vəzifəsinə təyin olunur.Bu gün çox ciddi nizam intizamlı öz həkim komandasını yaradan T.Hüseynova mehriban gülərüz və,xoş rətarı ilə müraciət edən xəstələrin eləcədə xəstə yaxınlarının dərindən məhəbbətini qazanmışdır.

Heç bir xəstəlik ümidsiz deyil ,yanlız möhkəm iradə, dözüm, səbr və inam lazımdır.Hər şeyə rəğmən həyat yaşamağa dəyər,yetərki istək və həvəs olsun.

Bu gün Azərbaycan səhiyyəsində hər cür potensial imkan və şərait var, və bunun üçün də dövlətimiz geniş imkanlar yaradıb.

Yeni müstəqil Azərbaycanın sürətlə inkişaf etdiyi dövrdə səhiyyə insanların şüurunda, təhsilində, təlim-tərbiyəsində, bütün həyat tərzində öz əksini tapmışdır.

Səhiyyənin maddi-texniki bazasını təkmilləşdirmək, əhalinin sağlamlığı sisteminin konsepsiyası işlənib hazırlanmışdır.

**Ulu öndərimiz Heydər Əliyev deyirdi: "Səhiyyə həddindən artıq geniş, həyatın bütün sahələrini əhatə edən, cəmiyyət üçün, dövlət üçün, hər bir insan üçün çox lazımlı bir sahədir. Ona görə də hər bir insan həkimə hörmət edir, səhiyyə işçilərinə hörmət edir. Həkimlər də insanlara tibbi yardım göstərməklə, onları müalicə etməklə özlərinə böyük mənəvi hörmət, ehtiram qazanırlar.**

**Babək ƏLİYEV**
**Jurnalist**

# *Yaralı olsa da özünü deyil, heyətini meydandan çıxartdıran qəhrəman*

(oçerk)

- Əsgər!

Samid İmanovun qışqırığı yanındakı əsgərləri diksindirdi. Onların ürəyi qan ağlayır, ancaq komandirlərinin bu amiranə səsindən ehtiyat edərək, dillənə bilmirdilər. Əsgərlər qərarsız şəkildə bir-birilərinin üzünə baxırdılar.

Samid İmanov dirsəklənərək yerdən gövdəsini qaldırdı. Bir əli ilə çiynindən axan qanı tuturmuşcasına bərk-bərk əlini qəlpə yarasının üstünə basdırdı. Əsgərlərin üzünə baxıb, yenidən sanki heç nə olmamamış kimi əmr etdi:

- Əsgər! Sənə əmr edirəm. Məni burda qoyun gedin. İki yüz metr arxada yaralı gizir var, onu götürüb posta qayıdın.

Onun bu sözləri ağzından çıxmışdı ki, qarşı tərəfdən güllə səsləri eşidilir, qəlpələr ətrafına səpələnirdi. Əsgərlər mövqe seçib, düşmənə cavab atəşi açdılar. Atışma gedə-gedə əsgərlərdən biri sürünə-sürünə Samid İmanovun yanına gəldi.

- Yoldaş mayor, biz sizi burada qoyub gedə bilmərik. Ölmək ölməkdirsə, səninlə birlikdə buradaca canımızı verəcəyik. Vətən sağ olsun! Sənin kimi dəyərli hərbçiyə vətənin böyük ehtiyacı var. Qoy biz ölək buradaca, təkcə sən yaşa.

Samid İmanovun üzündə qürur hissi aydın oxunurdu. Onun hərəkətləri elə idi ki, sanki yaralanmamışdı. Ancaq bir tərəfdən də taqətdən düşdüyünü bilirdi. Sadəcə əsgərlərinə ruh yüksəkliyi vermək üçün özünü tox tutmağa çalışırdı.

- Afərin, əsgər! Siz bir daha sübut etdiniz ki, bu vətənin çörəyi sizə halaldır. Çox uğurlu əməliyyat keçirdik. 20-dən çox erməni hərbçisini məhv etdik. Bütün bunlar sizin sayənizdə oldu. Bax gizir də yaralıdır. Onun da məsuliyyəti mənim boynumdadır. Siz mənim övladlarım, dostlarımsınız. Sizə zərrə zərər gəlsə, mən özümü heç vaxt bağışlamaram. Bu vətənin elə sizin kimi mərd, cəsur oğullara da ehtiyacı var.

Güllə atışları davam edirdi. Samid İmanov vəziyyətin ciddiliyini görüb, yenidən sərt görkəm aldı.

- İndi isə sizə əmr edirəm. Əsgər geri çəkilin. Döyüş tapşırığını uğurla başa vurduğumuzu qərargaha xəbər verin, kəşfiyyat məlumatlarını da dərhal ötürün ki, hücum gecikməsin. Bu sizə əmrimdir və sizin də həm mənəvi, həm də vəzifə borcunuzdur ki, bu əmrə tabe olasınız!

***

Aprelin 3-dən 4-nə keçən gecə erməni silahlı qüvvələri Azərbaycan ərazilərinə hücuma cəhd göstərmiş, ilk həmləsi məyusluqla nəticələnmişdi. Yaradılan qərargahda düşmənin geri oturdulması üçün planlar hazırlanır. Bir neçə plan üzərində dayanılmışdı. Bu planlardan biri də mayor Samid İmanovun komandanlığı altında düşmən ordusunun arxasına göndərilmək nəzərdə tutulurdu. Samid İmanov tapşırığı alan kimi yola düşdü. Öz komandası ilə xüsusi yollarla düşmən ordusunun arxasına keçə bilmişdi. O, gecə görmə cihazı ilə düşmən postunu izləyir, ətrafda baş verənlərə nəzarət edərək, hücum planı hazırlayırdı.

Samid İmanov illərin verdiyi təcrübədən istifadə edərək mükəmməl plan hazırlamışdı. Planına əsasən heç kim zərər görməyəcək, əməliyyatı uğurla həyata keçirərək, geri qayıda biləcəkdilər. Bu çətin tapşırıq ona təsadüfən tapşırılmamışdı. Neftçala rayonunda anadan olan Samid İmanovun hərbə marağı elə uşaq yaşlardan başlayıb. Heç təsadüfi deyil ki, bu istək onu orta məktəbi bitirən kimi Heydər Əliyev adına Ali Hərbi Məktəbə yazılmağa sövq etdi. Burada öz kursant yoldaşları və müəllimləri arasında böyük hörmət qazanan Samid İmanov tədrisdə göstərdiyi yüksək nə-



ticələrə görə hərbi məktəbi fərqlənmə diplomu ilə bitirdi. Onun uğurları bununla da bitmədi. Daim hərbi sahədə özünü göstərən Samid İmanov çox keçmədi ki, ulu öndər Heydər Əliyev tərəfindən xüsusi mükafata layiq görüldü.

Bununla yanaşı Ali Baş Komandan İlham Əliyev də onu göstərdiyi yüksək xidmətlərə görə iki dəfə qəbul edib, ona qızıl saat bağışlamışdı. Samid İmanov dostları ilə söhbət zamanı hər iki xatirəsini daim bölüşər, ulu öndər və cənab prezident İlham Əliyev tərəfindən yüksək qiymətləndirilməsinin həyatının ən uğurlu anlarından biri kimi qələmə verərdi.

Samid İmanov daim öz üzərində çalışaraq, müxtəlif təlimlərdə iştirak edirdi. O, Türkiyədə keçirilən "Daxili təhlükəsizlik əməliyyatlarının planlaşdırılması və icrası", "Komando təlimi və paraşütdən sərbəst atlamaq" kurslarında, habelə "Anadolu-2007", "Anadolu Qartalı -2007" birgə taktiki təlimlərində, Pakistanda "Ləpirçi və antiterror" kurslarında, İsveçrə krallığında "Dağ təlimi" kursunda, Rumıniya Respublikasında "Dağa dırmanma üzrə təlimatçı" kurslarına da qatılaraq təcrübəsinin üzərinə təcrübə əlavə edib. İmanov vətəninə layiqli övlad olmaq üçün daim çalışıb və lazım gələn anda torpaqlarına layiqincə xidmət etmək üçün özünü həmişə yeniləyib, son hərbi yeniliklərdən xəbərdar olmağa çalışıb. Çünki İmanov bilirdi ki, düşmənlə üzbəüz gələndə ondan qat-qat güclü olmalı, heç cür düşmən qarşısında büdrəməməlidir. Bəli, o an gəlib çatmışdı. İndi qaranlıqda qarşıdakı düşmən postuna baxarkən, ürəyində böyük bir şövq var idi. İllərdi arzuladığı məqam gəlib çatmışdı. Düzdür, o dəfələrlə düşmənlə üz-üzə dayanmış, düşmənə ağır zərbələr endirmiş, uğurlu əməliyyatlar həyata keçirmişdi. Ancaq bilirdi ki, bu dəfə hər şey tamam fərqlidir. O, təcrübəli hərbçi kimi başa düşürdü ki, işğal altında olan torpaqlarını azad edə biləcəklər. Və bu işdə Azərbaycan Ordusuna onun xidmətləri böyük kömək edəcək. Odur ki, ətrafı sakitcə bir müddət izlədikdən sonra qərar verdi. Əlini ay işığında gecənin qaranlığını yararaq göyə qaldırdı. Barmaqları ilə əsgərləri iki-iki dəstəyə böldü. Düşmən əsgərlərini hürkütməmək üçün səssizcə əsgərlərə mövqelərini göstərdi. Nəhayət o, an gəlib çatdı. Əlini qaldırıb, yumruq formasında tutdu. Yumruğunu qabağa uzadaraq, bədən dili ilə "Marş irəli" dedi. Əsgərləri onun bu əmrini görən kimi, dərhal irəli atıldılar. Ancaq mayor Samid İmanov hər kəsdən qabaqda gedirdi. İlk gülləsi ilə ətrafı qızılca atəş bürüdü. Qurduğu plan sayəsində itki vermədən, bütün düşmənləri məhv edə bilmişdilər. Qısa müddət ərzində iyirmiyə yaxın düşmən əsgər və zabiti öldürülmüşdü. Samid İmanov döyüş tapşırığının bitdiyini arxaya çəkilməyi əmr etdi. Düşmənə böyük zərbə vurulmuşdu. Strateji obyektlərindən biri təmamilə məhv edilmişdi. Artıq Azərbaycan Ordusunun irəliləməsi üçün lazım olan əngəllərdən biri qalxmışdı.

***

Samid İmanovun komandanlığı altında dəstə geri qayıdarkən mühasirəyə salınmışdı. O, ilk gülləyə öz bədənini sipər etmiş, həyatı boyu qarşısına qoyduğu prinsipinə sadiq qalmışdı. Əsgərlərinə heç nə olmamışdı. Yaralı olmağına baxmayaraq Samid İmanov özü şəxsən silah əlində döyüşür, əsgərləri ilə birlikdə Azərbaycan tərəfinə qayıtmağa çalışırdı. Atışma zamanı bir gizir də güllə yarası aldı. Samid İmanov vəziyyətin getdikcə ağırlaşdığını görür, çıxış yolu axtarır. İllərin təcrübəsi ona başqa yolun olmadığını deyirdi...

***

Əsgərlərin gözü onun üzündə idi. Ancaq komandanın əmri qəti idi və onun əmrindən heç cür çıxmaq olmazdı. Əsgərlər gizir yoldaşlarını da götürüb yavaş-yavaş arxaya çəkilməyə başladılar. Samid İmanov dirsəyi ilə sürünərək, silahını götürdü. Silahını qaldırıb döyüşməyə, düşmən ordusunu yavaşıtmağa nail oldu. O, elə döyüşürdü ki, düşmən qarşısında bir ordu olduğunu zənn edirdi. Təcrübəli hərbçi, mayor Samid İmanov isə tək və yaralı idi.

***

Samid İmanov son damla qanına qədər vətəni, milləti üçün döyüşdü. O, düşmən təxribatının qarşısını almağa müvəffəq ola bildi. Canını vətən uğrunda sipər etmiş, Aprel döyüşlərində Azərbaycan Silahlı Qüvvələrinin uğur qazanmasına öz töhfəsini vermişdi.

Onun nəşi neytral zonadan götürülərək, şəhid adına layiq bir formada, böyük izdiham içərisində dəfn edilmişdi. Samid İmanov ailəli idi, iki övladı var. Ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

**Emin Piri**

# Azərbaycan xalqı Böyük Vətən Müharibəsində qələbənin qazanılmasına böyük töhfələr verib

**İkinci dünya müharibəsində faşizm üzərində Qələbədən 77 il keçir. Bu qələbənin əldə olunmasında Azərbaycan xalqının da böyük töhfəsi və rolu olub. Çünki xalqımız faşizm üzərində qələbə üçün özünün 600 min oğul və qızını cəbhəyə yola salmışdı. Azərbaycanda təşkil olunmuş diviziyalar Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, minlərlə həmyerlimiz partizan dəstələrinin tərkibində vuruşublar. Onlar doğma Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda mərdliklə, hünərlə vuruşaraq həm də doğma Azərbaycan torpağını qoruyublar. 170 mindən çox azərbaycanlının orden və medallarla təltif edilməsi, 42 nəfər həmyerlimizin isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi buna əyani sübutdur.**

Ümummilli lider Heydər Əliyev 1995-ci ildə Qələbənin 50 illiyi ilə bağlı keçirilən təntənəli tədbirdə deyirdi: "Bu qələbənin çalınmasında Azərbaycanın xüsusi rolu bir də ondan ibarətdir ki, Azərbaycan Respublikasının nefti o vaxtlar həmin müharibənin uğurla aparılması üçün ən mühüm amillərdən biri olmuşdur. Həmin dövrdə Sovetlər İttifaqında çıxarılan neftin 70 faizi Azərbaycanda hasil edilirdi. Bu qədər neft Azərbaycan neftçilərinin fədakar əməyi sayəsində istehsal olunurdu. Şübhəsiz, nəticə çıxarmaq çətin deyil ki, əgər Azərbaycan nefti olmasaydı, motorlar müharibəsi, texnika müharibəsi o qədər uğurlu və müvəffəqiyyətli ola bilməzdi. O vaxtlar Azərbaycan alimləri tərəfindən yüksək keyfiyyətli benzin, kerosin və başqa neft məhsulları ixtira olunaraq, respublikamızda istehsal edilirdi…".

Xatırladaq ki, müharibənin ilk dövründə qüvvələr nisbəti düşmənin xeyrinə idi. Düşmənin qəfil hücumu nəticəsində sovet ordusunun çoxlu sayda canlı qüvvəsi əsir alınmış, xeyli hərbi texnikası sıradan çıxarılmışdı. Faşist Almaniyası işğal etdiyi Avropa ölkələrinin iqtisadi və hərbi potensialını öz əlində cəmləşdirmişdi. Lakin "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı altında bütün Sovet xalqları birləşdi. Bununla da düşmənin hücumları nəinki dayandırıldı, faşistlər Moskva, Stalinqrad, Kursk və başqa döyüşlərdə ən ağır və sarsıdıcı məğlubiyyətə uğradıldı, 1945-ci ildə isə tamamilə məğlub edildilər.

Bu gün Qələbənin 77 illiyinin qeyd edilməsinin əsl səbəbkarları, düşmənin məğlub edilməsində böyük şücaətlər göstərmiş, canlarından keçməyə hazır olduqlarını nümayiş etdirmiş, başqa xalqların nümayəndələri ilə birlikdə müharibədə iştirak edərək və dünyanı faşizmdən xilas etməyə nail olmuş soydaşlarımızın qəhrəmanlığı heç vaxt unudulmayacaq. Çünki faşizm üzərində tarixi qələbənin qazanılmasında Azərbaycan xalqının ön və arxa cəbhələrdə göstərdikləri şücaətlər danılmazdır.



İki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş həmyerlimiz Həzi Aslanovun, İsrafil Məmmədovun, Azərbaycan şahini Hüseynbala Əliyevin, Mehdi Hüseynzadənin, Gəray Əsədovun, komandirinin həyatını xilas etmək üçün sinəsini düşmən gülləsinə sipər edən dənizçi Qafur Məmmədovun, partizan hərəkatının fəal iştirakçısı, "Fransanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüş Əhmədiyyə Cəbrayılovun, qadınlarımızdan təyyarəçi Züleyxa Seyidməmmədovanın, snayperçi Ziba Səlimovanın, gəmi kapitanı Şövkət Səlimovanın və başqa həmvətənlərimizin adları dillər əzbəri olmuş, tarixə düşmüşdür.

İndi Azərbaycanda 1941-45-ci illərdə böyük şücaət, qəhrəmanlıq göstərmiş insanların keçdiyi şərəfli döyüş yolu gənc nəslin ideoloji-mənəvi, hərbi vətənpərvərlik tərbiyəsində mühüm amilə çevrilib. Ona görə də hər il 9 may - Qələbə günü dövlətimiz tərəfindən təntənəli surətdə qeyd olunur.

Ulu öndər Heydər Əliyev müharibə veteranlarının xidmətlərini çox yüksək qiymətləndirərək deyirdi: "Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğıya və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin, Böyük Vətən müharibəsinin veteranları bizim ən əziz, ən möhtəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir namuslu Azərbaycan vətəndaşının borcudur". Bu gün Ulu Öndər Heydər Əliyevin müharibə veteranlarına diqqət və qayğısını Prezident cənab İlham Əliyev layiqincə davam etdirir. Faşizm üzərində tarixi Qələbənin ildönümü hər il respublikamızda təntənəli şəkildə qeyd olunur. Prezident cənab İlham Əliyev hər il Qələbə günündə görkəmli sərkərdə, xalqımızın rəşadətli oğlu, tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun, xalqımızın igid oğullarının əziz xatirəsini dərin ehtiramla yad edir, müharibə veteranları ilə görüşür, onları Qələbə bayramı münasibətilə təbrik edir. Dövlət başçısının müharibə veteranlarının sosial müdafiəsinin gücləndirilməsi, xatirəsinin əbədiləşdirilməsi istiqamətində atdığı addımlar, yubiley medallarının təsis edilməsi cəmiyyətdə böyük razılıqla qarşılanır.

**Bu unudulmaz gündə biz də təşkilatımız adından bütün müharibə veteranlarını ürəkdən təbrik edir, onlara can sağlığı diləyir və şücaətlərinə görə təşəkkürümüzü bildiririk.**

**Teyyub Həsənov, "Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı" İctimai Birliyinin Binəqədi rayon filialının sədri**

# *Anası öldü, cəsədini iki həftə tualetdə saxladı*

**Yaponiyada qorxu filmlərinə bənzəyən bir hadisə baş verib. Polis ölən anasının cəsədini təxminən 2 həftə ərzində evlərinin tualetində saxlayan bir qızı yaxaladı.**

Adalet.az-ın xarici mətbuatdan əldə etdiyi məlumata görə, Kaqoşima əyalətinin Kikai bölgəsində yaşayan 47 yaşlı Setsuko Suzuki aprel ayının ortalarından dünyasını dəyişən anası 79 yaşlı Oyama Suzukinin cansız bədənini evlərinin tualetində saxlayıb. 26 aprel səhəri sosial xidmətlərin nümayəndəsi Suzukilər ailəsinə rutin ziyarət edərkən yaşlı qadının evdə olmamasından və qızının davranışlarından şübhələnib. Xüsusən tualetin yanında çoxlu milçəklərin uçuşduğunu görən nümayəndə vaxt itirmədən vəziyyəti polisə xəbər edib. Axtarış əsasında qadının cəsədi tualetdən tapılıb və qızı həbs olunub. Ölənin qızı tutduğu əməli etiraf edib.

**Qeyd edək ki, Yaponiyada qulluğa ehtiyac duyan bir çox yaşlı insan uşaqları ilə birlikdə eyni evdə yaşayır. Buna bənzər hadisələr Yaponiyada sıx-sıx rast gəlinir. Səbəb isə əksərən ölən adamın təqaüdünü almağa davam etmək olur.**

**Eminquey**



Əbülfət MƏDƏTOĞLU

# VARDIN!.. və mən də VARAMMI?

## Ayaz Arabaçı ilə xəyal SÖHBƏTİ

**Biz bu dünyanı öz varlığımızla həm dəyərləndirir, həm də dəyər qazandırırıq. Yəni, varıqsa, dünya da var, yoxuqsa dünya da yoxdur... Və bir də bu qarşı-qarşıya gələn məqamın içərisində əbədilik anlayışı da var. Bu da o deməkdir ki, bizli də, bizsiz də var olanlar vardır, yox olanlar da yoxdur. Deməli, ilahi güc özü tarazlayır, özü nizamlayır, bir az da konkret desəm "ol!" və "öl!" arasında hər şey idarə olunur. İdarəedən də məlumdur. Biyyət edib-etməməkdən asılı olmayaraq bu bir möhürlü gerçəkdir...**

Bəli, bütün söz adamları varla yoxun, olla-ölün arasında hər zaman var-gəl edib, arayıb-axtarıb, sorğu-sualla, hətta sükút ilə nəyisə dərk etməyə, dərk etdirməyə, anlamağa və anlatmağa çalışıbdı. Hətta böyük Xəyyam yazıb ki, "Mənsiz də dünyanın işi gedərmiş, Xəyyam, sən nə üçün dünyaya gəldin?". Bax, bu anlamda indi qarşımdakı şeirlə həmsöhbətəm. Şeirdə ifadə olunan fikirlər, yaradılan mənzərə və şair məntiqi əvvəldə vurğuladığım həmin cizgilərin özəl formasıdı. Yəni, müəllifin özünə aid yanaşmadı. Çünki şair yazır:

*Mən sənə*
*qatarlarda rast gəlmədim,*
*Rast gəlmədim getdiyim*
*uzaq şəhərlərdə.*
*Amma vardın içimdəki*
*boşluğu dolduran*
*ümid dolu səhərlərdə.*

Bəli, bu ilk baxışdan bir pıçıltıdı. Özü də heç kimin eşitmədiyi, heç kimin hardasa vaxt ayırıb gözləmədiyi bir pıçıltı. Amma bu pıçıltı bir qapını, bir pəncərəni döyür. O ünvan sahibini söhbətə çəkir, onu ortalığa çıxarır və həmin o fikirlərlə də onu sanki dünəndən həm qoparmaq, həm də dünənə qaytarmaq istəyir. Bu yerdə mənim də yadıma düşür ki:

*Sevincində, qəmində*
*Kirpiyinin nəmində...*
*Hansısa bir dəmində -*
*Varammı?*

Görürsünüz, necə bir qəribəlik, necə bir duyğusallıq burada pıçıltı şəklindədi. Yəni mən də heç kimsənin yox və heç kimin də eşitməsini istəməyən birinin qapısını, birinin pəncərəni döyür, bir ünvanın qarşısını kəsib onu həm dünəndən qoparmağa, həm də dünənə qaytarmağa çalışıram. Onu dindirmək, söhbət iştirakçısı etmək istəyirəm. Axı qarşımdakı şeirin müəllifi təsadüfdən yazmayıb ki:

*Hardasa əlim çatmayan*
*ən yuxarı*
*qatlarda vardın.*
*Başıma gələn bütün*
*əhvalatlarda vardın.*

Deməli, bu həm xatırlatmadı, həm yaddaşı oyatmaqdı, həm sadə şəkildə desək, bir "him-cim"di, həm də o dünənin bu günə daşınıb gətirməsidi. Özü də təkcə fikir kimi yox, həm də bir mənzərə kimi, bir məqam kimi gətirilmədi. O mənzərə, o məqam gələndə onun iştirakçısı da, şahidi də gəlmiş olur artıq. Və bunu da şair sadəcə pıçıldayır. Və mən də o pıçıltıya qoşuluram:

*Gülüşündə, nazında*
*Onun çox, ya azında...*
*Sənin alın yazında -*
*Varammı?*

Görürsünüz, əvvəldə dediyim çalarlar, nüanslar necə ipə-sapa düzülür, necə sıralanır? Bu da səbəbsiz deyil. Səbəb də məlumdur. Yaşanmış an, yaşanmış məqam, yaşanmış duyğular və bir də o yaşanmış nəsnələrin daşıyıcıları olan iki tərəf. Bu iki tərəf də hara, hansı səmtə üz tutmalarından asılı olmayaraq xatirə xatirəliyində, yaddaş yaddaşlığında qalır. O mobil telefonun kartı deyil ki, çıxarıb atasan. Onun silinməsi üçün ömür bitməlidi. O anda yaşanan reallıq şairin qələmi ilə yenə mənimlə söhbət edir və deyir ki:

*Vardın*
*Cilovlaya bilmədiyim*
*ayaqlarımın sızıltısında*
*Vardın qızıl şəfəqlərin*
*ovcunda,*
*gümüş ilğımların*
*mızıltısında.*
*Səndən ayrılıb getmək*
*olmurdu,*
*getmək olmurdu şəklin düşən*
*pəncərələrdən.*
*rəsmin düşən sulardan...*

Doğurdan da nə ayaq sızıltısını, nə ürək göynərtisini, nə də ruhun dörd divar arasında və yaxud da hər kəsin unutduğu məqamda mızıltısını, (burada onu zümzümə kimi də qeyd etmək olar - Ə.M.) yaddan çıxartmaq, unutmaq mümkünsüzdü. Ən azından ayaqlar adama üsyan edər. Səni gəzdirməkdən, sənə xidmət etməkdən üz çevirər. Təbii ki, bu obrazdı, yanaşmadı, amma gerçəkdi. Lap elə bir dəli sayağı desəm, sözə baxmaz, aparmaz səni öz ardınca, yeriməz olar və ... Və onda bilərsən ki, ayağın da xidməti var, ayağın da gördüyü iş var... Hə, bunlar öz-özü ilə danışan adamın xəyalpərvərliyi, lap elə "gic-gicəliyi" olsa da, mənə görə yaşamdı. O yaşamı mən də pıçıldamışam:

*Gündüzündə, gecəndə*
*Anı, andan seçəndə...*
*Ürəyindən keçəndə -*
*Varammı?*

*Xəyalında, yuxunda*
*Ürək qədər yaxında...*
*Lap düyməntək yaxanda -*
*Varammı?*

Bu yerdə heç kim yaxasını kənara çəkməsin. Çünki barəsində söhbət gedən elə duyğular, elə hislərdir ki, iynə ucu boyda adamlığı olan hər kəs bunları az ya çox yaşayıb və yaxud da yaşayır. Yəni SEVGİ hər kəsin qapısını döyür, özü də necə deyərlər, yaşa dəxli olmadan. Ona görə də suyun üstündəki kölgə də mənə, elə şeirin müəllifinə də yaşamın bir anı, gerçəkliyi, bir lövhəsi kimi görünür. O kölgənin saçlarını sular darayır. Deməli, o var! Ona görə də:

*Ayılmaq olmurdu*
*bir külək kimi gəlib*
*keçdiyin yuxulardan.*
*Hər şey köhnəlirdi*
*sən təzə qalırdın,*
*xatirələrimin qürubunda*
*köçəri durnatək*
*qanad çalırdın..*

İndi mənzərəni tuta bildinizmi, seyr etdinizmi? İnanıram ki, düşündüyüm kimi də olub. Çünki, axı siz də sevirsiniz! Siz də bu hislərlə tanışsınız, doğmasınız, dostsunuz. Bu yaşam sizin də həyatınızın bir parçasıdı, elə mənim də. Ona görə də tərəddüd etmədən mən də pıçıldayıram:

*Haqqa açıq əlində*
*Dua kimi dilində...*
*Gündə, ayda, ilində -*
*Varammı?*

Ömrün ölçüsü mənə görə var olduğun tarixlə, zamanla hesablanmalı deyil. Ömrün ölçüsü yaşadığın sevginlə, nifrətinlə, vüsalın və həsrətinlə ölçülməlidir, qiymətləndirilməlidir. Deyəcəksiniz ki, bu da təzə çıxdı? Olsun, siz öz məntiqinizdə qalın, mən də öz məntiqimdə. Amma unutmayın ki, içinizdəki sevgi vüsal və həsrət elə nifrətin özü də sizi gec-tez mənim mövqeyimə meylləndirəcək. Yolunuzu mənim məntiqimə tərəf salacaqsınız. Sizə təqdim etdiyim şeirin növbəti bəndində bunu yəqin ki, bir daha hiss edəcəksiniz:

*Hər bahar yağışlar çəmənlikləri*
*təmir eləyirdi,*
*hər çiçəkdən boylanırdın..*
*buludlarla döyüşdən yorulmuş*
*günəş kimi yanırdın.*

Bax budur, həm reallıq, həm də məntiqin sərrast gülləsi. O güllənin gilizi də, barıtı da, qırması da, bir sözlə nəyi varsa, hamısı SEVGİdi. Tuşlanıb ünvanına. O ünvan sahibi də bütün bu olanların danılmazlığına sükutla razılıq verir, tabe olur. Onun da qaçmağa, geri çəkilməyə yeri yoxdur. Axı söhbət yaşanmış gerçəklikdən gedir. Və mən də həmin o söhbətə qoşulurum:

*...Özümə özüm qədər*
*Yoxdur, yaşadan kədər!*
*Soruşmuram ki, hədər -*
*Varammı?*

Deməli, sizinlə bölüşdüyüm bu gerçəkliyin son nöqtəsinə, kulminasiya halına gəlib çatdıq. Bu elə bir nöqtədir ki, orda təsdiq öz bayrağını dalğalandırır. Həmin bayrağın altında dayanan da təbii ki, yenə SEVGİDİ! Bax, mənim də, elə sizin də şairə qoşulub gəldiyiniz yolda əlimizdən tutan o SEVGİ idi. Şeirin müəllifi olan dəyərli şairimiz Ayaz Arabaçı sonda bu məntiqi yenə pıçıltı ilə hamımıza xatırladır, söyləyir:

*Vardın, daşqınlarda,*
*yanğınlarda, vəlvələlərdə,*
*Vardın xam xəyallarımın*
*aynasında,*
*İçimdəki on ballıq*
*zəlzələlərdə...*

Hə, gəlin bir anlıq susaq və həmin bir anın içərisində gözümüzün önünə sevgimizi anbaan gətirək... Onda hamımız həmin o sevgini yaşadanı, bizimlə bölüşəni, nəfəsimiz toxuna biləcək bir məsafədə görəcəyik. Və o da, biz də bir-birimizə eyni etirafı edəcəyik:

- VARDIN...

Mən də etiraf edəcəm və bir də təkrar soruşacam:

*Dünyamdakı atəş, nur,*
*Bir azacıq yaxın durr!..*
*Əlini üzümə vur -*
*Varammı?*

Bax indi təklif edirəm ki, elə siz də əlinizi bir-birinizin üzünə vurun, saçına toxundurun və sonra da pıçıltı ilə soruşun: VARAMMI?

***P.S.** Ayaz Arabaçı ilə həmsöhbət olub gəldiyim bu məsafənin sonunda elə ondan da soruşmaq istəyirəm. VARDIN! Və mən də VARAMMI?*



Sona Çərkəz,
Azərbaycan Yazıçılar Birliyinin üzvü

# YAXŞI Kİ, VARSAN, SƏFƏR!

**Bu gün yazacağım bu yazı - təbrik yazısı indiyə qədər yazdığım yazılara və çox sayda elmi - publisistik məqalələrə nə mənaca, nə məzmunca bənzəmir... Əslində bu yazıya açıq məktubda demək olar. Dətən doğum günlərində - yubileylərdə qəlbdən gələn təbrik sözlərini, xoş arzuları lap əvvəllər açıqcalara yazar və yubilyara təqdim edərdilər. Mən isə bu ənənələrdən uzaq ürəyim istəyən bir yazı yazıb, onu qəzet vasitəsilə yaxın qohumumuz - ömür-gün yoldaşım Çərkəz Quliyevin əmisi oğlu, atamında yaxın dostu, sirdaşı Səfər Məhəmməd oğlu Quliyevə ünvanladığım yubiley yazısını çox sevdiyim, ərk elədiyim mətbu orqanı olan "Ədalət" qəzetinə təqdim edib, onu bu yolla təbrik edəcəm. Ümid edirəm ki, qaynım bildiyim, Quliyevlər nəslinin geniş ürəkli, sanballı və alicənab ağsaqqalı Səfərin ürəyincə olacaq belə təbrikim...**

Əziz və hörmətli qaynım Səfər! Sənin necə qohumcanlı, istiqanlı, kövrək qəlbli, xeyirxah və xləyaqətli insan olmağından dastanlar yazmaq olar, lakin qohum-əqrəban, elin-oban, dosttanışın bir sözlə ətrafın məlum məsələdir ki, səni məndən də qat-qat gözəl tanıyır və sevirlər. Yüksək insani keyfiyyətlərinə görə hər zaman xüsusi hörmətə və sevgiyə layiq olan, seçilmiş insanlardan olubsan və şükür Allaha ki, varsan!

Yuxarda dediklərimə rəğmən məndə bu gün öz şəxsi düşüncələrimin fikirlərimdə boy atmasını, bundan belə gənclərimizin sənin kimi mərdlik və ləyaqət simvoluna çevrilmək istəyənlərin bu yazıdan bəhrələnməsini arzu edərək bu yazını yazmaq, doğum gündə sənin özünə təqdim etmək niyyətindəyəm.

Əlbəttə, bu yazını yazarkən məsuliyyətdə hiss edirəm, o səbəbdən ki, 1966-cı ildə sənin maşınınla əmin evinə gəlin köçmüşəm. Onu da deyim ki, bütövlükdə sizin ailəniz mənim həyat yoldaşım BDU-nun dosenti, filologiya elmləri üzrə fəlsəfə doktoru Çərkəz Quliyevi sonsuz sevgi ilə istəyər və qardaş bilərdiniz. Bu istək, bu hörmət qarşılıqlı idi, Çərkəz də sizi elə bilirdi. Bunu ən çox 1969-cu ildə, biz Bakıya köçdüyümüz zamanlarda hiss etdik. Çünki o zaman yanımızda olanları heç unuda bilmirəm, unutmaramda. Hz. Əliyə sual veriblər ki, ən



böyük günah nədir? Hz. Əli cavabında deyib: ***"İnsan üçün ən böyük günah haqq-sayı itirməkdir."*** Əslində bir salamda, xoş niyyətdə səmimidirsə böyük haqqdır. Səfər qohumluqda üzə vari, adı qohum özü yad olanlardan deyil, doğmasına can yandıranlardandır.

Səfər, əzizim mən səni ona görə çox dəyərləndirirəm ki, sən ürəyi və dili bir olan, heç vaxt heç kəsin diktəsinə ehtiyac duymayan, öz fikri olan insansan. Dərələyəzin Ardaraz kəndinə, Vedibasar mahalından gəlin gələn, ömrünün sonuna qədər özünü qərib sayan anam Səriyyə öz söhbətlərində tez-tez sənin valideynlərindən - Məhəmməd əmidən və Qəndab xaladan söhbət açar və onların o illərdə anama necə heyan durmalarından, görüşünə gəlmələrindən ürəklə danışar, kövrələrdi. Anam deyərdi : Qəndab xanım çörəyi bişirər, qaynar-qaynar bizə gətirərdi, çünki mən qaynanasız evə gəlin gəlmişdim. O zamanlar hər adamın belə əliaçıq, diqqətcil və vəfalı olması az-az gözə dəyərdi.

Həyat sübut edir ki, yaxşı hər şey insana soydan, kökdən gəlir, qana hopur və nəsildən nəslə keçir və qana hopur. Sən xoşbəxt insansan Səfər ! Sözün tam mənasında qürur duyulacaq övladların atasısan... Onlarda sənin kimi istiqanlı, etibarlı, xeyirə-şərə yarayan, böyüklərə də, kiçiklərə də ehtiram bəsləyən insandırlar. Çoxları yaxşı mənə da sənin balalarının mehribanlığına və qədirbilənliyinə həsəd aparırlar.

Səfər, qardaşım, ataların yolu övladlara mayakdır. Sən özün də ata, anana, qardaş, bacılarına, ümumiyyətlə qohumlarına bağlı insan olubsan. Prinsipial mövqeyin, sözü üzə demək bacarığın, haqqı nahaqqa verməməyin, soyuqqanlıları ötkəm sözünlə təmbeh etməyi bacarmağın səni çoxlarından fərqləndirən xüsusiyyətlərdəndir. Sən həqiqətən hər vaxt qohumluqda dönüb dəyişməyən, çətinliklərdə yaxınlarının yanında olmağı bacaran adamsan.

Bu yazımda onu da mütləq qeyd etmək istəyirəm ki, sən xoşbəxt atasan, övladlarında çox mehriban, valideyn qədri bilən, təəssübkeş, yaxınlarına yanan, biri-birinin dəyərini biləndirlər və gözəl ailə başçısıdırlar.Nizami, Cavanşir, Şahin,Şaiq və Nəciməddin!- bu oğulların hər biri mənim üçün çox əzizdirlər! Əsasən də Cavanşir və Nizami cavan olsalar da xarakterlərindəki səmimiyyətə görə el-oba içində böyük nüfus sahibidirlər. Xoşbəxtəm ki, Quliyevlər ocağından birinin, yəni Qayın və Qardaş bildiyim Səfərin qapısından ürəklə girə bilərəm. Bu evdə məni hər vaxt gözləyən, xətrimi istəyən, bu evin xanımı əzizim Zeynəbə xüsusi hörmətim və məhəbbətim var. Səfərin əvəzsiz və sevimli qızları Sevil, Sevda və Sevinc mənə övladlarım qədər əzizdirlər... Bu qızların hər biri düşdükləri ocaqlarda üz ağardan,

**Baş uca edən qeyrətli XANIMLARDI! Allah hamısını qorusun!**

**Beləliklə, bu gözəl bahar günündə səni doğum günün münasibətilə ürəkdən təbrik edir, uzun və sağlam ömür diləyirəm. Nəvə, nəticə toylarında hər vaxt olduğu kimi yenə başda olasan.**



MUSA XANBABAZADƏ
Filoloq-ədəbiyyatşünas

# XALQIN GÖZ YAŞI ROMANI

**(əvvəli ötən sayımızda)**

**Ədalət Ərənlər kəndinin ən aktivi, ən fəxridir. İxtisasca müəllimdir. Xalq hərəkatının, Xalq cəbhəsinin öncüllərindənqurucularındandır. Qarabağ müharibəsininiştirakçısıdır.Qolu dirsəkdən kəsilmiş halda evinə dönür. Haqqın-ədalətin, doğruluq-dürüstlüyün tərəfdarıdır:Yalan və yalnçılara sonsuz nifrətlidir. Haqq bildiyi işdən geri addım atmır. Bu keyfiyyətlərinə görə tanıyanlar onu "Nemes" çağırırlar.Kəndin, rayonun mənsəbliləri Ədalətdən çəkinir. Yol qəzasında başından ağır xəsarət alır. Müalicədən sonra xeyli sağlamlaşır, normal həyata qayıdır. Sosial dərdləri, xalqın it günündə yaşadığını,rayon rəhbərliyinin özbaşınalığını, utanmadan xalqa ağ yalanlar sırıdığını, hətta prezidenti aldatdıqlarını bütün çılpaqlığı ilə aramsız ifşa edən Ədalətdir: "... hələ icra başçısı utanmaz-utanmaz yolun qırmızı lentini də kəsdi. Üç-dörd il əvvəl gördüz də Prezident fermer təsərrüfatına baxmaq üçün gəldi. Düz həmin təsərrüfata dönən yoldan 5-6 metr irəliyə kimi asfalt vurdular. Asfalt da nə asfalt, heç bir həftə yerdə qalmadı. Kim kimi aldadır, baş açmaq olmur" (səh27).**

Rayonun başbilənlərini, Ərənlər kəndinin sahib-mənsəblərini, onların xalqa-millətə zidd addımlarını nəzərdə tutaraq Ədalət sözünü belə bitirir: "Bunların hamısı cinayətkardır, quldurdurlar, bizlər isə onların qulları. Bizləri feodalizm qaydaları ilə idarə edirlər" (səh35).

### *Romanda hadisələr inkişaf etdikcə,*

sujet xətti epizoddan-epizoda adladıqca Ədalətin səsi də gurlaşır, tənqid hədəflərini daha sərrast nişan alır və bir əsər boyu Ədalətin haqqa-ədalətə dəstək verən nəfəsinin od-hərarətini daha yaxından duyuruq: "Kasıb evinə bir tikə çörək aparmağın dərdini çəkirsə, eləsi var ki, həyətində ceyran, ayı, pələng, daha nə bilim nə saxlayır. O heyvanlara bir günə çəkilən xərc bizim altıaylıq əmək haqqımızdır. Maraqlıdır ki, heç kim də haqqını tələb etmir, it əzabını çəkməyi qəbul edir, amma danışmağa qorxur... İnsanlarımız heç vaxt belə məğmun olmayıblar. Yanımızda haqqı danışanın birini sürüyüb həbs edirlər, amma onu müdafiə etməyə kişiliyimiz çatmır" (səh44). "Qədir, cəbhədə, döyüşlərdə Bayramın, İmanın kəl boyda oğlanlarını soruşan olmadı ki? Hələ Mərəzin..." (səh 89). "-Ata 1-ci müharibənin, oğul (balası Pərvizi nəzərdə tutur-M.X) 2-ci müharibənin qazisi oldu və hər ikimiz də qolumuzdan yaralandıq. Oğlum, şükür ki, qolunu kəsməyiblər, zədəli olsa da yerindədir" (səh-1270. bu səs də Ədalətin haqq səsidir. Bu səs o zaman göylərə bülənd olur, yerləri o zaman silkələyir ki, Mərəz Nərmini şəhid kimi qəbul etmir, Nərminin şəhidliyini şübhə altına alır: "Sən, sən, sən nə vicdansız adamsan! Sənin kimi insanlar haradan və nədən törənir? Nərminin şəhid olmadığını deyirsən:Məgər insan tək güllə yarasından, mərmi qəlpəsindənmi şəhid olur? Bəs nahaq sözə, ədalətsiz hərəkətə qurban gedən, hər addımda qudurmuş məmurların tənəsilə üzləşən, balasına bir tikə çörək gətirə bilməyib bütün gecəni göz yaşında boğulan insanlar? Onlar şəhid deyilmi? Bəs bir tikə çörək üçün Rusiyanın çöllərinə düşən, bu günə kimi öldüsü-qaldısı bilinməyən Cəmil və onun kimi on minlərlə insanlar? Bəs balalarını dolandırmaq üçün gecə-gündüz qul kimi işləyən, imkansızlıq üzündən balasını müalicə edə bilmədiyi üçün onu əbədi itirən, rüşvət hesabına oğlanlarını evində gizlədən şərəfsizlərlə müqayisədə tək oğlunu, yeganə varisini Vətən yolunda müharibəyə göndərən, sonda isə çiyinlərində onu məzara aparan, ana şəhid deyilmi? Bəs bizlər, mənim kimi həyatını cəhənnəm əzabında yaşayan milyonlar şəhid deyilmi?! (səh-139-140). Ədalətin ürəkyandıran, qandonduran qəzəbli-nifrətli səsinə çadırda molla susdu, oxunan yasinlər kəsildi, çadır boşaldı, hamı çölə axışdı. Ədalət isə susmur. Beynini qarışdıran cümlələri güllə kimi Mərəzin üstünə yağdırırdı: "Səni və sənin kimiləri puldan, var-dövlətdən, vəzifədəkilərə yaltaqlanmaqdan başqa heçnə maraqlandırmır.Özünü kənddə hörmətli adam sayırsan. Bilirsən camaat sənə niyə hörmət edir? Deyim biləsən, insanlar sənin şərindən, xətandan... kənarda qalmaq üçün üzünə gülürlər. Bunu başa düşürsən?

*...Şəhidi (Nərmin xanımın oğlu Babək nəzərdə tutulur-M.X) dəfnə aparanda qəbirstanlığa kimi maşınla gəldin. Niyə, əyinbaşın palçığa batardı? Yağış altında,göz yaşı içində mafənin arxasıyca gedən camaatdan heç utanmadın?!(səh.140)*

### *Ədalətin nifrətli-qəzəbli sözləri*

yalnız Mərəzə yox, Ərənlər kəndinin ixtiyar sahiblərinə-Bayrama, İmana və habelə ortada yeyib qıraqda gəzən qudurğan və harınlara, oferist və maxinatorlara tuşlanıb. Bu ifşada, bu ittihamda onların da payı var.

***Yazıçı Qafar Cəfərli romanda "tanrının göz yaşları" ifadəsini simvol, obraz səviyyəsinə qaldırır-təmizliyin-saflığın simvolu, büllurluğun-şəffaflığın simvolu, bakirəliyin-paklığın simvolu, xeyirin-uğurun simvolu, xeyirxahların və xeyirxahlıqların simvolu. Elə bir simvol var ki, həm cismani gücə malikdir, həm də mənəvi gücə, həm zahiri təmizləyir, həm də batini!Təmizləyir pal-altarlardan, kiri-kərməni, üst-başlardan biti-birəni. Təmizləyir batindən iblisliyi-xəbisliyi. Pası-hisi, paxıllığı-dağallığı, kini-küdurəti, şeytanlığı-bədgümanlığı... Matəm saxlayır Allahın göz yaşları həm dünyanı vaxtsız tərk edən peyğəmbərsifətli bəndələrinə, həm də vətən yolunda həlak olan yurd şəhidlərinə, bəzən də məətəəl qalır bəndələrinin nankorluğuna, insaf-mərhəmətdən uzaq düşdüklərinə, xəlq etdiklərinin vəhşət-dəhşətlərinə. "Tanrı da halımıza ağlayırdı.Tanrının da Nərmin adlı bir qadının və ailəsinin bu dünyada çəkdiyi əzablara dözümü bitmişdi. Tanrı da dözə bilmir özünün xəlq etdiyi insanların törətdiyi vəhşiliklərə. Amma sən Mərəz və sənin kimilər bu zülmü rahatlıqla edirsiniz. Niyə? Sən insan deyilsən. Ətrafındakı bu qədər ağrı-acılara necə biganə qala bilirsən? Bütün bunlara görə ürəyin heç ağrımır? Onun, sağa əlini göyə qaldırdı,-səbri böyükdür, amma səbirsiz deyil. Tanrını qəzəbindən heç qorxmursan?(səh-140-141). Bu sözləri deyən Ədalətin içi yanırdı.Yanırdı şəhid ailəsinə. Yanırdı ki, axı Allahın bəndələri insan matəminə, insan ağrı-acılarına niyə biganədir, niyə laqeyddirlər? "Ey böyük Tanrı! Ey böyük Allah! Insanlar daha səndən yox, xəlq etdiyin bəndələrdən qorxurlar. İnsanlar daha sənə yox, bəndələrinə sitayiş edirlər. Birdə çoxallahlılıqdır, deyim biləsən. Insanlar sənə yalandan and içər, bəndələrinə yox... Heç kimdən, hətta səndən belə qorxmayan məmurlar haram buyurduğun çörəyi rahatlıqla yeyib üstündən su da içirlər. Bir tikə halal çörəyi isə məzlumların burunlarından gətirirlər. Sən buna görəmi bizi xəlq etdin? Bütün bu haqsızlıqlar, ədalətsizliklər gözünün qabağında baş vermirmi?...Sənin mövcudluğuna şübhə edirəm. Adın var, amma özün yoxsan. Olsaydın, bu zülmə dözməzdin... Daha inanmıram sənə,inana bilmirəm, başa düşürsən, inana bilmirəm"(səh-141).***

Güclüdür. Qüvvətlidir. Cazibəli-cəzbedicidir. Yanğıyla-odla-atəşlə doludur Ədalətin bu çıxış monoloqu.Oxucunun içində şübhə oyadır Allaha. Şübhə oyadır Onun böyüklüyük və əzəmətinə, onun insaf və mərhəmətinə, Onun haqq və ədalətinə.

Ədalətin-qazi Ədalətin bu çıxış-monoloqu mənə böyük dramaturqumuz Cəfər Cabbarlının "Od gəlini" pyesindəki Babəkin "Yoxdur Allah, mənəm Allah" monoloqunu xatırlatdı. Hər iki monoloq ruh, patetika baxımdan bir-birinə doğma və yaxındır.

### *Babəkin dəfn mərasiminin*

***təsirli məqamlarındandır cənazənin qabağında həyətə daxil olan bir zabiti Nərmin anaya bir məktub təqdim etməsi.Məktubun müəllifi Babəkdir. O, yaralı olarkən ay işığında bu məktubu anasına ünvanlamış və zabit dostuna vermişdir ki, anama çatdırsın: "Qibləgahım anam. Ermənilərı iti qovan kimi torpağımızdan qovuruq. Oğlun düşmən qarşısından bir addım geri çəkilmədi. Dağlardan, qayalardan Şuşaya hücuma keçdik. Dostlarım cənnətməkan Şuşaya girdilər. Onların qarşısını heç kim kəsə bilməz... Anacan, güllə düz oynağımı dağıtdı. Yeriyə bilmirəm, qan dayanmır... Heyf ki, atamı sənə qovuşdura bilmədim. Atamın üzünü görmədim, balm da məni şəkildən tanıyacaq. Zəhmətini halal et, qibləgahım. Cənnətdə görüşərik. Oğlun Babək.7 noyabr 2020."(səh-122).***

Babəkin şəhid olması Nərmin ananı sevindirirdi. Bu şəhidlik həm də ananı etirazçı, dirənişçi ovqata kökləyirdi. Nə hökümət rəsmiləri ananın qınaq obyektinə, tənqid hədəfinə çevrilirdilər.

Təəccüblənirdi ana Babəkin şəhidliyindən sonra ona gostərilən dəbdəbə və təmtərağa. Halbuki Babək sağ olana qədər yerli hakimiyyətin bir nümayəndəsi belə Nərmin ananın qapısını döyüb məişət şəraiti ilə maraqlanmamışdı:

"...Amma bu təmtərağın heç olmazsa yüzdə birini sağlığında görmək yaxşı olmazdımı? Niyə bir bu cür varlı-karlı ölkədə dilənçi kimi yaşayırıq? Niyə kimlərsə vardövlətinin sayını itirir, itinə-pişiyinə paçka ilə pul xərcləyir, kimlərsə gündəlik bir tikə çörək üçün zülmlərə qatlaşmalı olur?...Mənim suallarım böyük Yaradana və onun yerdəki rəhbərlərinədir. Niyə "qa" deyənin dilini kəsir, "qu" deyənin gözlərini çıxarırlar? Bəli, bunları yerdəki rəhbərlər edirlər."(səh-132). Nərmin ananın sosial etirazları hökümətə, xüsusən yerli icra orqanlarına çağırışları, uca tanrıya səslənişləri Ədalətin, Əziz müəllimin, Kommunist Əmirin və başqalarının dedikləri ilə eynisəciyyəli, eyniməzmunludur.Hamı, hər kəs sosial ədalətsizliklərdən, məmurların özbaşınalığından, laqeydlik və biganəliyindən, xalq-məmur birliyinin, yaxınlığının olmamasından şikayətlənir. Və bu obrazların məmurlar haqqında dediklərindən belə çıxır ki, yoxdur məmləkətdə bir elə məmur ki, xalqa yaşatsın iftixar, qürur. Ədalətli, insaflı bacarıqlı, qayğıkeş məmurlarımız az olsa da, fəxr ediləsi, qürur duyulası, el qeyrətlisi, yurd hünərlisi vətənpərvər oğul və qızlarımız çoxdur, el-obaya başucalığı, üzağlığı gətirən şəhid və qazilərimiz, veteran və döyüşçülərimiz ulduzlar sanı, ulduzlar qədərdir. Ölkə məhz bu hünərvərlərin, bu vətənsevərlərin əzmi və qüdrətilə, çalışqanlığı və fədakarlığı ilə irəli addımlayır, dünənin ətalət və kəsafətindən qurtulur, özünün bəxtiyar və xoşbəxt günlərinin əllərini sıxır.

***Belə xoşbəxt günlərinə qovuşan, belə bəxtiyar yaşayan kəndlərdən biri yazıçının romanının mərkəzinə qoyduğu Ərənlər kəndidir. Azərbaycan coğrafiyasında belə bir kənd yoxdur. Bu, yazıçı təxəyyülünün məhsulu, yazıçı fantaziyasının icadıdır, həm də uğurlu-nurlu icadıdır. Bu söz öz leksik-lüğəti mənasında ululuq, qədimlik, qorxmazlıq, comərdlik, alplıq, qəhrəmanlıq...kimi milli-mənəvi dəyərləri ehtiva edir. Mənşə etibarilə qədim türk sözüdür, pafosludur, poetikdir. Yazıçı müharibə dövrü Azərbaycan kəndlərində cərəyan edən hadisə və əhvalatları Ərənlər kəndinin üzərinə köçürmüşdür. Ərənlər Azərbaycan kəndlərinin ümumiləşdirilmiş və tipikləşdirilmiş obrazı, simasıdır. Ərənlər tamın, bütövün bir parası, bir zərrəsidir. Zərrədə tamı, küli göstərmək, əks etdirmək hünərdir. Yazıçı Qafar Cəfərli romanında bu hünəri göstərmişdir, yəni damlada dəryanı əks etdirə bilmişdir.***

"Tanrının göz yaşları" romanında yazıçı öz romantikasına da qol-qanad vermişdir. Əlbəttə bu romantika mücərrəd-xəyali bir aləmə yox, ünvanı dəqiq məlum bir ölkəyə-Azərbaycana, Azərbaycanın Ərənlər kəndinə qanadlanır. Romanda epiloqəvəzi kimi verilmiş "İyirmi beş ildən sonra" fəsli bizi Ərənlər kəndinin parlaq sabahına, Ərənlər kəndinin sosial-iqtisadi-mədəni yüksəlişinə səyahətə aparır. Heyrət, təəccüb bürüyür oxucunu. Oxucu görür ki, kənd 25 il öncəki geridəqalmış kənd deyil. Burada hər addımbaşı dövlətin qayğısı, diqqəti hiss olunur: kənd qəsəbə statusludur, kənddə bolluq-firavanlıqdır, xoş gün-güzəranlıqdır. Mədəni-maarif ocaqları, baxçalar, məktəblər, xəstəxanalar qapılarını taybatay kəndin üzünə açır. Yollara asfalt döşənib. Evlər su, qaz, elektriklə təmin edilir. Çörək sexləri, ticarət obyektləri işləyir. Maaşlar, pensiyalar vaxtında verilir. Yaşlılar, qazilər, veteranlar pulsuz göndərişlə müalicə və istirahətə göndərilir. İstedadlı gənclərə təhsili davam etdirmək üçün maddi yardım edilir. Kənd camaatı qol-boyundur səadətlə, şəfqətlə, xoşbəxtlik və ülfətlə. Adamlar bir-birini aldatmır, bir-birinə yalan danışmır, birbirinə badalaq atmır... Burada-Ərənlər kəndində nəsillər arasındakı əxlaqi-mənəvi bağlılıq və münasibətlər ürək açır, ruh oxşayır.Köhnə nəslin nümayəndələrilə (Pərviz, Qədir, Fərhad...) yeni nəslin nümayəndələri (Müşfiq, Murad, Tural...) arasındakı görüşlər və səmimi danışıqlar atalar və oğullar varisliyinin qırılmaz və sarsılmazlığının ən bariz, ən əyani görsənişidir.

### *Cavanların ədəb-ərkanı,*

***mərifət-qanacaqları qocaları sevindirir və onlar əmin-yəmindirlər ki, kəndin (habelə millətin-xalqın) gələcəyi məhz bu savadlı-təhsilli-istedadlı gənclərin əlində olacaq. Bu gəncləri dinlədikcə, onlardan zövq aldıqca qocaların köksü sevincdən qabarır və bu sevinci Fərhad kişi dostlarıyla belə bölüşür:-"Bilirsiz, ot kökü üstə bitər. Onların hər ikisinin(Təbriz oğlu Muradı və Qorxmaz oğlu Turalı nəzərdə tutulur-M.X) nəslində Əsəd müəllim. Qeyrət kişi kmi düz, ədalətli, həmişə haqqın tərəfində duran kişilər olub. İndinin özündə də hamı onları böyük sevgi ilə xatırlayır. Düz deyiblər ki, insanı yaşadan əməlləridir. Bu kişilərin nəslindən elə bu cür oğullar da yetişməlidir"(səh 148).***

Ərənlər kəndinin qəbirstanlığı kənd camaatına and yeri, səcdəgahdır, Kəbədir, Mədinədir.

Hər il Novruz bayramında kənd dəstə-dəstə oraya axışır, doğmalarını və habelə Vətən yolunda qurban getmiş, şəhidlik zirvəsində bərqərarlaşmış igidlərin məzarlarını dönə-dönə ziyarət edir, qəbirləri üstündə gül-çiçəklərdən dağlar ucaldırlar. Diqqət çəkəndir ki, şəhidlərini qəbrini daha çox gənclər-cavanlar ziyarətə gəlirlər.Ziyarətçilərin içində şəhidlərin qohum-qardaşları, oğul-uşaqları, nəvə-nəticələri, keçmiş döyüşçü yoldaşları xüsusilə fərqlənirlər. Budur, Cəmil oğlu şəhid Babəkin, şəhid anası Nərmin Miralim qızının qoşa məzarları. Birində oğul yatır, birində ana. Doğmalarıoğulları Cəmil, gəlinləri Vəfa, nəvələri Babək ziyarətə gəlib bu müqəddəsləri güllə-çiçəklə, yüz-yüz iftixar və qürurla! Qəbirləri ziyarətdən sonra kapitan Cəmil qoşa məzarlara, müraciətlə "İcazə ver gedim, qəhrəman şəhidim! Icazə ver gedim, gülüzlü nənəm! Allaha əmanət olun-deyib məzarların önündə təzim etdi"(səh157). Romanın qəbirstanlıq epizodunda da oxucu nəsillər arasındakı mənəvi dəyərlərin sıx-sıx bağlılığını görür və buna qəlbən sevinir. Sevinir ki, yaxşı mütərəqqi ənənələr ölmür, nəsildən-nəsilə ötürülür, yurd birliyi uğrunda mübarizə atadan oğula, oğuldan nəvəyə keçir. Cevinir ki, birinin həyat və döyüş yolu sonrakılara görk-nümunə olur.

***Yazıçının gənc qəhrəmanları: Murad, Tural, Müşfiq, Cəmil Babək ön və arxa cəbhələrdə qalib gəlmiş bir nəslin davamçılarının, yeni Azərbaycanın həqiqi cahillərinin, real qurucularının bədii surətləridir.***

### *"Tanrının göz yaşları"*

romanı mürəkkəbsüjetli, mürəkkəbkomfozisiyalı əsər deyil.Sujet xətti şaxələnmir, yığcam, lakonikdir. Təsvir edilən hadisə və əhvalatlarda bütün kənd iştirak edir, bütün kənd hadisələrin içindədir. Elə hadisələri də oxusu kənd camaatının dilindən eşidir.Romanda üz-üzə dayanan, mənafeləri toqquşan iki cəbhə, iki qütb yoxdur."Kənd üz-üzədir MÜHİTlə, ZƏMANƏilə. Kənd camaatı etirazlanır MÜHİTin hoqqabazlıq vəyaramazlıqlarına-Kənd camaatı protesto edir MÜHİTin sosial-iqtisadi çətinliklərinə. Kənd camaatı dirənişçidir MÜHİTin meydan açdığı, yaşıllıq yandırdığı rüşvətxorluğa, saxtakarlığa, talançılığa, yalançılığa. Kənd camaatı hiddətlənir MÜHİTin işsizlik bəlasına, zavod-fabriklərin yoxluğuna, lay-divar oğulların ayaq üstdə qocalmasınavə bir parça çörək naminə Rusiya çöllərinə səpələnməsinə. Kənd camaatı qəzəblidir mədəni-maarif ocaqlarının yerlə yeksan edilməsinə, elmin, təhsil və səhiyyənin çöküşünə. Deməli kənd camaatı daha qorxulu bir düşmənlə-MÜHİTlə əlbəyaxadadır, MÜHÜTlə savaşda, dava-dalaşdadır. Əsərin sonunda məlun olur ki, savaşdan kənd camaatı (xalq) qazanır, kənd camaatı faydalanır. Kənd qalib gəlir. Bu haqqın-ədalətin qələbəsi, bu, xeyrin-xeyirxahlıqların zəfəridir. Romanın son cümləsi də bizim fikrimizin təsdiqi kimi səslənir: "Təbiətdəki əsrarəngiz gözəlliklə insanların əhvalları bir-birini tamamlayırdı"(səh157).

Qafar Cəfərlinin "Tanrının göz yaşları" romanının dili axıcı-rəvandır, emosional-ifadəlidir, canlı-diridir, dilin normativ vahidləri̇lə (təsbeh və metafozalarla, epitet və metonimiyalarla mübaliğə və litotalarla...) və habelə xalq təfəkkürünün məhsulu frazeoloji birləşmələrlə (ilk poetik nümunələrlə) zəngindir.

Romandakı hadisələr Cənub bölgəsində-əsasən talışlar yaşayan coğrafiyada cərəyan etdiyi üçün obrazların dilində (daha çox Ədalətin nitqində) talışdilli söz-ifadə və cümlələrə də təsadüf edilir-merdon həmə mardin; bə şaka pul lazime; im merd keyfdi, keyf... Bu tipli cümlələr romanın leksik bazasını daha da zənginləşdirir, xəlqilik və millilik ruhunu qədərincə gücləndirir.

Qafar Cəfərlinin bu sanballı əsərindən çıxan ədəbi-bədii nəticə imkan verir deyək ki:

"Tanrının göz yaşları" Azərbaycan xalqının dərd və ağrılarının ehtiyac və məhrumiyyətlərinin göz yaşı romanıdır.

"Tanrının göz yaşları" bütün şəhid analarının, bütün şəhid ailələrinin göylərə-yerlərə sığmayan fəryad-amanıdır.

"Tanrının göz yaşları" Azərbaycan azadlığı uğrunda sağlamlığını itirən qəhrəman qazilərimizə ucaldılan SÖZ, RUH abidəsidir.

"Tanrının göz yaşları" arxa cəbhədə xalqa-millətə laqeydlik-biganəlik sərgiləyən və övladlarını müharibədən yayındıran "vətənpərvər" məmurlara yazıçının sarsıdıcı zərbəsidir.

"Tanrının göz yaşları" bu gün də dünyanı qan dənizində boğmağa can atan müharibə hərislərinə bir müharibə veteranının barmaq hədəsi, bir humanist yazıçının vətəndaş mövqeyi, vətəndaş iradəsidir.

**İdeya-bədii yükü sanballı, məna-məzmunca tutumlu bir əsər ortalığa qoyduğu üçün yazıçı həmkarıma çox-çox təşəkkürlər, uzun-uzun ömürlər!**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Kür-Araz ovalığındakı Salyan

**Azərbaycanın Aran iqtisadi rayonuna aid olan Salyanın bugününü, dünənini, bütövlükdə tarixini göz önünə gətirəndə bu bölgənin özünəməxsus inkişaf yolu diqqəti çəkir. Belə ki, bu rayon inzibati ərazi vahidi olana qədər daha çox Aran bölgəsi kimi heyvandarlıqla və bir də dənizkənarı ərazilərdən balıqçılıqla məşğul olma ənənəsini özündə yaşadıb. Bu fikirləri söyləyərkən tarixi mənbələrə üz tutmağa məcbur oluruq. Çünki mənbələrdən aydın şəkildə bəlli olur ki, Salyan ərazisindən qədim karvan yolu da keçmiş və bu da Kür çayının imkanlarından istifadə etməyə müəyyən mənada şərait yaratmışdır. Bugünkü Salyan ərazisi bölgəyə üz tutanlar üçün bir məsələdə də yardımçı olubdur.**

Dilçilərin, alimlərin fikrinə görə, elə Kür çayının üzərindən ”bərə”, ”sal” kimi vasitələrdən istifadə etməklə ötüb keçib getdiklərindən sonda bu söz ərazisinin adında da özünü tapıb. Və nəticədə sahilə yan alan ”sal”ın bir mənası da Salyan sözü ortaya çıxıbdı. Təbii ki, bu bir elmi fərziyyədi. Amma bütün hallarda Salyanın Kür çayının və Xəzər dənizinin sahilində yer alması bu sözə müəyyən status verir. Sovet dönəmindən öncəsi tarixlərdə müxtəlif hərbi, siyasi gərginliklər caynağında olmuş digər xanlıqlarımız kimi, Salyanın da tarixində elə zaman kəsikləri var ki, bu da həmin böyük tariximizin bir hissəsini təşkil edir. Xüsusilə, Salyan və Quba xanlıqlarının birləşdirilməsi əsasında mərkəz kimi Xudat şəhərinin seçilməsi də bir tarixi gerçəklikdir.

Bəlli tarixi faktlara təbii ki, həmişə istinad etmək, üz tutmaq, onu yaddaşda yeniləmək hər bir Azərbaycan vətəndaşının vəzifə və hüquqlarına daxil olan bir məsələdir. Ona görə də Regionların İnkişafına Dair Dövlət Proqramının bir maddəsində ifadə olunan məqam xüsusilə diqqəti çəkir. Bu da bölgənin, yəni regionun tarixi coğrafiyası, ekologiyası və bütövlükdə bəlli təbiəti barəsində həm ölkə əhalisinin, həm də Azərbaycana səfər edən turistlərin məlumatlandırılması üçün önəmli bir məqamdır. Bax, bu mənada Azərbaycan tarixində Salyan adlı coğrafiyanın mövcudluğu və bu mövcudluğun içərisindəki gerçəkliklər hər zaman mənim diqqətimi özümə çəkib. Xüsusilə bu ərazidə doğulmuş Azərbaycanın çox önəmli şəxslərinin də həyat tarixçəsi bu məsələdə mənim üçün əsas nüanslardan sayılıbdır. Ona görə də Salyanın tarixi abidələri və tarixi şəxsiyyətləri bu gün də həyatımızda və tariximizdə öz önəmini qoruyub saxlamaqdadır.



Təəssüf ki, Sovet dönəmində Azərbaycanın digər bölgələri kimi, Salyanda da tarixi gerçəklikləri yaşatmağa, təbliğ etməyə, xalqın kimliyini dünyaya bəyan etməyə o qədər də imkan və şərait yaradılmırdı. Əksinə, adamlar daha çox təsərrüfat həyatına bağlanırdı. İnsanları yaşadıqları bölgənin tarixindən daha çox bu bölgənin məhsulları və onun istehsalı maraqlandırırdı. Düşünülmüş, planlı şəkildə gerçəkləşdirilən bu siyasət öz növbəsində unutqanlığa, soy kökdən uzaq düşməyə aparırdı.

Azərbaycan müstəqillik əldə etdikdən sonra digər ərazilərdə olduğu kimi, Salyanda da həyata, tarixə münasibət kökündən dəyişdi. Kür-Araz ovalığında yerləşən və Muğan və Cənub-Şərqi Şirvan düzlərində formalaşmış Salyan rayonu ümumi yaşayış məntəqələrinin sayı 16-dan çoxdur. Bu yaşayış məntəqələri isə həm özünün ərazisi və əhalisinin sayı baxımından diqqəti çəkir. Bu gün həmin məntəqələrə çəkilən yollar, yaradılan infrastruktur Sovet dönəminkindən kifayət qədər fərqlənir. Bir zamanlar Azərbaycanın böyük pambıqçılıq rayonlarından sayılan Salyanda 3 pambıq təmizləmə məntəqəsi fəaliyyət göstərirdi. Bu da adamların ağır əməyi nəticəsində sahənin inkişaf etdirilməsinə olan planlı idarəetmənin nəticəsi idi. Yəni, Azərbaycanın Aran bölgələrində yetişdirilən pambıq öz məhsuldarlığı ilə yanaşı, ağır əmək sahəsi olması ilə həmişə ölkənin ziyalı təbəqəsini düşündürmüşdü.

Bu gün də Salyanda kənd təsərrüfatının inkişaf etdirilməsi əsas perspektivlərdən biri sayılır. Bu regionda dənli bitkilər, bostan-tərəvəz məhsulları, üzüm, pambıq və mal-davar saxlanılması məsələləri əsas aparıcı sahələrdəndir. Demək olar ki, Salyanda istehsal edilən kənd təsərrüfatı məhsulları bu ərazidə yaşayan sakinlərlə yanaşı, ölkə bazarlarına da çıxarılır. Yəni, Azərbaycanın ümumi istehsal göstəriciləri arasında Salyanın da öz yeri var. Əgər həmin göstəricilərə diqqət yetirsək, onda görərik ki, bu gün Salyanda kənd təsərrüfatının əsas sahələrindən olan pambıqçılıq, taxılçılıq, tərəvəzçilik və heyvandarlığın inkişaf etdirilərək uğurlu nəticələrə çatdırılmasında sahibkarların, iş adamlarının xidmətləri danılmazdır. Necə deyərlər, bu coğrafiyanın xarakter və xüsusiyyətlərini yaxşı bilən yerli sahibkarlar, fermerlər və iş adamları Salyanda üzümçülüyün, pambıq istehsalının, subtropik meyvə bağlarının genişlənməsinə demək olar ki, böyük diqqət yetirməklə, həm də kapital yatırımı edirlər. Bir az da açıq ifadə etsək, bu sahələrə maliyyə xərcləyən həmin adamlar öncədən nə əldə edəcəklərini də artıq bilirlər.

Doğrudur, Salyanda aparıcı iqtisadi sahə kənd təsərrüfatı olsa da, ancaq sənayenin də müəyyən sahələri bu bölgədə zaman-zaman inkişaf etdirilib və bu gün də həmin proses davam etdirilir. Artıq rayonda əvvəlcə qeyd etdiyimiz kimi, Pambıqtəmizləmə Məntəqələri, Kərpic İstehsalı Zavodu, Plastik Kütlə Emalı Müəssisəsi uğurlu nəticələr əldə etməkdədir. Salyanda istehsal edilən şirələr, sərinləşdirici içkilər, həmçinin ”Salyan pivəsi” alıcıların rəğbətini qazanıb. Demək olar ki, Azərbaycanın əksər bölgələrində və satış nöqtələrində Salyanda istehsal edilmiş məhsullarla qarşılaşmaq artıq adi həyat tərzimizdir.

Doğrudur, Sovet dönəmində Salyanda ən böyük istehsal sahələrindən biri balıqyetişdirmə idi. Hətta burada yetişdirilən balıqlar digər Sovet respublikalarına da göndərilirdi. Təəssüf ki, müstəqilliyimizin ilk illərində bu məsələ demək olar ki, başlı başına buraxıldı. Həmin təsərrüfat sahəsi acınacaqlı duruma düşdü. Bu gün isə yenidən rayonda balıqçılıq təsərrüfatı bərpa olunub. Azərbaycanın bir çox bölgələrində Salyanda yetişdirilən balıqların satış məntəqələri yaradılıb. Hər kəs üçün maraqlı olan və diqqətini çəkən ağ balıq və nərə balığı məhz Salyandakı balıqçılıq təsərrüfatlarında yetişdirilir. Hətta ekspertlərin fikrinə görə, həmin balıqlar dad və keyfiyyətinə görə dünyada liderlik edir. Təbii ki, bu balıqların kürüsü də həmin liderlərin sırasındadır. Ona görə də Salyanda istehsal olunan qara kürü dünya bazarında liderlik edir.




**Bu gün Salyan rayonun mənzərəsi Sovet dönəmini yaddaşlardan silməkdədir. Aparılan tikinti-quruculuq, abadlıq işləri, yaradılan yeni infrastruktur rayonun görkəmini kökündən dəyişib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu vəzifələri Salyanda həyata keçirməsində rəhbərlik edən rayon icra hakimiyyəti, eləcə də rayon icra başçısı Sevindik Hətəmovun öz komandası ilə birlikdə rayonda yaratdığı işgüzar mühit bugünkü nailiyyətlərin əsasını təşkil edir. Hər kəs öz işi ilə və həm də məsuliyyətlə məşğul olur. Aparılan bu yenilənmə rayona kənardan diqqəti də artırır. Adamlar Salyanın tarixi abidələrini görməyə, bu bölgənin nemətlərini dadmağa həvəslə gəlirlər. Təbii ki, Salyanın tarixini, onun təhsil, səhşiyyə, mədəniyyət sahəsindəki inkişaf perspektivlərini daha köklü şəkildə istiqamətləndirmək, ortaya çıxarmaq üçün hələ çox işlər görülməlidir. Bu təkcə Salyan üçün yox, bütövlükdə Azərbaycan üçün önəmli bir məsələdir. Yəqin ki, əlaqədar təşkilatlar ölkə prezidentinin tapşırığına uyğun olaraq Salyanın daha gözəl növrağı üçün tam ciddiyyəti və gücləri ilə çalışacaqlar.**

**Əbülfət MƏDƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# HALALLIĞIYLA UCALAN İNSAN - HEYDƏR ZEYNALOĞLU



Günel Natiq

**Azərbaycan Radiosu nəhəng sənət məbədidir. Bu məbəddən gəlib-keçmiş qələm adamlarının sırasında ömrünün 44 ilini radioya həsr etmiş Əməkdar mədəniyyət işçisi və Qızıl qələm mükafatı laureatı Heydər Zeynaloğlunun da imzası var.**

...Qayğılı gözlərindən nigarançılıq oxunan bəstəboy bir adam işə tələsir. Küləkli bir gündür, amma o, küləyə qarşı gedir, necə ki, yolundakı səddlərin üstünə getmiş, iradə və əzmiylə maneələri yenmişdi. Uşaqlıq illərində çətinliklər yaşayan bu adam dərdlərini heç kimə bəlli etmədən öz ayaqları üstündə durmağı öyrənmişdi. Bəlkə də, Heydər Zeynaloğlunun ədəbiyyat sevgisi, içindəki dərdləri dilləndirmək istəyindən baş alıb gəlirdi. ”Maqnitafon”, ”Sahil adamları”, ”Ömrün bir günü” hekayələri, ”Torpağı sanı yaşa” povesti onu istedadlı, dilin zənginliyinə bələd olan bir nasir kimi tanıtmışdı. Sonra tale onu Azərbaycan Radiosuna gətirmişdi. O zamanlar universiteti yenicə bitirmiş bir gəncdi. Neft Daşlarından hazırladığı reportaj o qədər bəyənilmişdi ki, onu birbaşa ”Xəbərlər” redaksiyasına işə götürmüşdülər. Heydər Zeynaloğlu tez bir zamanda ”Xəbərlər”in dilini mənimsəmiş və özünəməxsus dəqiqliklə operativ reportajlar hazırlamağa başlamışdı. Sanki ədəbiyyata olan sevgi radioya olan hüsn- rəğbətlə qarşılaşmış və bu mübarizədən sonuncu qalib çıxmışdı. Oxucular üçün itki, dinləyicilər üçün mənəvi qazanc idi. Gözəl bir nasir ədəbiyyatdan çəkilib getsə də, onun yerini peşəkar bir jurnalist tutmuşdu. Uzun illər boyunca radioya təmənnasız sevgisini işiylə, əməliylə, insanlığı, halallığıyla ifadə etmişdi.

Azərbaycan Radiosunda Heydər Zeynaloğluyla bərabər komissiya heyətində çalışmış şair-publisist Qorxmaz Şıxalıoğlunun dediklərindən:

***”Mən Heydər müəllimi radioya gəlməzdən əvvəl tanıyırdım. Televiziyanın ”İctimai siyasi proqramlar” redaksiyasında işləyirdim. Təxminən 1992-ci il idi. Həmin vaxt Heydər müəllimi bizim redaksiyaya baş redaktor təyin etdilər. Adətən radioda işləyənlər televiziyaya keçməyi arzulayırlar. Amma Heydər müəllim radionu televiziyanın şan-şöhrətindən üstün tutub ”Məni bura təyin etsələr də, radioda işləmək istəyirəm, ora mənə çox doğmadır” deyirdi. Doğrudan da televiziyada çox işləmədi, bir neçə aydan sonra radioya qayıtdı və ən əsas məsuliyyətli redaksiya olan ”Xəbərlər”də uzun illər baş redaktor kimi çalışdı.***

Sonralar komissiya heyətində bərabər çalışır, bir otaqda otururduq. Heydər müəllim öz işinin ustası, peşəkarı idi, gözəl qələmi vardı. Hər şeydən əvvəl isə o, təmiz mənəviyyatı, əxlaqı ilə seçilən insan idi. Ona görə hamının hörmətini qazanmışdı. İnsanın ən gözəl xüsusiyyəti məsuliyyət hissidir. Heydər müəllimdə özünə, işinə hörmət vardı, ona görə gördüyü işə olduqca məsuliyyətlə yanaşırdı. Düz adam idi, onun mayası düzlükdən yoğrulmuşdu, heç vaxt nahaq söz deyə bilməzdi. Kollektivdə yüzlərlə adam var, kimi dindirsəz, onun haqqında ancaq gözəl sözlər deyəcək”.

Heydər Zeynaloğlunun bədii yaradıcılığını söz sərrafları yüksək qiymətləndirirdilər. Və xoş sözlərin içində həmişə bir təəssüf işartısı da olurdu. Onun şəxsində gözəl bir nasiri itirmişdilər. Heydər Zeynaloğlunun ilk hekayələri Seyran Səxavətin də nəzərindən yayınmamış, ustad yazıçının dəyərini qazanmışdı. Seyran müəllim Heydər Zeynaloğlunu belə xatırlayır:

”İnsanın həyatında, ömründə- günündə ünsiyyətdə olduğu elə insanlar var ki, onlar heç vaxt xatirəyə çevrilmirlər. Mənim elə dostlarımdan biri də Heydər idi. Çox yaxın dost idik. Mən onu həmişə yaxşı görmüşəm, diri görmüşəm, tərbiyəli, əxlaqlı görmüşəm.

## Qısa zaman kəsiyində

bir-birimizə elə ərkimiz yarandı ki, bu günün cavanları bundan sonra 50 il də dost olsalar, bir- birinə elə ərki olmayacaq. Ərk- qarşılıqlı güzəştdən, qarşılıqlı məhəbbətdən, qarşılıqlı darıxmadan yaranan bir ovqatdır. Heydər tez tez redaksiyaya gəlirdi, mən onu çap edirdim, bu onun halal haqqıydı. Mən onda sərtlik görmədim, bir az da mələk kimi adamdı.

***Heydər Zeynaloğlu yaradıcılığına gəlincə, onun hikkəsiz, təmənnasız bir həyat sevgisi vardı. Və bu özünəməxsus idi. Onun hissləri ildırım kimi çaxmırdı, bütün bunlar onun bütün yazılarında, cümlələrində, dialoqlarında, obrazların biri- birinə olan münasibətində duyulurdu”.***

Heydər müəllimin bədii yaradıcılıqdan uzaqlaşmasının səbəbi vardı. Radio davamlı axtarış, yeni ideyalar, tələb edir. Xüsusilə ”Xəbərlər” kimi daim yeniləşən informasiya axınını lazimi məcraya yönəldən bir redaksiyaya rəhbərlik etmək heç də asan iş deyildi.

Bu iş səhər erkəndən günün sonunadək qaynar, gərgin iş rejimi tələb edirdi. Ən son məlumatları, informasiyaları saf çürük edib dinləyicilərə ən operativ şəkildə çatdırmaq üçün fədakar baş redaktor ilk xəbərlər bülleteninin efirə getdiyi andan, sonuncu bülleten efirə verilənədək



redaksiyada öz yerində olurdu. Gününün çoxu elə işdə keçirdi. Amma bir dəfə də olsun giley-güzar etməz, bütün vaxtını radioya həsr etməkdən zövq alardı.

”Ulduz” jurnalının baş redaktoru, şair Qulu Ağsəsin fəaliyyətinin bir neçə ili Azərbaycan Radiosuyla bağlı olub. Onu radioya cəlb edənlərin arasında ustad qələm adamı Heydər Zeynaloğlu da vardı:

”Mən vaxtilə Azərbaycan radiosuna dəvət alanda çox da tərəddüd eləmədim, çünki radioda yazılarından və bəzilərini isə şəxsən tanıdığım qələm sahibləri çalışırdı. Eldar Baxış, Vaqif Bayatlı, Mövlud Süleymanlı, Məmməd Oruc, İsa İsmayılzadə, Saday Budaqlı, Əhməd Oğuz və s.

Qiyabi tanıdığım adamların içində Heydər Zeynaloğlu da vardı. Mən çox-çox illər qabaq ”Ulduz” jurnalında onun hekayələrini oxumuşdum. Radioda Heydər müəllimlə şəxsən tanış olduq. Mən işinə bu qədər bağlı tək- tük adamlar görmüşəm həyatda. Son dərəcə təvazökar, abırlı, ləyaqətli bir insan idi.

1996-cı ildə televiziyanın pavilyonunda onun 50 illik yubileyi keçirildi. Heydər müəllimin şəninə çox xoş sözlər deyildi. O da utana utana o sözlərə qulaq asırdı. Görünürdü ki, təriflərdən çox sıxılır. Orda mənə də söz verildi. Dedim ki, Heydər müəllim bütün həyatını xəbərlərə həsr edib. Daim gərgin işdə çalışdığından xeyli yaşlı görünür. Və radio üçün xidmətləri öz qiymətini almayıb. Heydər müəllim mənə yüngülcə etiraz edib dedi ki, o bunu hansısa mükafat üçün etmir. Amma mən yenə o fikirdəyəm ki, bütün dövrlərdə elə insanlar var- namuslu, istedadlı, ləyaqətli və utancaq- onlar nə sağlığında, nə də ölümündən sonra öz qiymətlərini almırlar. Mən istərdim ki, Heydər müəllim həmişə xatırlansın, anılsın. Ancaq bir şeyə görə- o buna layiqdir- öz həyatıyla, yaradıcılığıyla, sənətinə olan məşəqqətli sevgisiylə...”

## Azərbaycan radiosu

***Heydər müəllimin taleyində həm də ona görə böyük rol oynamışdı ki, o, ömür-gün yoldaşı Zəhra xanımla bu doğma məkanda tanış olmuşdu. Örnək bir ailə idilər. Bir birinə hörmət duyan ata, ana və üç gözəl övlad: Tural, Anar və Aysel. Anar həkimdir, Aysel kinoşünas. Tural isə əvvəlcə iqtisadçı olmağa qərar versə də, Heydər müəllimin öz övladları arasında davamçısının görmək istəyi onu jurnalistikaya gətirmişdi. Tural atasının onun həm sənət, həm də həyat müəllimi olduğunu deyir:***

”Ata hər bir övlad üçün müqəddəsdir. Atam mənə, qardaşıma və bacıma ilk növbədə dost olub. Böyük qardaş olub, sirdaş olub. Adətən övladlar anaları ilə məsləhətləşir, sirlərini analarıyla bölüşür, bizdə tam əksinə idi. Yadıma gəlməzdi ki, atam bizə acıqlansın, ya əl qaldırsın. Bizə həmişə dürüst olmağı, heç vaxt haram tikəyə baxmamağı, haram tikəyə əl uzatmamağı tövsiyə edirdi. Deyirdi, çalışın heç kimin yanında gözükölgəli olmayın. Şükürlər olsun ki, atamızın təmiz adını qoruyub saxlamışıq, bu bizim üçün həyatda ən böyük hədiyyədir”.

**Azərbaycan Radiosunun xatirələri çözələnəndə hər zaman bu tablo da göz önünə gələcək: nigarançılığı gözlərindən oxunan bəstəboy bir adam radionun binasına tələsir. Səhərin şəfəqləri hələ binanın üzərindən çəkilməsə də, o, gərgin və narahatdır, çünki hər dəqiqə onun üçün çox dəyərli idi. Çünki efir onun üçün ali və müqəddəs dəyərlərlə ölçülürdü. Çünki o, radio uğrunda şan- şöhrətdən imtina edib bir təmiz ad qazanmışdı- peşəkar radio jurnalisti Heydər Zeynaloğlu.**



*Əhməd Zəkəriyyə (Misir)*

**Qahirə Universitetində Ərəb dili və ədəbiyyatı ixtisası üzrə təhsil alıb. Misirdə və Avropada bir çox şeir mükafatına layiq görülüb. "Mahmud Dərviş Muzeyi Şeir Mükafatı"nın laureatıdır. Həyat yoldaşı Mələk Dəmir Özdəmir ilə birgə Türkiyə ədəbiyyatından 10 kitabı ərəb dilinə tərcümə edib. "Sanki eyvan zirzəmidədir" adlı şeir kitabını çapa hazırlayır.**

## Başqa bir dildə

**I**

**Başqa dildə bəsit sözlər öyrənəndə onlar haqqında
yenidən düşünmək imkanın olur:
"Yataq", "divar", "ev", "küçə", "məhəllə",
"şəhər..."
Heç haçansa "şəhər" sözü barədə
fikirləşmisənmi?
Bir səhər İstanbuldakı evinin hamamında
üzünü qırxarkən
və Əbdülvəhabın "Bütün ölkələr Vətənimdir"
mahnısını dilinin altında mızıldanarkən?**

**II**

**"Şəhər" işğalçıların xəyalları qədər nəhayətsiz
bir sözdür,
şəhərin ucqar və gözdən uzaq məhəllələri,
şəhərin mühafizəkar küçələri və gecə həyatı...
Müqavimət göstərən şəhər,
şəhərin şairləri,
o şəhərdən bu şəhərə köçənlərin nəğmələri...**

**III**

**Yatmazdan qabaq gündəliyinə yaza bilərsən:
"İnqilabçıların bir şəhərdən
başqa bir şəhərə yürüş etdiyini gördüm".
Və yenə yaza bilərsən:
bir cənub şəhərindəki sevdiyin qadını
və ucsuz-bucaqsız şəhərin səni necə özünə çəkdiyini
sonra da necə udduğunu...**

**Sonra hansısa bir şəhərdə
o şəhərin dilini əməllicə öyrənəndən sonra,
artıq əlüstü gündəliyində qeyd edə bilərsən:
"Bax, həyatımı bu qədər asanca itirdim..."**

## O səhər heç kəsə demədiyim sözlər...

**I**

**Zəif anlarımı havaya tolazlamaq istəyirəm.
Yazmaq istəyirəm o səhər
heç kəsə demədiyim sözləri.
Yad bir şəhərdə,
mərkəzi parkda
gözəl havalardan danışanda
ölkəmin eynən
Nazim Hikmətin Vətənindən aldığı
sonuncu köynək kimi
parça-parça bölünəcəyi təhlükəsindən
yazmaq istəyirəm.
İyul barədə yazmaq istəyirəm...
Sarı rənglə bağlı qorxularımı
və yad bir şəhərdə
başqa xalqların mahnılarını dinləyərkən
sürətlə əriyib axan gündüzləri
qələmə almaq istəyirəm...**

**II**

**Dünyaya bir neçə dəfə gəlmişəm,
hər dəfə də apreldə göz açıram dünyaya.
Nilin və Boğazın sahilində,
Səlahəddin qalasının,
Qalata qülləsinin yanında anadan oldum.
Hər dəfə də bahar qulağıma pıçıldayırdı:
yad şəhərdə zaman insanın şəxsiyyət vəsiqəsi olar,
və hətta bir ağacla dost da ola bilərsən,.
Əyüb Sultandan Balatya tərəf gedərkən
adını havaya tullayarsan,
sonra Ədirnəqapıda qalanda
kürəyini söykəyərkən
Konstantinopolun qədim qala sütunlarına
və özündən soruşarsan ki:
sultanın ordusu bu qapıdan girməsəydi
neyləyəcəkdin?**

**III**

**Balatada, yeni ad axtarmaqla vaxt itirmə,
taxta evlərə qarşı meylinlə dost ol,
nə bilmək olar,
bəlkə, bu qədim pəncərələrin arxasında
bir qadın oturub şərab içir,
Səndə elə cəsarət nə gəzir ki,
qələmə aldığın hekayədə
onun kimi öz həyatını
necə varsa elə də yazasan?**

**Tərcümə edən:
Fərid Hüseyn**

# Güclü külək əsəcək, qar yağacaq

**Azərbaycanda sabaha gözlənilən gözlənilən hava şəraiti açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən Adalet.az-a verilən məlumata görə, mayın 7-də Bakıda və Abşeron yarımadasında gün ərzində arabir yağış yağacağı gözlənilir.

Axşam yarımadanın bəzi yerlərində intensiv olacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 11-14° isti, gündüz 15-17° isti, Bakıda gecə 11-13° isti, gündüz 15-17° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 70-75 % olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər saatlarında duman. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclü olacaq.

**Havanın temperaturu gecə 9-14° isti, gündüz 16-21° isti, dağlarda gecə 0-5° isti, gündüz 5-9° isti olacaq.**

# *Aqil Abbas:* "Limit ləğv olunsa, milli komandada nənəm oynayacaq?"

***Millət vəkili Aqil Abbas İdman Araşdırmalar Mərkəzi və ETOPAZ-ın 10 illik yubileyi münasibətilə jurnalistlər arasında keçirilən mini-futbol üzrə Zəfər Kubokunun açılış mərasimindən öncə jurnalistlərin suallarını cavablandırıb.***

***Adalet.az həmin müsahibəni təqdim edir:***

**- Öncə Zəfər Kuboku ilə bağlı fikirlərinizi bilmək maraqlı olardı.**

- Biz xalq, dövlət olaraq, 3 min şəhidimiz, 5-6 min qazimiz və təbii ki, möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə Zəfər Kubokunu qazanmışıq. Sağ olsunlar ki, bu turniri ikinci ildir təşkil edirlər. Artıq ənənə şəklini alır. Jurnalistlərdən ibarət komandalar işğaldan azad olunmuş rayonların adlarını daşıyır. Arzum budur ki, həmin rayonlar öz komandaları ilə Azərbaycan çempionatında iştirak etsinlər. 8 komanda var idi, 2-ni də gətirib, birtəhər 10 komanda düzəltdilər. Amma 1992-ci ildə - müharibənin şıdırğı vaxtında Premyer Liqada 18 klub oynayırdı.

Nə pulumuz var idi, nə şəraitimiz. Top da tapılmırdı. Buts yox idi, ayaqyalın oynayırdıq. İndi isə bu cür iqtisadiyyatı olan dövlətin elitada 8 komandasının olması normal hal deyil. İnanıram ki, arzum həyata keçəcək. İşğaldan azad olunmuş ərazilərdə idman kompleksləri tikilir. Məsələn, Ağdamda 15 000 tamaşaçı tutumuna malik stadion inşa edilir. Digər rayonlarda da bu cür arenalar olacaq. Arzu edirəm ki, bu komplekslər də digərləri kimi ağzı bağlı qalmasın. Ad çəkmirəm,



amma idman kompleksi var ki, 20 ildə nə güləşçi yetişdirib, nə üzgüçü, nə də futbolçu. İnanıram ki, yeni yaradılan idman komplekslərindən yaxşı idmançılar çıxacaq.

**- Premyer Liqadan söz düşmüşkən, "Qarabağ" ötən gün 9-cu çempionluğunu rəsmiləşdirdi...**

- "Qarabağ" onsuz da çempiondur. Mənim bir sözüm var: idman ən böyük səfirdir. "Qarabağ" Çempionlar Liqasında qrupa düşəndə, hətta Braziliya mətbuatı da yazdı ki, işğal olunmuş Ağdamın komandası tarixi uğura imza atdı. Bu komanda, Qurban Qurbanov o vaxt Elmar Məmmədyarovdan daha böyük iş gördü. Dünyada futboldan populyar idman növü yoxdur. Ona görə istəyirəm ki, Azərbaycan futbolu inkişaf etsin. Son vaxtlar komandaların oyunları maraqlı keçir. Klub sayı artsa, daha gözəl olacaq. Bir də deyilənə görə, limiti ləğv etmək istəyirlər. Bunun mübahisəsi gedir ki, 6+5 yox, 8+3 olsun. Bəs onda milli komandada kim oynayacaq? Nənəm? O da ölüb. Yığmaya futbolçu lazımdır. Ancaq yerlilərdən ibarət komanda olmalıdır. Məsələn, "Sumqayıt" əvvəl elə idi, yığmaya oyunçu hazırlayırdı. Bu gün "Səbail" bu vəzifəni üstünə götürməsin ki, mən çempion olacağam. Halbuki milli komanda üçün futbolçu yetişdirməlidir. Gərək, çempion olsun? "Qarabağ" bundan sonra hələ 20 il çempionluğu heç kimə verən deyil. Qurbandan sonra necə olacağı bilinmir. "Neftçi"yə də uğurlar arzulayıram. Amma mən "Qarabağ"dan ötrü canımı da verərəm. Ölkə kubokunu isə "Zirə"nin udmasını istəyirəm.

**- "Xan Lənkəran"ın I Diviziona buraxılmamasına münasibətiniz necə oldu?**

- Mən hər zaman region təmsilçiləri - "Qarabağ", "Qəbələ" və "Xəzər Lənkəran"a azarkeşlik etmişəm. Lənkəran klubu çempionatdan çıxanda çox pərt oldum. Niyə bölgə komandaları azalmalıdır? Əslində "Qarabağ" da hazırda Bakı klubu hesab olunur. Ağdam bərpa olunandan sonra oraya gedəcək. Amma "Xan Lənkəran"ı ən azı I Diviizona buraxmaq lazım idi. Mən futbola baxmaq üçün Bakıdan Lənkərana gedirdim. Stadiona 15 000 adam toplaşırdı. Dünən "Qarabağ" - "Sabah" matçında 300 - 400 tamaşaçı var idi. Amma Şamaxıdakı oyuna daha çox azarkeş gəlmişdi. Regionlarda futbola maraq var. Deyirlər ki, "Xan Lənkəran"ın divizionda oynaması üçün müəyyən şərtlər lazımdır. A kişi, nə şərt? Şərt nədir? Ağıllı fikirləşincə, dəli vurub çayı keçir. Cənub bölgəsində 7-8 rayonun camaatı futbolla nəfəs alır. Ümid edirəm ki, "Xan Lənkəran"ı da I Diviziona gətirəcəklər.

**- Ümumiyyətlə, Region Liqasından I Diviziona keçidə necə yanaşırsınız?**

- Region Liqasında nə var? O gün də dava düşdü. Həvəskar çempionatdır, zəif keçir. Orada futbolçu yetişmir. Bunu da vurğulayım ki, Premyer Liqa təmsilçilərinin əvəzedici komandaları I Divizionda oynamamalıdır. Onların əvvəlkitək öz yarışı keçirilməlidir. Əvvəl futbolçular əvəzedici heyətdə oynayıb özünü göstərəndən sonra əsas komandaya gətirilirdilər. İndi isə başlı-başına buraxıblar. Belə olmaz. Bir ara əsas və əvəzedici komandanın xalları toplandıqdan sonra çempion bəlli olurdu. Sonra ləğv olundu. Əslində bu da düz deyildi. Əvəzedici kollektiv əsas komandaya dəstək olmalıdır. Yəqin, AFFA bunu nəzərə alar. Bir məsələni də qeyd edim ki, Elxan Məmmədovun, bir azərbaycanlının FIFA-da vəzifə alması, yüksəlməsi məni sevindirdi. Arzu edirəm ki, orada daha yaxşı işləsin.

**(report)**

# İlk görüşün uğuru

**Şeirlərini oxuduqca Qərib Borçalının zəhmətkeş bir ailədən dünyaya göz açdığını hiss edir, ona hüsn-rəğbətin birəbeş artdı...**

Qərib Borçalının "O, elin oğlu idi" kitabında tanınan şeirlərini bir neçə qrupa ayırmaq olar ki, onlardan da ən birincisi zəhmət mövzusudur.

"O, elin oğlu idi" adlı iri həcmli şeirində bir zəhmət adamının surətini yaratmış və eyni zamanda bu əmək qəhrəmanının qəlblərdə heykəlini yaratmışdır:






***O daim narahat bir insan idi,***
***Biganə qalmazdı elin dərdinə.***
***O bir igid idi, qəhrəman idi,***
***Düşmən qarşısında gərərdi sinə...***

deyən şair öz qəhrəmanının keçdiyi şərəfli yoldan söhbət açaraq, onu müqəddəsləşdirir, bir kəndin yox, bir elin oğlu olduğunu isbat etməyə çalışır...

Və sonda şair buna nail olur:

***Həyatda bir sifəti, bircə üzü var idi,***
***Düzü əyridən seçən qartal gözü var idi.***
***Həşdad illik ömrünü Qəhrəman tək yaşadı,***
***Qəhrəman tək anıldı onun hər yerdə adı.***

Qərib Borçalının şeirlərində Vətən mövzusu, el sevgisi, yurd həsrəti də önə çəkilir, oxucuda sonsuz bir duyğu yaradır:

***İtirdim laləzar bağı,***
***Fələk götürmək bu dağı,***
***Qaytar geri Qarabağı,***
***Yer titrəsin hayqırtıdan***
***Oyan, oyan Azərbaycan.***

yaxud,

***Qürbət eldə ölmək çətin,***
***Göz yaşını silmək çətin,***
***Düyün düşüb ilmək çətin,***
***Oğul istər onu açan,***
***Oyan, oyan Azərbaycan.***

Qərib Borçalı Azərbaycan xalqının Ümumilli lideri Heydər Əliyevin şəninə yazdığı bir şeirdə bu dahi lideri qəlblərə bir daha həkk edir:

***Onun qartal kimi baxışları var,***
***Zəhmindən göylərdə quş qanad saxlar.***
***Dağlardan ucadır, dərədən dərin,***
***Mənalı baxışı, gözü Heydərin.***

***Mənalı həyatı qayğıyla dolu,***
***Amalı xalqına azadlıq yolu,***
***Sanki açarıdır problemlərin,***
***Sorğularla dolu gözü Heydərin.***

Şair "Kürsü" şeirində vəzifənin gəldi-gedərliyinə eyham vuraraq, insanları var-dövlət hərisi olmamağa, zəhmət ucalığına səsləyir:

***Qədrini bilmədim cavan yaşında,***
***Başqa hava vardı onda başımda,***
***Cəl-cavahir imiş üzük qaşında,***
***Min dərdin dərmanı, əlacı kürsü.***

deyən şair sonda kürsünü Tirana bənzədir:

***Sanki şəfəq salır, Günəşə bənzər,***
***Dostu, qohumunu şəfqətlə izlər,***
***Qərib qorxusundan uzaqdan izlər,***
***Durduğu obada Tirandı kürsü.***

Şair Qərib Borçalının şeirlərində oxucunu düşündürən, ona dözüm, dəyanət aşılayan, bəzən nəsihət verən məqamlar da var ki, bu da təqdirəlayiqdir:

***Etibarı yoxdu qoca dünyanın,***
***Öz qiyməti vardır hər ötən anın.***
***Doydum kəlməsini gətirmə dilə,***
***Bu dünya əzəldən yaranıb belə.***

***Uyma var-dövlətə, şöhrətə uyma,***
***O qısa ömrünü qumara qoyma.***
***İnsanlıq tanınır öz izi ilə,***
***Bu dünya əzəldən yaranıb belə.***

Bəli, məhz bu məziyyətlərinə görə şair Qərib Borçalının "O, elin oğlu idi" şeirlər kitabını oxumağa dəyər. İnanıram ki, oxucularla ilk görüşü uğurlu alınan istedadlı şair Qərib Borçalı növbəti görüşə daha gözəl, daha dolğun, daha kəsərli şeirlərlə gələcək.

**Samir**

# "Yada düşdü"

**Bu gün özünün oxucu auditoriyasını yaratmış "Yada düşdü" jurnalının 2022-ci il üçün ilk sayı artıq oxuculara təqdim olunub. Diqqətli oxucular bilirlər ki, rüblük nəşr edilən bu ədəbi-bədii, nostalji jurnal özünün 10 yaşını ötən il qeyd etdi. Və indi bu on ildə qazandığı oxucu auditoriyası ilə birlikdə yeni uğurlara doğru addımldayır.**

Hər sayında jurnalın təsisçisi və baş redaktoru olan Nəzakət xanım Məmmədli ilk səhifədə, daha doğrusu, üz qabığının iç üzündə Təsisçidən rubrikası altında "Həyatı möcüzə bilək" şeirini təqdim edib. Şeirdə deyilir ki:

***Həyatın qəribə qanunları var,***
***İnsanı oynadar oyuncağıtək.***
***Hərdən üzümüzə gülüş də qonar,***
***Hərdən də yandırar od-ocağıtək.***




Bir bəndini təqdim etdiyim bu şeirlə başlanan jurnalın hər səhifəsində rəngarəng mövzular, rəngarəng materiallar oxucusunu gözləyir.

Etiraf etmək lazımdır ki, jurnalın həm tərtibatı, həm mövzu dairəsi, həm də jurnaldakı imzalar xüsusi önəm kəsb edir. Yəni oxucu tanıdığı, sayğı duyduğu imzalarla qarşılaşanda təbii ki, həm materiala da, həm jurnala da, həm də yaradıcı kollektivə də daxilən bir minnətdarlıq ifadə etmək özü üçün xoş hal hesab edir.

Bax, elə AYB-nin sədri, xalq yazıçısı Anarın "Rüstəm İbrahimbəyovun xatirəsinə" yazısı, professor Qulu Məhərrəmlinin "Yaddaşı yaşatmaq missiyası", akademik, millət vəkili Nizam Cəfərovun "Jurnalistin ədəbi debütü" məqaləsi, həmçinin professor Qəzənfər Paşayevin "Köhnə kişilərdən öyrəndiklərim" xatirələri şəxsən mənim üçün bir oxucu olaraq çox maraqlı və dəyərli fikirlərlə zəngin bir mənbədir.

Yəni bunları oxuduqca həm xatirələrə baş vurur, həm öyrənir, həm də təbii ki, düşünürəm. Axı bu həyat öyrənənləri daha ümidli edir.

Dərgidə filologiya üzrə fəlsəfə doktoru Sultan Seyidovanın, yazıçı-publisist Elşad Qocanın, unudulmaz xalq artistimiz Nəsibə xanım Zeynalova və digər dəyərli aktyorlarımızla ilgili fikirləri dərginin bu sayında oxuculara çatdırılıb.

**"Yada düşdü"nün daimi yazarlarından olan hərbi təhqiqatçı Şəmistan Nəzirlini, o cümlədən də tanınmış şairə Kəmalə Abıyevanın və ümumiyyətlə, jurnalda oxuculara təqdim olunan bütün müəlliflərin yazıları jurnalın bu sayının söz, fikir baxımından tutumlu edib. Düşünür və inanıram ki, bundan sonra da "Yada düşdü" oxucularını bu rəngarəngliklə zaman-zaman sevindirəcək.**

**Əbülfət MƏDƏTOĞLU**

# AFFA İntizam Komitəsindən yeni qərarlar

**Azərbaycan kubokunun 1/2 final mərhələsinin "Neftçi" - "Zirə" oyunu gec başladığı üçün meydan sahibi klub 3200 manat cərimə olunur.**

Qol.az xəbər verir ki, bu barədə AFFA İntizam Komitəsinin bugünkü qərarında bildirilir. Digər qərarlara əsasən, "Qarabağ"ın futbolçusu Patrik Andrade "Sabah"la Premyer Liqanın 25-ci tur matçında ikinci sarı vərəqə alaraq meydançadan kənarlaşdırıldığı üçün 1 oyun cəzalanıb, klub 200 manat cərimə olunub. Həmin turun "Zirə" - "Qəbələ" oyununda "Qəbələ"nin 4 futbolçusu sarı vərəqə ilə cəzalandırıldığı üçün klub 800 manat cərimə edilib.

25-ci turun "Sumqayıt" - "Neftçi" oyununda "Sumqayıt"ın futbolçusu Camaləddin Xocaniyazov ciddi qayda pozuntusuna görə birbaşa qırmızı vərəqə alaraq meydançadan kənarlaşdırıldığı üçün 1 oyun şərti olmaqla 2 oyun cəzalanıb, klub 1600 manat cərimə olunur. Sınaq müddəti 3 ay təyin edilib. "Neftçi"nin 5 futbolçusu sarı vərəqə ilə cəzalandırıldığı üçün klub 800 manat cərimə olunub.

# "Evi olmayana nəinki qız vermirlər, heç qələm də satmırlar..."

***Həmsöhbətimiz şair Vasif Zöhraboğludur.***

**-Mediada, ədəbi mühitdə üzdə olan yazarlar var. Bir də var sosial şəbəkənin, kütlənin şairi. Səni daha çox ikinciyə aid edərdim.**

- Ümumiyyətlə, kütlə anlayışı bəsit və mənasız anlayışdı. Biz hamımız müəyyən fərdlərin kütləsiyik. Mən zamanında bütün ədəbi orqanlarda çap olunmuşam, oxunmuşam, ədəbiyyatla bağlı müsabiqələrdə iştirak etmişəm, efirlərdə qonaq olmuşam. Hətta sənin üzdə hesab etdiyin bir çox gəncdən daha irəlidə keçmişəm finişi. Şeir şairin sarsıntısı, oxucunun təsəllisidir. Fərqi yoxdur oxucunu hansı vasitəsilə təsəlli edirik, əsas odur oxucu payına düşən təsəlli payını götürə bilir. Feysbuk daha ədalətli platformadır mənə görə. Orda çap edən də, çap olunan da özünsən. Mən heç vaxt sözümün üstünə ehtiyaclarımı yükləməmişəm, şeirdən maddi təmannam olmayıb. Şeir yazmaq mənə sadəcə zövq verir, həm də rahatlıq. Mən öz qələmim kölgəsində dincəlirəm, rahatlıq tapıram.

### *Düşünürdüm şeir mütləq qafiyədir, ölçüdür, hecadır*

**-"Ömür Bir Günlük Yuxudur" və "Natamam Təklik" adlı kitabların dərc olunub. İstər satış, istər diqqətdən razı qaldın?**

- Əslində, ilk kitabımdan "Ömür bir günlük yuxudur" özüm də böyük bir uğur gözləmirdim. Çünki orda çap olunan şeirlərin əksəriyyəti zəif idi, təcrübəsiz dönəmlərimdə yazmışdım. Düşünürdüm şeir mütləq qafiyədir, ölçüdür, hecadır. Meyxanadan gəlmişdim axı şeirə, hələ ritmindən çıxa bilməmişdim. Ancaq olsun, ən azından təcrübə qazandım. İkinci kitabım "Natamam Təklik" uğurlu oldu, çünki içindəkilər şeir idi. Burda artıq nağaranın səsi yox, ürəyimin döyüntüsü, düşüncəm, enerjim və ruhumun ağrısı var idi. Təqdimatı da uğurlu oldu, hər sahədən insanlar iştirak edirdi. Bilirsən Emin, mən heç vaxt heç kimə kitab verib deməmişəm ki, "fikrini bildir", "fikrin maraqlıdır", "sizdən kitabım haqqında fikir almaq mənə şərəfdi". Demək olar bütün saytlarda kitabın təqdimatıyla bağlı elanlar yayımlandı. Sağ olsunlar, özləri istəyib etdi bunu. Düşünürəm bunların hər biri usta şair üçün kifayət qədər uğur sayıla bilər. Şeirlərim oxunur, sevilir. Ustad Musa Yaquba Allah rəhmət eləsin, müsahibələrinin birində gənclərdən təkcə mənim adımı çəkmişdi, hələ əzbərdən bir şeirimi də demişdi.

Mənim ədəbiyyatla bağlılığım ancaq şeirlərimdi və mən ancaq şeir yazanda şair oluram. Qalan vaxtlarda usta babayam. Ürəyimi sirkələyəndə şeir, üstümü sirkələyəndə toz tökülür.

**- Şeirlərin sevilir. Amma bildiyim qədər sənin də təhsili yoxdur. Təhsilin olmaması səndən nələri alır?**

- Təhsil ala bilməməyim mənim şikəst tərəfimdir, ehtiyacların yaratdığ uşaqlıq travmasıdır. Bir şeirimdə deyirəm ki;

***"Biz sevməyi çörək növbəsində öyrəndik,***
***Müharibə ətirli çörəklərdə tanıdıq ölümü.***
***Bir gülləylə beş adamı öldürən insanlar,***
***Bir çörəklə beş adamı doydura bilmədilər"***

Düzdü, zamanla mütaliə edirəm, müxtəlif imzalarla tanış oluram, ancaq nağıllardan başlayan təhsilin yerini vermir.

Təhsilimin olmamağı məni müzakirə süfrələrindən uzaq tutur müəyyən vəziyyətlərdə. Ümumiyyətlə təhsilin yoxdursa həyatı praktiki yaşayıb öyrənirsən, heç bir nəzərriyən olmur. Amma şeirə daha çox ürək və ruh lazımdı. İkisindən də razıyam. "Məktəb İlləri" mahnısı məni kədərləndirmir, çünki xatirəsi yoxdu...

### *"Kütlə anlayışı bəsit və mənasızdı"*

**-Ustalıq edib ev tikirsən. Evi daş qaldırıb, şeiri söz. Hansı ürəyincədir? Əlbəttə ki, düşünmürəm ağır iş zövqlü olsun. Amma həyat, qayğılar baxımdan bilmək olmaz...**

- Bir dəfə Bakı kəndlərinin birində çalışırdım, qış ayları idi. Üç mərtəbəli evin çöl hissəsinə suvaq vururdum. Külək də elə bil ordu yığıb gəlmişdi üstümüzə, bəlkə də qiyamət gününə hazırlıq keçirdi. Məni on metr yüksəklikdə saxlayan ayaq altını sağa sola yelləyir, yıxmağa çalışırdı. Dövlət qurumlarında "Yaxşı Yerdə" vəzifəsi olan ev sahibi gəlib altdan yuxarı məni süzməyə başladı. Külək də qırmızı qalstukunu qarnının üstündən götürüb hərdən boynunun ardına, hərdən də üzünə çırpırdı. Bir xeyli düşünəndən sonra aşağıdan mənə səsləndi ki, usta, görürsən, oxumamısan, indi göyün üzündə ölümlə əlləşirsən. Oxusaydın indi fərqli yerlərdə olardın. Mən öz köməkçimi (fəhləmi) ona göstərib dedim ki, iki diplomu var, üç dil bilir. Amma fəhlədir, özü də diplomsuzun yanında. Susdu...

Yaradıcı insan üçün önəmi yoxdur hansı sahədə çalışır. Vicdanla görülən bütün işlərin nəticəsindən zövq almaq mümkündür. Mən saysız-hesabsız evlər tikmişəm, Bakı küləyiylə savaşlardan üzü ağ çıxan damlar vurmuşam. İndi elə bilirəm tikdiyim evlərin pəncərəsindən baxan bütün tək adamlar mənim əllərimlə darıxır...



Hər kəsin bir evə ehtiyacı var, elə şairin də. Evi olmayana nəinki qız vermirlər, heç qələm də satmırlar...

**-AYB-nin üzvüsən, gənc şair kimi prezident təqaüdü də almısan. Bəzən həmkarların deyir ki, təqaüd almaqçün hökmən kiməsə yaltaqlıq etməlisən...**

-Mən təqaüd alanda nəinki öz yaşıdlarım, hətta məndən gənc yazarlar da artıq bu mükafata layiq görülmüşdü. Dostum İntiqam Yaşarla bir dəfə söhbət edirdik. Mənə dedi ki, ayə, qağa, sən təqaüd almısanmı?- dedim yox. Dedi bəs niyə müraciət etmirsən? Dedim nə bilim, bu haqda heç fikirləşməmişəm. Dedi müraciət et. Mən də feysbuk üzərindən Rəşad Məcidə yazdım ki, Rəşad müəllim, bu il təqaüd alanların sırasında mən də varammı? Dedi ərizə yazmısan? Dedim yox. Dedi ərizə yaz. Ərizəmi yazıb növbəti il də təqaüd almışam. Bu qədər sadə. Burda yaltaqlıq hansı cümlədədir?

**-Bəs, AYB üzvü olmaq buxovdur sənə? Nəyi yazmaq istəmisən, amma AYB üzvü olduğuna görə yaza bilməmisən?**

- Mən şeirlərimin əsas mövzusu sevgidir, az qismini də dünyavi və fəlsəfi şeirlər təşkil edir.

Sevgi şeirləri yazan bir şairə AYB niyə buxov olsun ki? Siyasi mövzuda nələrsə yazmış olsaydım sənin sualına daha çox düşünməli olardım. "Dəlilik azadlığın ifrat formasıdır" "Sevmək həddi aşmaqdı" "Şəkilə çevrilmiş hər kəsin kürəyində divar soyuqluğu var" Məni bu üç cümlədəki əsas adamam.

Mən bəzi həmkarlar kimi AYB-ni sosial şəbəkələrdə tənqid edib, yıxıb, sürüyüb sonra üzv olmamışam.

**-Ürək ağrı vermirsə, onun varlığının əhəmiyyəti yoxdur? Olmazki bu həyatı ağrısız yaşayaq?**

***Yox, sənə ürəyin ağrı vermirsə,***
***Heçnəyi dəyişmir solda olmağı.***
***və ya da ki,***
***Sən harda dayansan, sən harda dursan,***
***Mənim də ürəyim sən tərəfdədir.***

Və ya da ki,

***Hər kəs bir tərəfindən ölməyə başlayar, əzizim;***
***Alimlər ağlından,***
***Rəssamlar gözlərindən,***
***Şairlərsə ürəyindən ölərlər.***
***Amma ən gözəl ölüm də elə ürəyindən ölməkdir.***
***Yıxılıb bir qadının ayaqlarına,***
***Öz ürəyinin***
***Ətəyində ölməkdir.***

Ağrılar insan oğlunun mənəvi məsuliyyətidir, hətta hər kəsin tanrısı da öz ağrıları boydadır. Ağrılar bizim təkamül səbəbimizdir, mağaralardan ən yüksək binalara qalxdığımız yoldur. Yaradıcı ruhlar anadangəlmə ağrı xəstəliyiylə doğulur...

**-Bəlkə də şeirlərimizdə ağrını, əzabı tərənnüm etdiyimizdən, həmçinin ağrısız şeir yazmağın mümkünlüyündən danışdığımızdandır ki, Tanrı bizə nəyi verməsə də ağrıdan məhrum etmir. Günah özümüzdədir?**

- Tanrı ağrı verdiyi hər kəsə öz qəlbini bağışlayıb. Beynimizə qan sızanda insult, sevgi sızanda dəli, ağrı sızanda insan oluruq. Ağrı bütün bəşəriyyətin sıfırlandığı nöqtədir, özünü dərk yeridir. Adam həyatı səthi, vecsiz yaşayanları gördükdən sonra istəyir ağrılarından muğayat olsun. Ümumiyyətlə bu fani xarabalıqda necə xoşbəxt, ağrısız yaşamaq olar ki? Biz axı özümüz üçün yaşamırıq, ömrümüzə şərik olanlar da var...

### *Bütün meyxana deyənlər əvvəlcə yaxşı cırtma çalan olurlar*

**-Şeirə səni meyxana həvəsin gətirib. İndi meyxana ilə aran necədir?**

- Əsgərlikdə bir-iki meyxana deyən yoldaş var idi, hər axşam qafiyə açıb meyxana deyirdilər, vaxt öldürürdülər. Mən və başqa yoldaşlar da bunların ətrafına yığılıb çırtma çalardıq. Əslində bütün meyxana deyənlər əvvəlcə yaxşı cırtma çalan olurlar, yəni yaxşı cırtma çalmağı bacaran barmaqların yoxdursa səndən "söz ustadı" ola bilməz. Mən də cırtma çala-çala meyxana deyən olmuşdum. Sağ olsun "Ustad" əsgər yoldaşlarım, mənə "sənətin" sirlərini öyrətmişdilər haramı düzündə. Düzünü desəm kitablara sevgim də, ədəbi mühitlə tanışlığım da meyxanayla başladı. Sonralara az da olsa toylara, meydanlara gedirdim. İndi tamamilə uzağam, dinləmirəm. Onu da deyim ki, meyxanadan şeirə çox az adam gəlib uğur qazanıb. Meyxananın ritmində çıxmaq çətindir...

**-Belə baxanda meyxanadan pis qazanmırlar. Bəlkə bənnalığın başını buraxıb toylara meyxana deməyə gedəsən?**

-Heç tikinti sahəsində də az pul yoxdu. Nə fərqi ya o əllərlə cırtma çaldın, ya da daşı daş üstə qoydun. Allah ustadımız Memar Əcəmiyə rəhmət eləsin. Mən azadlığıma düşkün adamam. Tikintidə ev sahibiylə yola getməyəndə sözümü deyib, malamı da götürüb gedirəm. Toy sahibiylə yola getməsəm sözümü götürüb hara gedəcəm? Hara da getsəm yenə də qayıtdığım, ruhumu oxşadığım yer sözdür. Həm də ucuz sözü də gərək baha satmayasan, fitə aldanmayasan. Söz parnik məhsulu deyil. Amma səninlə meyxana deyə bilərəm, qafiyəni özüm açacam. Söz...

**Söhbətləşdi:**
**Emin Piri**

# *Finlandiya ən pisinə hazırlaşır: 5 ulduzlu sığınacaq*

**Rusiyanın Ukrayna işğalından sonra NATO-ya müraciəti gündəmə gətirən Finlandiya ingilis mediasına nüvə sığınacaqlarını tanıtdı. Sığınacaqlarda uşaqlar üçün oyun məkanları, futbol meydançaları və istirahət yerləri diqqət çəkdi.**



Finlandiya və İsveçin NATO-ya girmək planları Rusiya idarəçiliyini qəzəbləndirərkən Finlandiya baş tuta biləcək rus işğalına hazırlaşmağa başladı. İngiltərənin öndə gedən qəzetlərindən biri olan "Daily Telegraph" sığınacaqlara girərək "lüks" tikililəri araşdırdı. Rusiya ilə 1300 kilometrlik bir quru sərhəddi və 5,5 milyon əhaliyə sahib olan Finlandiyada 54 min fərqli nöqtədə 4,4 milyon insanı qoruya biləcək sığınacaq var. Təkcə 650 min əhalisi olan paytaxt Helsinkidə 900 min nəfərlik 5500 sığınacaq yerləşir. Ölkə qanunlarına görə, 1200 kvadratmetrdən çox olan bütün binalarda sığınacaqların olması məcburidir. Finlandiya hökuməti həmçinin 44 hərbi bunker inşa edib. Sülh dövründə ictimai məkan kimi xidmət edən bu məkanlar 72 saat ərzində tam işlək sığınacaqlara çevrilmək üçün nəzərdə tutulub. Bunkerlər nüvə, bioloji və kimyəvi hücumlara da davamlıdır.

**Eminquey**

# *Adada turizm məkanına çevirilən həbsxana*



**Adalat.az -ın əldə etdiyi məlumata görə Meksikanın Sakit okean sahillərində əvvəllər İslas Marias ada həbsxanasının yerləşdiyi kiçik arxipelaq indi turistləri qəbul etməyə tam hazırdı.**

Məlumatda bildirilir ki, Məryəm Ana adasına çatmaq hətta ən tələbkar turist üçün də asan deyil. Belə ki, qeyri-sakit sularda beş saatlıq qayıqla səyahət etmək insanda cəsarət tələb edir. Turizm məkanına çevirlən - İslas Marias həbsxana koloniyası 1905-ci ildə dörd adadan ən böyüyü olan və Nayarit sahilindən 60 mildən çox məsafədə, insanların yeganə məskunlaşdığı Məryəm Ana adasında yaradılıb. Meksika sahillərində tez-tez baş verən qasırğaların zərər vurduğu həbsxananın fəaliyyəti 2019 - cu ildə dayandırılıb. Meksika Prezidenti Andres Manuel Lopez Obrador onu ekoloji təhsil mərkəzinə çevirib və oradan 150-yə yaxın yeniyetmə faydalanıb. Hal - hazırda isə Meksika hökuməti onu ziyarətçilərin dəniz quşlarını seyr edə və çimərliklərdən həzz ala biləcəyi ekoturizm obyektinə çevirməyi bacarıb.

**Bünyamin**

**ELAN**

**29 iyun 2022-ci il tarixində saat 11:00-da "GƏNCƏ-TEKSTİL" Açıq Səhmdar Cəmiyyətin səhmdarlarının ümumi yığıncağı keçiriləcəkdir. Yığıncaq onlayn keçiriləcək. Səhmdarların iştirak etməsi xahiş olunur.**

**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 77**
Çapa imzalanmışdır: 06.05.2022